# YAŞAYAN VƏ GİZLİ İMAM

## ALLAHIN ƏMRİ GƏLƏCƏKDİR. (NƏHL 1)




Allahın Əmri həmişə diridir. Bu Əmri diri saxlayan da diri olmalıdır. Allahın Əmrini diri saxlayanlar Allah tərəfindən hidayət olunmuş, öyrədilmiş və seçilmişlərdir. Bu əvvəllər də belə idi, indi də belədir. Bu gün Əmri diri saxlayan seçilmiş, hİdayət olunmuş və hidayət edən **kimdir?**

# Mündəricat




Yaşayan İmam (Canlı Höccət) 04

Yer üzü höccətsiz qalmaz (hədislər) 05

Niyə hər zamanda daimi yaşayan ilahi höccət olmalıdır? 09

Həzrəti Məhdi (əccələllahu fərəcəhuş şərif) kimdir? 13

Həzrəti Peyğəmbərin (səlləllahu ələyhi və alih) 12 İmam və 12-ci İmam barəsində buyurduğu hədislər 24

Qeybin doğru izahı 26

Həzrəti Məhdinin (əccələllahu fərəcəhuş şərif) qeybinin mənası (hədislərdə) 30

Qeyb ənənəsi 38

Qeyb dövründə Həzrəti Məhdidən (əccələllahu fərəcəhuş şərif) necə faydalanaq? 44

Qeyb dövründə vəzifələrimiz 50

Zühuru üçün oxunan dua; İlahi əzuməl bəla duası (Fərəc duası). 56

Ali-Yasin ziyarətnaməsi 57

İntizarda olmaq 60

Həzrəti Məhdi (əccələllahu fərəcəhuş şərif) Quranda 63

Həzrəti Məhdi (əccələllahu fərəcəhuş şərif) başqa mənbələrdə 84

Həzrəti Məhdinin (əccələllahu fərəcəhuş şərif) zühuru və əlamətləri 90

Zühur nə zamandır? 100

Bəzi məsələlər 102

# Yaşayan İmam
## (Canlı Höccət)

İbrahim ibn Əbu Mahmud deyib: “İmam Rza (əleyhis-səlam) buyurdu: “Biz Allahın məxluqatı arasında olan höccətləriyik, bəndələri arasındakı xəlifələriyik, sirrinə olan əmanətdarlarıyıq. Biz təqva kəlməsiyik, möhkəm (və sarsılmaz) ipik. Biz Allahın şahidləriyik, yaratdıqları arasında nişanələriyik. Allah göyləri və yeri zaval tapmasınlar (öz mehvərindən çıxmasınlar) deyə, bizimlə tutub saxlayır. O, bizimlə yağmur endirir və rəhmət(ini) yayır. Yer üzü istər aşkar olsun, istərsə də gizli – bizdən olan Qaimsiz (təkbaşına) qala bilməz; əgər bir gün belə, (təkbaşına, əskik halda) höccətsiz qalsaydı, dəniz öz sakinlərilə birlikdə ləpələndiyi kimi yer də öz əhli ilə birlikdə silkələnərdi”.

*Kəmaluddin c.1, bab 21, h. 6, səh.202, Biharul-Ənvar c.23, səh.35*

**Allahın Əmri həmişə diridir. Bu Əmri diri saxlayan da diri olmalıdır. Allahın Əmrini diri saxlayanlar Allah tərəfindən hidayət olunmuş, öyrədilmiş və seçilmişlərdir. Bu əvvəllər də belə idi, indi də belədir. Bugün Əmri diri saxlayan seçilmiş, hidayət olunmuş və hidayət edən kimdir?**

Həm əqli həm də nəqli dəlillərə əsasən yer üzərində həmişə Allahın dinini diri saxlayan və daima yaşayan höccətləri olmalıdır. Bu bəşər tarixinin ilk günündə də belə idi, o gündən bugünə kimi də belə olub və dünyanın sonuna kimi də belə olacaqdır. Bu höccətlər və vəsilər Allah tərəfindən hidayət olunmuşlar və Allah tərəfindən hidayət edənlərdirlər. Bu Allahın dininin heç bir şübhə içərisində olmamasına habelə bu dinin sağlam, etibarlı və möhkəm olması üçündür. Əgər belə olmasa idi müəyyən zaman içərisində olsa belə Allahın dininin özbaşına və pərakəndə qalması, həmçinin istənilən şəxsin özünü haqq hidayət edən bilməsi haqdan olardı. Necə ki, bu məsələyə soyuq yanaşanların öz halları və yalnız özlərinə aid hissəsi hal-hazırda belədir, ancaq bu haqdan deyildir. Çünki Allah heç bir zamanda insanları özbaşına buraxmamışdır və onlara heç bir bəhanə yeri qoymamışdır. **“Açıq-aydın şəkildə höccəti tamamlamaq (heç bir söz yeri qoymamaq) Allaha məxsusdur” (Allah höccətini tamamlayandır) (Ənam surəsi,149).**

Bu bəhanələrin olmaması üçün Allah hər zaman öz zəmanəsinin dövründə yaşayan, Özü tərəfindən hidayət olunmuş və hidayət edən, adı və nəsəbi məlum olan, nişanələri və xüsusiyyətləri açıq şəkildə bəlli olan, gizlində və ya aşkarda olmaqla həmişə ilahi rəhbərlər və canişinlər seçmişdir.

**Belə ki, bizim yaşadığımız axırzamanda da bu deyilən xüsusiyyətləri özündə ehtiva edən və hal-hazırda yaşayan bir höccət olmalıdır. Əgər belə olmasa, o zaman diskriminasiya olar. Bu isə Allahın ədalətindən uzaqdır.**

**Bəs dövrümüzdə bu xüsusiyyətlərə malik olan, möhkəm nəqli və əqli dəlillərə əsaslanan vədolunmuş və nicatverən yaşayan höccət kimdir?**

Cabir ibn Abdullah Ənsari deyib: “Allah Rəsulu (səlləllahu ələyhi və alih) buyurmuşdur: “Məhdi mənim övladlarımdandır; adı mənim adım, künyəsi mənim künyəmdir. O, camaat arasında yaradılış və əxlaq baxımından mənə ən çox bənzəyəndir. Onun qeyb və heyrət dövrü vardır ki, orada ümmətlər azğınlığa düşər. Sonra dəlib keçən bir ulduz (meteorid) kimi irəli gələr oranı (yer üzünü) zülmət və haqsızlıqla dolduğu kimi haqq ədalətlə doldurar”.

*Kəmaluddin c.1, bab 25, hədis 1, səh. 286, Kifayətul Əsər, səh.66, Biharul Ənvar, c.36, səh. 309*







# Yer üzü höccətsiz qalmaz (hədislər)

İmam Rza (ələyhis-səlam) Həzrəti Peyğəmbərin (səlləllahu ələyhi və alihi) **“O gün (Qiyamət günü) bütün insanları öz imamları ilə birlikdə (hüzurumuza) çağıracağıq”** ayəsi (*İsra 71)* haqqında belə buyurduğunu nəql etmişdir: “Hər qövm öz zəmanəsinin imamı, Rəbbinin kitabı və peyğəmbərinin sünnəsilə çağırılacaq”.

*Uyunu Əxbarir Rza (ə) c.2, səh.33, bab 31, hədis 61, İsbatul-Huda c.1, səh.165, Biharul-Ənvar c.24, səh.264*

İmam Rza (ələyhis-səlam) atalarının vasitəsilə Həzrəti Peyğəmbərin (səlləllahu ələyhi və alihi) belə buyurduğunu nəql etmişdir: “Mən sizin aranızda **iki ağır əmanət** qoyub gedirəm: Allahın Kitabını və itrətim Əhli Beytimi. Onlar hovuz başında yanıma gələnədək bir-birindən ayrılmayacaqlar”.

*Kəmaluddin c.1, səh.239, bab 22, hədis 58, İsbatul-Huda c.2, səh.311, Biharul-Ənvar, c.23, səh.132*



Səfvan ibn Yəhya deyib: “İmam Rzanın (ələyhis-səlam) belə dediyini eşitdim: “Həqiqətən, yer üzü orada bizdən olan **bir imam olmadan** boş qalmaz”.

*Kəmaluddin c.1, səh.228-229, bab 22, hədis 23, Biharul-Ənvar c.23, səh.42, İsbatul-Huda, c.1, səh.137*

İmam Baqir (əleyhis-səlam) buyurub: “Allah Rəsulu (səllallahu ələyəhi və alihi) Əliyə (əleyhis-səlam) və hələ uşaq olan Həsənə (əleyhis-səlam), Hüseynə (əleyhis-səlam) vəsiyyət etmiş, sonra isə belə buyurmuşdur: “Allah-taala Qurani-Kərimdə belə buyurur: “Ey iman gətirənlər, Allaha itaət edin. Onun peyğəmbərinə və öz əmr sahiblərinizə tabe olun” (Nisa 59). Bununla da, Allah-taala Qiyamət gününə qədər imamların Əli (əleyhis-səlam) ilə Fatimənin (səlamullahi-ələyha) nəslindən olmasını istəmişdir”.

*Dəlailul İmamə səh.436, hədis 406*

Əbu Həmzə Sumali İmam Sadiqdən (əleyhis-səlam) nəql edərək deyib: “Ona dedim ki, yer üzü imamsız qala bilərmi? Dedi: “Yer üzü bir saat imamsız qalsa (dibə) çökər”.

*Kəmaluddin c.1, səh.201, bab 21, hədis 1, Biharul-Ənvar c.23, səh.21, Şeyx Tusi Qeyb dövrü, səh.220, İləluş-Şərai, c.1, səh.196*

Üqbə ibn Cəfər belə rəvayət edir: “Əbülhəsən Rzaya (əleyhis-səlam) dedim: “Bu yaşa gəlib çatmısan, hələ də övladın yoxdur”. O buyurdu: “Ey Üqbə! Bu məsələnin sahibi öz övladları arasından davamçısını görmədən vəfat etməz”.

*Dəlailul İmamə səh.435, hədis 404, Biharul-Ənvar c.50, səh.35, Kifayətul-Əsər, səh.278, Kəmaluddin c.1, səh.229*

Əli ibn Əbu Talib (əleyhis-səlam) Allah Rəsulunun (səllallahu ələyhi və alihi) belə buyurduğunu demişdir: “Ulduzlar səma sakinləri üçün əmniyyətdir, belə ki, ulduzlar aradan gedərsə, səma əhli də aradan gedər. Əhli-beytim də yer əhli üçün əmniyyətdir; Əhli-Beytim aradan getsə, yer əhli də aradan gedər”.

*Kəmaluddin c.1, səh.205, bab 21, hədis 19,*
*Biharul-Ənvar c.27, səh.309, İsbatul-Huda c.2, səh.68*







Hüseyn ibn Əbu Əla belə nəql edir: “İmam Sadiqdən (əleyhis-səlam) soruşdum: **“Yer üzü imamsız qala bilərmi?”** O buyurdu: “Xeyr”. Mən soruşdum: “İki imam ola bilərmi?” O buyurdu: “Xeyr, (əgər belə olarsa) ikisindən biri susmalıdır”. Mən soruşdum: “Bəs Qaim?” O buyurdu: “Bəli, o, imam oğlu imamdır. Siz ona bundan əvvəl vəd edilmişlərsiniz”.

*Dəlailul İmamə səh.437, hədis 408, Kəmaluddin c.1, səh.223, İsbatul-Huda c.1, səh.136*

Süleyman Cəfəri deyib: “Əbülhəsən Rzaya (əleyhis-səlam) sual verib, dedim ki, **yer höccətsiz qala bilərmi?** Buyurdu ki, bir göz qırpımında belə, höccətsiz qalsaydı, əhli ilə birlikdə batardı”.

*Kəmaluddin c.1, səh.204, bab 21, hədis 15, İsbatul-Huda, c.1, səh.133, Biharul-Ənvar c.23, səh.29*



İmam Sadiq (ələyhis-səlam) buyurub: “Cəbrail (ələyhis-səlam) Həzrəti Muhəmməd peyğəmbərə (səllallahu ələyhi və alihi) Rəbbindən xəbər gətirərək dedi: “Allah buyurub: “Ey Muhəmməd, həqiqətən, yer üzünü onunla itaət və hidayətimin tanındığı alimsiz buraxmayacağam. O, bir peyğəmbərin ölümü və digər peyğəmbərin zühuru arasında nicat verəcək. Yer üzündə Mənə dəvət edən, yoluma hidayət edən və əmrimi bilən **höccət** olmadan İblisə insanları yolundan azdırmağa imkan verməyəcəyəm. Hər bir qövmə hidayət edən qərar vermişəm. Onun vasitəsilə xoşbəxtləri hidayət edəcəyəm və o, bədbəxtlərə höccət olacaq”.

*Dəlailul İmamə səh.438-439, hədis 412, Biharul-Ənvar, c.23, səh.22, İləluş-Şərai c.1, səh.196*

Əban ibn Təğlib İmam Sadiqin (ələyhis-səlam) belə buyurduğunu nəql etmişdir: “**Höccət** yaradılışdan əvvəldir, yaradılışla birlikdədir və yaradılışdan sonradır”.

*Kəmaluddin c.1, səh.221, bab 22, hədis 5, İsbatul-Huda, c.1, səh.157, Biharul-Ənvar c.23, səh.38*







# Niyə hər zamanda daimi yaşayan ilahi höccət olmalıdır?

O gün bütün insanları öz imamları ilə birlikdə çağıracağıq. *- İsra surəsi, 71*

Fuzeyl deyir: İmam Baqirdən (ələyhis-səlam) Allah-Təalanın “O gün bütün insanları öz imamları ilə birlikdə çağıracağıq” ayəsi barəsində soruşdum, belə buyurdu: “Peyğəmbər (səllallahu ələyhi və alihi) öz camaatı ilə, Əli (ələyhis-səlam) öz camaatı ilə, Həsən (ələyhis-səlam) öz camaatı ilə, Hüseyn (ələyhis-səlam) öz camaatı ilə və hər bir imamın dövründə yaşayıb dünyadan köçənlər də öz imamları ilə gələcəklər.

*Əyyaşinin Təfsiri c.2, səh.324, hədis 114*

**İmam Baqir (ələyhis-səlam) buyurub: “Allah Rəsulu (səllallahu ələyhi və alihi) Əliyə (ələyhis-səlam) və hələ uşaq olan Həsənə (ələyhis-səlam) və Hüseynə (ələyhis-səlam) vəsiyyət etmiş, sonra isə belə buyurmuşdur: “Allah-Təala Qurani-Kərimdə belə buyurur: “Ey iman gətirənlər, Allaha itaət edin, Onun peyğəmbərinə və əmr sahiblərinizə itaət edin” (“Nisa” surəsi, 59-cu ayə). Bununla da, Allah-Təala Qiyamət gününə qədər imamların-Əli (ələyhis-səlam) ilə Fatimənin (səlamullahi-ələyha) nəslindən olmasını istəmişdir”.**

*Dəlailul İmamə səh.436, hədis 406*



Bu və bunun kimi ayə və hədislərdən də gördüyümüz kimi Allah yer üzündə daimi olaraq yaşayan ilahi höccətlərin olmasını iradə etmiş və eyni zamanda bu ilahi höccətlərin əsil-nəsəbi, adları və vəziyyətləri aşkar şəkildə hədislərlə bizə bəyan olunmuşdur.

Bununla belə bu barədə bəzi fikirlər və suallar meydana gələ bilər və ya gəlmişdir ki-bu suallardan biri budur; **Niyə hər zamanda daimi yaşayan ilahi höccət olmalıdır?** Yəni hər dövrdə yaşayan ilahi höccətin olmasının mənası nədir və buna nə ehtiyac vardır? Bir haldaki, Həzrəti Rəsuli-Əkrəm (səlləllahu ələyəhi və alihi) din gətirmiş, kitab gətirmiş və İslam dini kamil olmuşdur. Beləki, bu bizə kifayətdir və Həzrəti Peyğəmbərdən (səlləllahu ələyəhi və alihi) sonra yeni bir ilahi höccətə ehtiyac yoxdur. Çünki istər Peyğəmbərdən (səlləllahu ələyəhi və alihi) sonra, istərsə də hər hansı başqa bir ilahi höccətdən sonra yenə də onların sözlərini bizə çatdıracaq və izah edəcək alimlər olacaqdır. Yəni, əgər dində dəyişiklik yoxdursa və olmayacaqdırsa da, o zaman biri ya Peyğəmbərin sözünü ya da ondan sonrakı başqa bir ilahi höccətin sözünü camaata çatdırsa-nə fərq edəcəkdir? Yenə də arada başqa vasitəçilər olacaqdır. Buna görə də Peyğmbərdən sonrakı ilahi höccətlər sanki formal xarakter daşımış kimi görsənəcəkdir. O zaman belə çıxır ki, daimi yaşayan ilahi höccətlərin olması vacib bir məsələ deyildir və sadəcə alimlərlə də kifayətlənmək olardı. Xüsusilə də qeyb zamanında dövrün İmamına müstəqil olaraq əlimiz çatmadığından istər-istəməz alimlərlə kifayətlənməli oluruq. Bir haldakı indiki halda alimlər də yenə Peyğəmbərin (səlləllahu ələyəhi və alihi) sözlərini və rəftarlarını qədim mənbələrlə bizə çatdırırlar. Bütün bunlar hər dövrdə daimi yaşayan ilahi höccətin olmasının vacibliyini qüvvədən salmırmı? və ya belə bir höccətin olmasının mənası nədir?

Cinləri və insanları yalnız Mənə ibadət etsinlər deyə yaratdım. *- Zariət surəsi, 56*







İmam Sadiq (ələyhis-səlam) İmam Baqirdən (ələyhis-səlam), o da İmam Səccaddan (ələyhis-səlam) ) onun belə buyurduğunu nəql etmişdir: ...Allah Adəmi (ələyhis-səlam) yaradandan bəri yer üzü – istər aşkar və məşhur olsun, istərsə də gözlərdən kənar (qeybdə) və gizli olsun, Allahın höccətindən boş qalmayıb. Qiyamət gününədək də ora Allah höccəti olmadan boş qalmayacaqdır. Əgər belə olmasaydı, Allaha ibadət edilməzdi.

*Kəmaluddin bab 21, hədis 22*



Yaşayan və gizli İmam (Canlı Höccət)

Allahın yaradılışdan və dininin mənalarından biri, həm də önəmlisi Ona ibadətin olunmasıdır. Əgər yer üzündə hər an etibarı ilə ibadəti mütləq şəkildə qəbul olunmuş ən azı bir nəfər yoxdursa, o zaman yaradılışın və dinin mənası olmaz. Elə bir din fərz edək ki, kitab gətirilmiş və əmrlər verilmiş, ancaq an etibarı ilə bunlara kamil şəkildə əməl edən bir nəfər də olsun belə yoxdur. Bu zaman bu dinə din deyilməz, deyilsə də ilahi din olmaz.

Hal-hazırda yaşadığımız dövrdə an etibarı ilə mütləq şəkildə ibadəti qəbul olunmuş və bunu iddia edən neçə nəfər vardır? Əlbətdə ki, bunu Allah tərəfindən seçilmiş və hidayət olunmuş ilahi höccətdən başqa heç kəs deyə bilməz. Deməli hər dövrdə daimi yaşayan ilahi höccətin olmasının zəruriliyinin mənalarından biri yer üzündə həmişə Allaha qəbul olunmuş ibadət edən bir bəndənin olmasıdır. Əgər belə olmasaydı onda din ibadətsiz qalardı.

Əgər din hər zaman diri və canlı qalmalıdırsa, onun üzərində hakim olan ilahi höccət də diri və canlı qalmalıdır. Çünki bunların hər ikisi birdir və bir-birinə bağlıdır.

İmam Rza (ələyhis-səlam) Peyğəmbərin (səllallahu ələyhi və alihi)-"O gün bütün insanları öz imamları ilə birlikdə çağıracağıq" ayəsi haqqında belə buyurduğunu nəql etmişdir: "Hər qövm öz zəmanəsinin imamı, Rəbbinin kitabı və peyğəmbərinin sünnəsilə çağırılacaq".

*Uyunu Əxbarir Rza (ə) c.2, səh.33, bab 31, hədis 61, İsbatul-Huda c.1, səh.165, Biharul-Ənvar c.24, səh.264)*



İmam Baqir (əleyhis-səlam) buyurub: “Yer üzü biz imamlardan biri olmadan bir gün belə, qalarsa, əhalisi ilə birgə məhv olar. Allah onun əhalisinə şiddətli əzab verər. Çünki O, bizi yerinin üzərində höccət və əhalisinin üzərində əmin şəxslər qərar vermişdir. Biz onların arasında olduğumuz müddətdə yer üzünün onları məhv etməsindən amanda olarlar. Əgər Allah məhv etmək istəyərsə, onlara möhlət verməz və onları gözlətməz. Bizi onların arasından aparar və onlara istədiyini edər”.

*Dəlailul İmamə səh.436, hədis 407, İsbatul-Huda c.1, səh.133, Kəmaluddin, c.1, səh.204, Biharul-Ənvar, c.23, səh.37*



Allahın yaradılışdan və dininin mənalarından biri də **dövrün insanlarının həmişə yaşayan ilahi rəhbərlə yəni canlı höccətlə birlikdə yaşamasıdır.** Dövrün insanları öz höccətləri ilə birlikdə hərəkət etməli, onunla otrub-durmalıdırlar. Çünki dövrün standartları eyni deyildir. Hər höccətin dövrünün şəraitləri və vəziyyətləri fərqli ola bilər. Birində sülh, birində müharibə ola bilər. Bir höccətin dövründə din aşkar, başqa bir höccətin dövründə isə gizlin ola bilər. Hər dövrün insanı öz dövrünün höccətinin hərəkətlərini izləməlidir. Belə olmasa, öz dövrümüzdə hansı dövrün höccətinin hərəkətlərini əsas götürməli olduğumuzu bilmərik. Məsələn: Biz axirəz-zəman dövründə yaşayırıq və höccətimiz hal-hazırda qeybdədir. Deməli, biz də qeyb dövründə etməli olduğumuz rəftarları və davranışları etməliyik. Əgər belə olmasaydı onda bizə təkcə bir höccət kifayət edərdi və Allah çoxlu peyğəmbərlər göndərməzdi. Halbuki, peyğəmbərlərin arasında və sözlərində heç bir ixtilaf yoxdur.

Deməli hər dövrdə daimi yaşayan ilahi höccətin olmasının zəruriliyinin mənalarından biri, insanların yaşayan ilahi höccətlə birlikdə olması və onunla birlikdə hərəkət etməsidir. Baxmayaraq ki, yaradılışdan bəri Allahın sözündə dəyişiklik olmamışdır.

Əmirəl-möminin (ə) buyurumuşdur: “Öz Peyğəmbərinizin Əhli-beytinə baxın və onların yolundan çıxmayaraq əməllərinə tabe olun ki, heç vaxt sizi doğru yoldan çıxarmaz, həlakət və azğınlığa qaytarmazlar. Əgər onlar əyləşsələr, siz də əyləşin, əgər ayağa qalxsalar, siz də qalxın və onlardan önə keçməyin ki, azğın və sərgərdan olarsınız, arxada da qalmayın ki, həlak olarsınız...”

*“Nəhcül-bəlağə”, xütbə 96*





# Həzrəti Məhdi (əccələllahu fərəcəhuş şərif) kimdir?

Həzrəti Məhdi (əccələllahu fərəcəhuş şərif) hicri 255-ci il (m.869) Şəban ayının 15-də Samərra (Surrə-mən-ra) şəhərində anadan olmuşdur. Atası 11-ci İmam Həzrəti Həsən Əskəri (əleyhis-səlam), anası Həzrəti Nərcis (səlamullahi əleyha) xanımdır. Həzrəti Məhdi (əccələllahu fərəcəhuş şərif) Həzrəti Muhəmməd Peyğəmbərimizin (səlləllahu əleyhi və alih) buyurduğu 12 imamın 12-cisi, həmçinin sonuncu Höccətdir.

Əta ibn Saib öz atasından, o da Abdullah ibn Məsuddan Allah Rəsulunun (səlləllahu əleyhi və alih) belə buyurduğunu eşitdiyini nəql edir: “Məndən sonrakı imamlar on iki nəfərdir. Onlardan doqquzu Hüseynin sülbündəndir. Doqquzuncusu isə onların Məhdisidir”

*Kifayətul Əsər, Bab: Allah Rəsulunun (səllallahu əleyhi və alih) on iki imama dair açıq şəkildə buyurduqlarından Abdullah ibn Məsudun nəql etdikləri, hədis 1*

Belə ki, Həzrəti Məhdi (əccələllahu fərəcəhuş şərif), atası İmam Həsən Əskəridən (əleyhis-səlam) sonrakı və həmçinin sonuncu İmamdır. Onun adı və künyəsi Allah Rəsulunun (səlləllahu əleyhi və alih) adı və künyəsi ilə eynidir. Atası İmam Həsən Əskəri (əleyhis-səlam) nə aşkarda, nə də gizlində ondan başqa övladını (başqa övladı da yox idi) öz yerinə canişin olduğunu bildirməmiş, onu isə məxfi və gizli şəkildə mühafizə edərək qorumuşdur. Alicənab atası vəfat etdikdə, İmam Məhdinin (əccələllahu fərəcəhuş şərif) beş yaşı var idi. Az yaşına baxmayaraq, Allahın lütfü sayəsində ona hikmət əta edilmiş və o, hər iki aləmə höccət qərar verilmişdi. Həzrəti Yəhya (əleyhis-səlam) peyğəmbərə də bu yaşda hikmət əta edilmişdi. Həmçinin, Məryəm oğlu İsaya (əleyhis-səlam) da beşikdə olduqda peyğəmbərlik nazil edilmişdi. Müsəlmanlara müqəddəs vücudun imamlıq edəcəyi Allah Rəsulunun (səlləllahu əleyhi və alih) dilindən çatmışdı. Həzrət Əli (əleyhis-səlam) və digər imamlar da bu haqda xəbər verib, onun imamətini dəlillər əsasında bəyan etmişdilər. İmam Həsən Əskəriyə (əleyhis-səlam) qədər imamların hamısı ardıcıl olaraq onun zühuru haqqında möhkəm dəlillər əsasında xəbər vermişdilər. (Şeyx Müfidin, İrşad kitabına müraciət edilə bilər).



Yaşayan və gizli İmam (Canlı Höccət)

# HƏZRƏTİ MƏHDİNİN (əccələllahu fərəcəhuş şərif) LƏQƏBLƏRİ

## Tərid, Şərid, Fərid, Vəhid, Qərib

Əsbəğ ibn Nəbatə nəql edir ki, Əmirəlmöminin (ələyhis-səlam) buyurub: Bu Əmrin Sahibi şərid (uzaqlaşdırılmış), tərid (tərk edilmiş), fərid (tək-əvəzsiz), vəhiddir (tənhadır).

*Kəmaluddin c.1, səh.303, bab 26, hədis 13, Biharul-Ənvar c.51, səh.120, Oxşar hədis;İsbatul-Huda c.5, səh.157*

İsa Xəşşab deyir: İmam Hüseynə (ələyhis-səlam) dedim: Sahibul-Əmr (Əmr Sahibi-zühurun sahibi), Sizsiniz? Buyurdu: Xeyr, lakin Sahibul Əmr tərid (tərk edilmiş) və şəriddir (uzaqlaşdırılmış). Atasının qanını tələb edəcək (məzlum olduğu halda) və onda əmisinin künyəsi vardır. (Atası dedikdə İmam Hüseyni (ələyhis-səlam), əmisi dedikdə isə İmam Həsəni (ələyhis-səlam) nəzərdə tutmuş ola bilər. İmam Həsənin künyəsi Əbu Muhəmməddir, həmçinin İmam Zamanın künyələrindən biri də Əbu Muhəmməddir).

*Kəmuluddin c.1, səh.318, bab 30, hədis 5, Biharul-Ənvar c.51, səh.133*

Davud ibn Kəsir Riqqi deyir (İmam Museyi Kazimin (ələyhis-səlam) görkəmli dostlarından idi): İmam Əbul Həsən Musa ibn Cəfərdən bu əmrin sahibi (Sahibul-Əmr) barəsində soruşdum. Buyurdu: O tərd olub (tərk edilib), tənhadır, qəribdir və yaxınlarından gizlədilib, atası öldürüldüyünə görə qanını tələb edəcək (və ya məzlumdur).

*Kəmaluddin c.2 səh.361, bab 34 hədis 4, Dəlailul-İmamə, səh.530-531, Biharul-Ənvar c.51, səh.151*

## Məhdi

İmam Sadiq (ələyhis-səlam) buyurub: Qaimə (əccələllahu fərəcəhuş şərif) ona görə Məhdi deyilir ki, O insanları itirdikləri (tapa bilmədikləri) əmrə hidayət edəcək.

*Şeyx Müfid əl-İrşad, c.2, səh.383, İsbatul-huda c.5, səh.180, Biharul-Ənvar c.51, səh.30*

Başqa bir yerdə İmam Sadiq (ələyhis-səlam) buyurub: Qaimə (əccələllahu fərəcəhuş şərif) ona görə Məhdi deyilir ki, (O) bütün gizli işlərə (əmrlər) hidayət olunur.

*Şeyx Numani Qeyb dövrü səh.237, Biharul-Ənvar c.52, səh.350*

Əbu Səid Xorasani deyib: Əbu Əbdullaha (İmam Sadiq (ələyhis-səlam)) dedim: Məhdi və Qaim eyni adamdır? Buyurdu: Bəli. Dedim bəs nə üçün Məhdi adlanıb? Buyurdu: Çünki hər bir məxfi işə yol göstərər.

*Şeyx Tusi Qeyb dövrü səh.471, İsbatul-huda c.5, səh.135, Biharul-Ənvar c.51, səh.30*

Həzrəti Peyğəmbərimiz (səlləllahu ələyhi və alihi) İmam Əliyə (ələyhis-səlam) buyurdu: ...Məhdi ləqəbi Ona verildi. Çünki o insanları Allaha tərəf hidayət edər.

*Dəlailul İmamə, səh.469*



## Qaim

Əbu Həmzə Somali nəql edir ki, İmam Baqirdən (ələyhis-səlam) soruşdum: Ey Allahın Rəsulunun oğlu! Məgər siz İmamların (ələyhis-səlam) hamısı haqq üçün (Qaim) qiyam edən deyilsiniz? İmam Baqir (ələyhis-səlam) buyurdu: Bəli. Dedim: Bəs niyə təkcə 12-ci İmama Qaim deyildi? Buyurdu: O zaman ki, cəddim Hüseyn (ələyhis-səlam) şəhadətə çatdı, mələklər Allahın dərgahında göz yaşları və nalələrlə fəryad etdilər. Ey Allah! Ey Mövlamız! Onlar Sənin seçilmiş bəndəni şəhadətə çatdırdılar. O ki, Sənin ən yaxşı xəlq etdiyin idi? Allah onlara vəhy etdi. Mələklərim aram olun! İzzət və cəlalıma and olsun ki, mütləq onlardan intiqam alacam. Baxmayaraq ki, bir az müddət keçəcəkdir. Sonra Allah İmam Hüseynin (ələyhis-səlam) övladları olan İmamları (ələyhimus-səlam) onlara göstərdi və mələklər sevindilər (xoşhal oldular). Amma gördülər ki, Onlardan bir nəfər ayaq üstə durub və namaz qılır. Allah buyurdu: O ayaq üstə duranın (Qaimin) vasitəsi ilə onlardan intiqamımı alacam.

*İləluş-şərai, c.1, səh.160, Biharul Ənvar, c.51, səh.28, c.45 səh.221*

İmam Sadiq (ələyhis-səlam) buyurub: (Həzrəti Məhdinin (əccələllahu fərəcəhuş şərif)) Qaim olmasının səbəbi xatirəsinin (adının və yadının) (camaatın nəzərində) öldükdən sonra qiyam etməsidir. Həqiqətən O, böyük bir əmri yerinə yetirəcəkdir.

*Şeyx Tusi Qeyb dövrü səh.471, Biharul Ənvar, c.51, səh.30)*



Yaşayan və gizli İmam (Canlı Höccət)

## Bəqiyətullah

İmam Baqir (ələyhis-səlam) buyurub: "(İmam Məhdi (əccələllahu fərəcəhuş şərif)) zühur edən vaxt Kəbənin divarına söykənib, dilinə gətirdiyi ilk söz bu ayədir, sonra buyurdu: "Mən yer üzərində Bəqiyətullaham (Allahın sona saxladığı) və sizin üzərinizdə Onun (Allahın) Xəlifəsi və Höccətiyəm." Belə ki, hər kəs ona salam vermək istəsə belə desin: "Salam olsun Sənə ey Allahın yer üzərindəki sona saxladığı."

*Kəmaluddin c.1, bab 32, hədis 16, səh.330-331, Biharul Ənvar c.52, səh.191*

## Məvud (Vədolunmuş)

Onlar özlərinə vəd olunmuş (əzabı) gördükləri zaman kimin köməkçisinin daha zəif və sayca daha az olduğunu biləcəklər. (Cin, 24)

İmam Kazim (ələyhis-səlam) bu ayə barəsində buyurur: "Vəd olunmuş"dan məqsəd Həzrəti Qaim (əccələllahu fərəcəhuş şərif) və Onun köməkçiləridir.

*Usuli-Kafi (Əl-İslamiyyə), c.1, səh.434, Usuli-Kafi (darul-hədis) c.2, səh.417, Burhan təfsiri, c.5, səh.508 Təvile ayati zahirə səh.706, Biharul-Ənvar c.24, səh.338*



## Mənsur (Kömək olunan)

Əbu Bəsir İmam Sadiqin (əleyhis-səlam) belə buyurduğunu nəql edir: Allah-təala İmam Hüseynin (əleyhis-səlam) qəbrinə yetmiş min mələk müvəkkil edib ki, qətlə yetirildiyi gündən Allahın dilədiyi günədək-yəni Qaimin qiyamına qədər hər gün saçları dağılmış və üstləri tozlu halda ağlayır və onun üçün dua edirlər.

*Kamiluz-Ziyarət bab 27, hədis 5, səh.84, Biharul-Ənvar c.45, səh.222)*

Aban ibn Təğlib İmam Sadiqin (əleyhis-səlam) belə dediyini nəql edir: İmam Hüseynlə (əleyhis-səlam) birlikdə savaşmaq istəyən dörd min mələk yerə endi. Lakin onlara döyüşmək izni verilmədi. İzn almaq üçün yenidən qayıtdılar. Yerə endikdə artıq İmam Hüseyn (əleyhis-səlam) şəhid edilmişdi. Bu səbəbdən də İmam (əleyhis-səlam) üçün Qiyamət gününədək qəbrinin yanında saçları dağılmış və üst-başları toz içində ağlayırlar. Onların başçısı olan mələyin adı Mənsurdur. Mələklər İmam Hüseyni (əleyhis-səlam) ziyarət edənləri qarşılayır, Onunla (əleyhis-səlam) vidalaşanları yola salır, xəstələnənlərə baş çəkir, vəfat edənlərin cənazəsini müşayiət edir, namaz qılır, ölümündən sonra onlar üçün bağışlanma diləyirlər. Onların hər biri Qaimin qiyamını gözləyirlər.

*Kamiluz-Ziyarət bab 77, hədis 9, səh.192, Biharul-Ənvar c.45, səh.226*

Yaşayan və gizli İmam (Canlı Höccət)

## Höccət-Höccətullah

Ali Yasin ziyarətində oxuyuruq;

“Və əşhədu ənnəkə Hoccətullah”; Sənin (Həzrəti Məhdinin) Allahın Höccəti olduğuna şəhadət edirəm.

Fərəc duasında;
Höccət ibnil Həsən deyə müraciət edirik.

İmam Zamanın (əccələllahu fərəcəhuş şərif) bir ziyarətində oxuyuruq;

Əssəlamu əla Höccətil-məəbud və kəlimətil-məhmud...- Salam olsun ibadət edənlərin Höccətinə və bəyənilmiş kəliməyə. (Seyyid ibn Tavusdan nəql olunmuş İmam Zamana (əccələllahu fərəcəhuş şərif) aid ziyarətdir.






## Ali Muhəmmədin Nuru

İmam Sadiq (əleyhis-səlam) buyurub: Qaimimiz qiyam edən zaman yer üzü (O Həzrətin) Rəbbinin nuru ilə işıqlanacaq, bəndələrin Günəşin işığına ehtiyacı qalmayacaq və zülmət aradan qalxacaq.

*Şeyx Müfid, Əl-İrşad, c.2, səh.381, Əlamul-Vəra, səh.464, Biharul-Ənvar c.52, səh.337*

İmam Sadiq (əleyhis-səlam) Yer öz Rəbbinin nuru ilə işıqlanacaq ayəsi haqqında buyurdu: Yer üzünün tərbiyyə edəni yer üzünün İmamıdır. İmamın (Həzrəti Məhdinin (əccələllahu fərəcəhuş şərif)) nuru ilə insanlar günəşin və ayın nurundan ehtiyacsız olacaq.

*Burhan Təfsiri, c.4, səh.733, Qummi Təfsiri, c.2, səh.253, Biharul-Ənvar c.7, səh.326*

## Muntəzər

Səfr ibn Əbu Düləf deyib: “Əbu Cəfər Məhəmməd ibn Əli Rzanın (əleyhis-səlam) belə dediyini eşitdim: “Məndən sonra imam oğlum Əlidir. Onun əmri mənim əmrim, sözü mənim sözümdür. Ona itaət mənə itaətdir. Ondan sonra imam oğlu Həsəndir. Onun əmri atasının əmri, sözü atasının sözü, ona itaət atasına itaətdir”. Sonra susdu. Dedim: “Ey Allah Rəsulunun oğlu, Həsəndən sonra imam kimdir?” O hönkürtü ilə ağladı, sonra dedi: “Həsəndən sonra oğlum – haqqı bərqərar edəcək (Qaim), intizarı çəkilən (Müntəzər) olan imamdır”. Dedim: “Ey Allah Rəsulunun oğlu, nə üçün Qaim adlanıb?” Buyurdu: “Çünki o, xatirəsi öldükdən (yəni yaddan çıxdıqdan), imamlığına inananların çoxu mürtəd olduqdan (dindən çıxdıqdan) sonra qiyam edəcəkdir”. Dedim: “Nə üçün ona Müntəzər deyilir? Buyurdu: “Çünki qeyb günləri çox olacaq, müddəti uzun çəkəcəkdir. Müxlislər (xalis möminlər) onun xürucunun (zühur etməsinin) intizarını çəkəcək, şübhə içində olanlar onu inkar edəcək, inkarçılar onun xatirəsini ələ salacaq, (zühur üçün) vaxt təyin edənlər həmin vaxt (qeyb barəsində) yalan danışacaq, tələskənlər qeyb dövründə həlak olacaq, təslim olanlar isə nicat tapacaqlar”.

*Kifayətul-Əsər səh.283, Biharul-Ənvar c.51, səh.157, Kəmaluddin c.2, səh.378, bab 36, hədis 3*

## Sahibəz-Zaman

Hüseyn ibn Həsən Ələvi deyir: Samirrada Əbi Muhəmmədin (əleyhis-səlam) (İmam Həsən Əskərinin) evinə daxil oldum və ağamız Sahibəz Zamanın (əccələllahu fərəcəhuş şərif) mövludu münasibəti ilə, təbrik etdim. (Qeyd; ravi İmam Həsən Əskərinin (əleyhis-səlam) yanında Həzrəti Məhdiyə Sahibəz-Zəman demişdir. Bu da onu göstərir ki, hələ İmamın yeni dünyaya gəldiyi zamanda belə Sahibəz-Zəman ləqəbi ilə məşhur idi)

*Biharul Ənvar c.51, səh.17*

## Muntəqim

İmam Sadiq (əleyhis-səlam) Qaimin (əccələllahu fərəcəhuş şərif) səhabələri (dostları və köməkçiləri) haqqında dedi: Onlar Allahın qorxusundan-ürəyi yumuşaq (şəfqətli), şəhadətə dəvət edənlər və Allah yolunda ölmək istəyənlərdir. Onlar **"Ya li-saratəl Hüseyn"**- "Ey Hüseynin qanını alan" şüarı ilə hərəkət edərlər...

*Müstədrək əl-Vəsail, c.11, səh.114, Biharul-Ənvar c.52, səh.307*

Rəyyan ibn Şəbib deyir: Muhərrəm ayının ilk günü İmam Rzanın (əleyhis-səlam) hüzuruna getdim... . Dedi: Ey ibn Şəbib! Əgər ağlamaq istəyirsənsə Hüseyn ibn Əli ibn Əbu Talib (əleyhis-səlam) üçün ağla. Çünki Onu bir qurban kimi kəsdilər. Ailəsindən on səkkiz adamı Onunla birlikdə şəhid etdilər. Onların yer üzündə bir bənzəri yoxdur. Yeddi qat göy və yer onların şəhadətinə ağladı. Dörd min mələk onlara kömək üçün yer üzünə endi. Amma onlara (müdaxilə üçün) icazə verilməmişdi. Bu mələklər Qaim (əccələllahu fərəcəhuş şərif) qiyam edənə qədər Hüseynin (əleyhis-səlam) qəbri başında pərişan və toz torpaq içində matəmli bir halda eləcə dayanacaqlar. Onlar Onun (Qaimin) köməkçiləridir və şüarları Ya ləsaratil Hüseyndir.

*Biharul-ənvar c.98, səh.102-103, Uyunu Əxbarur Rza (əleyhis-səlam) c.1, səh.299, bab 28, hədis 58*

Nüdbə duasında oxuyuruq; **"Hardadır, Kərbəlada qətl edilənlərin qanını tələb edən".**







Həzrəti Peyğəmbərimiz (səlləllahu əleyhi və alihi) Qədir-Xum xütbəsində buyurub: Bilin və agah olun ki, həqiqətən imamların sonuncusu Qaimul Məhdi bizdəndir. Bilin və agah olun ki, dinlərə qalib gələn Odur. Bilin və agah olun ki, zalımlardan intiqam alan Odur. Bilin və agah olun ki, qalaların fatehi və onları dağıdan odur. Bilin və agah olun ki, şirk əhlindən hər bir qəbiləni məhv edən Odur. Bilin və agah olun ki, Allah övliyalarının hər birinin qanının intiqamını alan Odur."

*Əl-Ehticac c.1, səh.55-67, Rovzatul-Vaizin (əl-Qədimə) c.1, səh.89, Biharul-Ənvar c.37, səh.213 (201-217)*

Əhməd ibn İshaq deyir: Bir gün Həzrəti İmam Həsən Əskərinin (əleyhis-səlam) hüzurunda idim. ...Dedim: Ey Allah Rəsulunun oğlu, səndən sonra imam və canişin kimdir?"...(sonra) Dedim: Ey Mövlam, bir nişanə vardırmı ki, qəlbim onunla xatircəm olsun?" O uşaq (Həzrəti Məhdi (əccələllahu fərəcəhuş şərif) ) fəsahətli ərəb dilində danışaraq dedi: **Mən yer üzündə Bəqiyyətullaham və düşmənlərdən intiqam alacam."**

*Kəmaluddin c.2, səh.384, bab 38, hədis 1, Biharul-Ənvar c.52, səh.23*

İmam Baqir (əleyhis-səlam) buyurub: ...Mələklər, Aşura günü baş verən hadisələrdən çox narahat oldular. Bu barədə Allahın dərgahında şikayət etdilər. Allah-Təala onlara cavab verərkən; Həzrəti Qaimi Ali Muhəmmədin Nuru olan bir yeri göstərdi və buyurdu: **"Bu Qaimin vasitəsi ilə onlardan intiqamımı alacam."**

*Biharul-ənvar, c.37, səh.294, İləluş-Şərai c.1, səh.160, bab 129, hədis 1*

Yaşayan və gizli İmam (Canlı Höccət)

# Həzrəti Peyğəmbərin (səlləllahu ələyhi və alih) 12 İmam və 12-ci İmam barəsində buyurduğu hədislər

Əmirəl-mömininin (əleyhis-səlam) buyurub: "Ey Allahın Rəsulu! Mənim şəriklərim kimlərdir?" Buyurdu: "Onlar Allahın Özünə və mənə yaxınlaşdırdığı, barələrində belə buyurduğu şəxslərdir: "Allaha, Rəsuluna və sizdən olan əmr sahiblərinə itaət edin". ("Nisa" surəsi, ayə 59).Əgər bir şey barəsində aranızda münaqişə yaransa onu Allaha, Rəsuluna və özünüzdən olan əmr sahiblərinə təqdim edin. Dedim: "Ey Allahın Rəsulu! Onlar kimlərdir?" Buyurdu: "Mənimlə hovuzun başında görüşənə qədər gələcək vəsilərdirlər. Onların hamısı hidayət edən və hidayət olunmuşlardır. Onlara hiyləgərin hiyləsi və alçaltmaq istəyənin alçaltması zərər yetirməz. Onlar Quranla, Quran da onlarladır. Onlar Qurandan, Quran da onlardan ayrılmaz. Allah onların vasitəsilə ümmətimə yardım edər, onların varlığı səbəbilə yağış yağdırar və dualarıyla bəlaları uzaqlaşdırar". Dedim: "Ey Allahın Rəsulu! Onların adlarını söylə". Buyurdu: "Bu oğlum (əlini Həsənin (əleyhis-səlam) başına qoydu), sonra bu oğlum (əlini Hüseynin (əleyhis-səlam) başına qoydu), sonra bu oğlumun oğlu (yenidən əlini Hüseynin (əleyhis-səlam) başına qoydu), sonra onun oğlu. Onun adı mənim adımdan – Muhəmməd (əleyhis-səlam) olacaq. O, mənim elmimi yarandır (Baqirdir) və Allahın vəhyinin xəzinədarıdır. Ey qardaşım, Əli (İmam Səccad (əleyhis-səlam)) sən həyatda ikən doğulacaq. Məndən ona salam söyləyərsən! Sonra. Hüseynə (əleyhis-səlam) tərəf üzünü tutub dedi: Əlinin oğlu Muhəmməd (İmam Baqir (əleyhis-səlam)) sən həyatda ikən doğulacaq, sən də məndən ona salam söyləyərsən! On iki imamların qalanları sənin oğlundan gələcək, qardaşım". Dedim: "Ey Allahın Rəsulu! Onların adlarını mənə söylə!" Onların adlarını bir-bir mənə dedi. Ey Bəni-Hilalın qardaşı! **Allaha and olsun, bu ümmətin Məhdisi onlardandır. O, yer üzünü günah və zülmlə dolduğu kimi haqq və ədalətlə dolduracaq.** Allaha and olsun, rükn ilə məqam arasında ona beyət edənlərin hamısını tanıyıram, adlarını və hansı qəbilədən olduqlarını da bilirəm".

*Süleym ibn Qeys Hilalinin ktabı, Ali Muhəmmədin sirləri, hədis 10*



Qasim ibn Əbdürrəhman Salmandan belə rəvayət edib: "Allah Rəsulu (səlləllahu ələyhi və alih) bizim üçün xütbə oxuyub dedi: "Ay camaat, mən tezliklə sizin aranızdan köçüb axirət diyarına yollanacağam. Sizə itrətim barədə yaxşılığı tapşırıram. Bidətlərdən qorxun. Çünki hər bir bidət azğınlıqdır. Azğınlıq və onun əhli isə atəşdədir. Ay camaat, kim günəşi əldən versə, aydan yapışsın. Kim ayı itirsə, fərqədandan yapışsın. (Fərqədan – kiçik ayın iki parlaq ulduzu; yaxud qütb ulduzu və yaxınlığındakı parlaq ulduzdur). Kim fərqədanı tapa bilməsə, məndən sonrakı parlaq ulduzlardan yapışsın. Mən bu sözümü deyib Allahdan özüm və sizin üçün bağışlanma diləyirəm". Salman deyir: "Peyğəmbər minbərdən aşağı endikdə onun arxasınca yollandım. O, Aişənin evinə daxil oldu. Mən də daxil olub dedim: "Ey Allah Rəsulu, atam-anam sənə qurban, eşitdim ki, belə buyurdun: "Günəşi itirsəniz, aydan yapışın. Ayı əldən versəniz, fərqədandan yapışın. Fərqədanı tapmasanız, parlaq ulduzlardan yapışın. (Bu nə deməkdir?)" Peyğəmbər (səllallahu ələyhi və alih) buyurdu: "Mən günəşəm, Əli aydır. Həsən və Hüseyn fərqədandır. Məni əldən verdikdə Əlidən yapışın. Onu itirdikdə Həsən və Hüseyndən tutun. Parlaq ulduzlara gəlincə isə onlar Hüseynin sülbündən olan doqquz imamdır. Doqquzuncusu onların Məhdisidir". Sonra buyurdu: "Onlar məndən sonrakı vəsilər və canişinlər, yaxşı əməl sahibi imamlardır. Onların sayı Yəqubun əsbatı və İsanın həvarilərinin sayı qədərdir". Dedim: "Ey Allah Rəsulu, onların adlarını mənim üçün sadala". Buyurdu: "Onların birincisi Əli ibn Əbu Talibdir (əleyhis-səlam). Ondan sonra iki nəvəm (Həsən (əleyhis-səlam) və Hüseyn (əleyhis-səlam)), onlardan sonra Əli ibn Hüseyn Zəynulabidin (əleyhis-səlam), ondan sonra peyğəmbərlərin elmini yaran (Baqir) Muhəmməd ibn Əli (əleyhis-səlam) və Sadiq Cəfər ibn Muhəmməd (əleyhis-səlam), oğlu Musa ibn İmranın adaşı Kazım (qəzəbini udan) (əleyhis-səlam), oğlu qürbət yerdə öldürülən Əli (Rza) (əleyhis-səlam), sonra oğlu Muhəmməd (Cavad) (əleyhis-səlam) və iki sadiq Əli (Hadi) (əleyhis-səlam) və Həsən (Əskəri) (əleyhis-səlam), həmçinin Höccət Qaim (əccələllahu fərəcəhuş şərif), qeybə çəkildikdə intizarı çəkiləndir (Müntəzər). Onlar qanımdan və canımdan olan itrətimdir. Onların elmi mənim elmim, hökmləri isə mənim hökmümdür. Kim onlar barədə mənə əziyyət etsə, Allah həmin kəsi mənim şəfaətimə nail etməsin".

*Kifayətul Əsər, Bab: Allah Rəsulunun (səllallahu ələyhi və alih) on iki imama dair açıq şəkildə buyurduqlarından Salmana nəql etdikləri, hədis 1*




# Qeybin doğru izahı

Qeyb nədir?

Əvvəlcə onu qeyd edək ki, bəzi mənbələr tərəfindən qeyb haqqında əzbərlənmiş bir sıra düzgün olmayan təriflər və mənalar yüklənmişdir. Xüsusi ilə bu Həzrəti Məhdinin (əccələllahu fərəcəhuş şərif-şərafətli zühuru tez olsun, inşəallah) qeybi məsələsi ortaya gəldikdə nədənsə fərqli mənalar üzə çıxır. Məsələn: səmaya çəkilib orada gözləmək, quyuya enib gizlənmək, cismani vücuddan çıxıb yox olmaq, torpaqda itməklə ölmək və bunun kimi heç bir halda rabitənin olmamasına istiqamətlənmiş mənalar yüklənir. Çox zaman bunu insanları Həzrəti Məhdidən (əccələllahu fərəcəhuş şərif) uzaqlaşdırmaq üçün qəsdən edirlər. Halbuki, bu mənaların heç birinin Həzrəti Məhdinin (əccələllahu fərəcəhuş şərif) qeybi ilə qəti olaraq əlaqəsi yoxdur.

### *Həzrəti Məhdinin (əccələllahu fərəcəhuş şərif) qeybdə olmasının düzgün mənası*

Həzrəti Məhdinin (əccələllahu fərəcəhuş şərif) qeybdə olmasının mənasına qısa, dəqiq və qəti olaraq qeyd etməli olsaq-Həzərti Yusif peyğəmbərin məsəli ən gözəl nümunədir. Beləki, bu məsəl həm Quranda var həm də hədislərlə Həzrəti Məhdinin (əccələllahu fərəcəhuş şərif) qeybinin necə olmasına nümunə gətirilmişdir.





Həzrət Yusifin əhvəlatı belə idi; Həzrəti Yusif qardaşları tərəfindən tərk edilərək quyuya atıldı. Sonra söz çıxartdılar ki, o ölüb. Ancaq ölümünə dair heç bir sübut olmadığı üçün atası Yəqub peyğəmbər onun ölümünə inanmadı. Beləliklə Yusif peyğəmbəri görənə qədər illərlə ağlayaraq gözlədi. Yusif peyğəmbər isə bu müddət ərzində bir karvan tərəfindən quyudan çıxardıldı, daha sonra isə bir qul kimi Misirin əzizinə satıldı. Bir müddət Misirin əzizinin xidmətçilərindən olduqdan sonra bir müddət də zindan da oldu. Zindandan çıxandan sonra isə elə özü Misirin əzizi oldu və məmləkətin işlərini öhdəsinə götürdü.




Bütün bu müddət ərzində Yusifin qardaşları və atası onun məkanı və başına gələnlərdən məlumatsız idilər. Hətta qardaşları onu Misirin əzizi geyimində müşahidə etmələrinə rəğmən tanımadı, çöhrə və qiyafəsindən onu ayırd edə bilmədilər. Bununla belə atası Yəqub peyğəmbər, onun sağ olduğundan agah idi və övladlarına belə buyururdu:

*“Həqiqətən mən Allah tərəfindən sizin bilmədiklərinizi bilirəm”* (Yusuf surəsi, ayə 86)

...Amma onun harada olması və hansı halda həyat sürməsi hamıdan gizlin idi, hətta Həzrəti Yəqubdan belə. Yusif bu zamanda nə asimana getmiş və nə də bir quyu və mağarada gizlənməmişdi. Nə ruh aləminə qalxmış və nə də bir nura çevrilib gözlərdən itməmişdi.
O öz cismani və adi həyatını yaşayırdı və hətta öz zamanının camaatının dünya və axirət işlərinə kömək edirdi (onları idarə edirdi). Camaatı yeganə Allaha dəvət edir və eyni zamanda onların maddi və dünyəvi yaşamları barədə tədbir tökürdü. O qohumlarının məskunlaşdığı həmin torpağda və həmin məmləkətin yaxınlığında hökmdarlıq edirdi.

Yəqubun ailəsi qıtlıq günlərində hətta Misirin əzizindən (ki, O elə onların itirdikləri həmin Yusif idi) onu tanımadan kömək istədilər və yardım aldılar. Yusif isə onların əksinə olaraq onları yaxşı tanıyırdı, Allah izn verməyənə qədər və özünü onlara tanıtmayana qədər, onlar onu tanımadılar.

*“Yusifin qardaşları gəldi...Yusif onları tanıdı, onlar isə onu tanımadılar”* (Yusuf surəsi, ayə 58)

Hədislərdə, Yusifin öz qardaşları yanında tanınmaması "Yusifin qeybə çəkilməsi" adlanmışdır və Həzrət Məhdinin (əccələllahu fərəcəhuş şərif) qeybə çəkilməsi də həmin mənaya təfsir olunmuşdur. Yusif ilə qardaşları arasında olan hicab (pərdə) Yusifin illərlə özünü tanıtmasından uzaq düşüb sükut etməsinə təsir qoydu. Yusifin qeybində görmək imkanı var idi, amma mərifət yox idi və Yusif bu mənada öz qardaşlarından qaib və gizlin idi. Beləliklə sizin diqqətinizi bu rəvayətlərdən bəzilərinə cəlb edirik:

"

1. Əbu Bəsir İmam Sadiqin (ələyhis-səlam) belə buyurduğunu nəql edir:
Bu işin (yəni ilahi qiyam) sahibində peyğəmbərlərlə bənzərliklər (ortaq cəhətlər, onlardan nümunələr) vardır... Yusiflə oxşar cəhətinə gəlincə (onda Yusifdən olan bir sünnəyə (adətə) gəlincə isə o) gizlilikdir (onun məxfi qalmasıdır). Allah həmin gizliliyi onunla camaat arasında elə bir pərdə qərar verər ki, onu görərlər amma tanımazlar....

*Kəmalud-din, bab 33, hədis 46*

2. Böyük fəqihlərindən və İmam Baqirin (ələyhis-səlam) dəyərli səhabələrindən olan Muhəmməd ibn Müslim nəql edir ki, bir gün O Həzrətin (ələyhis-səlam) xidmətində idim və istəyirdim ki, ondan Ali-Muhəmmədin Qaimi (əccələllahu fərəcəhuş şərif) haqqında sual soruşum, beşinci imam (ələyhis-səlam) sualımı bəyan etməmişdən öncə mənə buyurdu:

Ey Muhəmməd ibn Müslim, həqiqətən Ali-Muhəmməddən olan Qaimdə (əccələllahu fərəcəhuş şərif) beş peyğəmbərlə oxşarlıq vardır...Yusif ibn Yəqubla olan oxşarlığına gəlincə, həmin oxşarlıq onun xüsusi və ümumi şəxslərdən qeybə çəkilməsi, həmçinin qardaşlarına gizlin qalmasıdır. Hətta halı atası Yəquba da naməlum qaldı, bir halda ki, onunla atası, ailəsi və şiələri (tərəfdarları) arasındakı məsafə yaxın idi (uzaq deyildi).

*Kəmalud-din, bab: 32, hədis: 7*

"







**Nəticə olaraq Həzrəti Məhdinin (əccələllahu fərəcəhuş şərif) qeybindən məna göyə çəkilmək və ya quyuda gözləmək yox-əksinə əvvəlki peyğəmbərlər və imamlar kimi xalqın arasında olmaq, onları himayə etməkdir. Sadəcə bir fərqlə ki, biz onu görürük ancaq tanımırıq. Necə ki, qeyd etdiyimiz Yusif peyğəmbərin əhvəlatı kimi. Belə ki, yer üzünün bir an olsun belə höccətsiz, imamsız qalmamasını da nəzərə alaraq deyə bilərik ki, Həzrəti Məhdinin (əccələllahu fərəcəhuş şərif) nəfəsi daima üzərimizdədir və heç bir şey Onun nəzərindən kənarda deyildir. Eyni zamanda onu da xüsusi vurğalayaq ki, O Həzrətin (əccələllahu fərəcəhuş şərif) mübarək vücudu da aramızdadır.**

# Həzrəti Məhdinin (əccələllahu fərəcəhuş şərif) qeybinin mənası (hədislərdə)

Müfəzzəl ibn Ömər Əbu Abdullahdan (ələyhis-səlam) belə nəql edir: “Başa düşdüyün bir hədis rəvayət etdiyin (lakin başa düşmədiyin) on hədisdən yaxşıdır. Hər bir haqqın bir həqiqəti, hər bir doğrunun bir nuru vardır. Allaha and olsun ki, biz öz şiələrimizdən olan bir kəsi o zaman fəqih hesab edərik ki, ona işarə edildiyi zaman işarəni başa düşsün. Həqiqətən də, Əmirəlmöminin Əli (ələyhis-səlam) Kufə minbərində belə buyurmuşdur: “Qarşıda sizin üçün elə zülmət, tutqun və qaranlıq fitnələr var ki, ondan yalnız “novmə”lər xilas olacaqlar”. Soruşdular: “Ey Əmirəlmöminin (ələyhis-səlam) , “novmə” nədir?” İmam Əli (ələyhis-səlam) buyurdu: “O şəxs ki, insanları tanıyır, lakin insanlar onu tanımırlar. Bilin ki, yer üzü Allah-taalanın höccətindən xali olmaz, lakin zülmləri, haqsızlıqları və özlərinə qarşı həddi aşmaları səbəbindən Allah onu Öz bəndələrindən gizlədəcəkdir. Əgər yer üzü ilahi höccətsiz bircə an qalsa, heç şübhəsiz, öz əhlini udar. Lakin höccət insanları tanıyar, onlar isə onu tanımazlar. Necə ki, Yusif (ələyhis-səlam) də camaatı tanıyır, onlar isə onu inkar edirdilər (onun sağ olmadığını deyirdilər)”. Sonra İmam (ələyhis-səlam) bu ayəni tilavət etdi: **“Vay bu bəndələrin halına! Onlara elə bir elçi gəlmədi ki, ona daim istehza etməsinlər”.** (Yasin 30)

*Qeybəti Numani bab 10, hədis 2, səh.141, Biharul-Ənvar, c. 51, s. 112*

İshaq ibn Əmmar Seyrəfi Əbu Əbdullah Cəfər ibn Muhəmməddən (ələyhis-səlam) belə nəql edir: “Qaimin (ələyhis-səlam) iki qeybə çəkilməsi olacaq. Onlardan biri uzun, digəri isə qısadır. Birincidə onun yerini xüsusi şiələri, digərində isə yalnız xas din dostları biləcəklər”.

*Qeybəti Numani bab 10, fəsil 4, hədis 1, səh.170, Biharul-Ənvar c.52, səh.155, İsbatul-Huda c.5, səh.156*



Müfəzzəl ibn Ömər Əbu Əbdullahdan (ələyhis-səlam) belə nəql edir: “Bu dəstənin (şiələrin) Allaha ən yaxın olduqları, Onun da onlardan ən çox razı olduğu vaxt onların Allahın höccətini itirəcəkləri vaxtdır. O, onlardan gizli qalacaq, onlara görünməyəcək və onlar onun yerini bilməyəcəklər. Lakin (buna baxmayaraq) onlar bu dövr ərzində yəqin şəkildə biləcəklər ki, Allahın höccəti və vədi batil olmayıbdır. Həmin vaxt səhər-axşam fərəci gözləyin. (Həmçinin) Allahın düşmənlərinə ən çox qəzəb etdiyi vaxt da o vaxtdır ki, onlar Allahın höccətini itirəcəklər, o da onlar üçün aşkar olmaycaqdır. Allah-taala (əzəli elmi ilə) bilmişdir ki, onun dostları şübhəyə düşməyəcəklər. Əgər bilsəydi ki, şübhəyə düşəcəklər, bir göz qırpımı belə, Öz höccətini onlardan gizlətməzdi. Bu (Allahın qəzəbi), yalnız ən şər insanlar üçün olacaq”.

*Qeybəti Numani bab 10, fəsil 3, hədis 1, səh.161-162, Kəmaluddin c.2, səh. 339, İsbatul-Huda c.5, səh.85, Biharul-Ənvar c.52, səh.145*

Übeyd ibn Zürarə Əbu Əbdullahdan (ələyhis-səlam) belə nəql edir: “Camaat bir imam itirəcək. (Həmin imam) həcc mövsümlərində iştirak edəcək, insanları görəcək, lakin insanlar onu görməyəcəklər”.

*Qeybəti Numani bab 10, fəsil 4, hədis 13, səh.175, Müstədrəkül vəsail c.8, səh.50, İsbatul-Huda c.5, səh.55, Kəmaluddin c.2, səh. 351*



Yaşayan və gizli İmam (Canlı Höccət)

Südeyr Seyrəfi belə rəvayət edir: "Əbu Əbdullah Sadiq (əleyhis-səlam) buyurdu: "Həqiqətən də, bu işin sahibinin Yusiflə (əleyhis-səlam) bir bənzərliyi vardır". Mən dedim: "Sanki bizə hansısa bir qeyb və çaşqınlıqdan xəbər verirsiniz". İmam (əleyhis-səlam) buyurdu: "Donuza bənzər bu məlun camaat bunun nəyini inkar edir? Yusifin (əleyhis-səlam) qardaşları ağıllı, dərrakəli, peyğəmbər nəvəsi və peyğəmbər övladları idi. Onlar Yusifin (əleyhis-səlam) yanına gedib, onunla danışmış, söhbət etmiş, ticarət etmiş və onu razı salmağa çalışmışdılar. Yusif (əleyhis-səlam) onların qardaşı, onlar da Yusifin (əleyhis-səlam) qardaşları idilər, lakin özünü onlara tanıtdırmayana qədər onu tanımamışdılar. O vaxt Yusif(əleyhis-səlam) onlara buyurmuşdu: "Mən Yusifəm". Bu zaman onu tanımışdılar. Bu çaşqın camaat niyə inkar edir ki, nə vaxtsa Allah-taala (Yusif kimi) Öz höccətini də onlardan gizlədə bilər? Yusuf peyğəmbər (əleyhis-səlam) Misirin hökümdarı idi. Onunla atasının arasında on səkkiz günlük məsafə var idi. Əgər öz yerini atasına bildirmək istəsəydi, şübhəsiz ki, bunu edə bilərdi. Allaha and olsun ki, (Yusifin) müjdəsi gəlib çatan zaman Yaqub (əleyhis-səlam) və övladları öz çöllərindən Misirə doqquz günə çatdılar. Bu camaat Allahın Yusifə (əleyhis-səlam) etdiyini Öz höccətinə də edə biləcəyini necə inkar edir? Onlar sizin məzlum və haqqı tapdanan ağanız olan bu işin sahibini onların arasında dolaşmasını, küçə-bazarlarında gəzməsini, evlərinə ayaq basmasını, lakin bu zaman onların onu tanımamasını necə inkar edə bilərlər? Ta o zamana qədər ki, Allah-taala ona özünü tanıtdırmaq izni verər. Necə ki, Yusifə (əleyhis-səlam) izn vermişdi: "(Qardaşları soruşdular:) Həqiqətən də, sən Yusifsən? Dedi: "(Bəli) mən Yusifəm!" (Yusuf 90)

*Qeybəti Numani bab 10, fəsil 3, hədis 4, səh.163-164, Kəmaluddin c.1, səh. 144, Biharul-Ənvar c.52, səh.154*

Übeyd ibn Zürarə Əbu Əbdullahdan (əleyhis-səlam) belə rəvayət edir: "Qaimin iki qeybə çəkilməsi olacaqdır. Onların birində həcc mövsümlərində iştirak edəcək, camaatı görəcək, camaat isə onu orada görməyəcəklər"

*Qeybəti Numani bab 10, fəsil 4, hədis 16, səh.175-176, Biharul-Ənvar c.52, səh.154*



Muhəmməd ibn Müslim Səqəfi Təhhan demişdir: "Əbu Cəfər Muhəmməd ibn Əli Baqirin (əleyhis-səlam) yanına daxil oldum. Mən ondan Ali Muhəmməddən olan Qaim (əleyhis-səlam) haqqında soruşmaq istəyirdim. (Söhbətə özü) başlayaraq mənə dedi: "Ey Muhəmməd ibn Müslim, Ali Muhəmməddən olan Qaimin (əleyhis-səlam) beş peyğəmbərə oxşarlığı vardır: Yunis ibn Mətta, Yusif ibn Yəqub, Musa, İsa və Muhəmməd (səlləlahu ələyi və alihi). Yunis ibn Məttaya olan bənzərliyi qeybə çəkilməsindən sonra yaşlı olmasına baxmayaraq cavan halda geri qayıtmasıdır. Yusif ibn Yəquba olan bənzərliyinə gəldikdə, onun xüsusi və ümumi kəslərdən qeybə çəkilməsi, qardaşlarından özünü gizlətməsi, onunla atası, ailəsi və tərəfdarları arasında məsafənin yaxın olmasına baxmayaraq, işinin atası Yəquba (əleyhis-səlam) (qarışıq gəlməsi və) örtülü olmasıdır. Musaya olan bənzərliyi qorxusunun davamlı olması, qeybinin uzun çəkməsi, doğulmasının gizli olması, ondan (qeybə çəkilməsindən) sonra şiələrinin üzləşdikləri əziyyət və xarlıqdan məşəqqət çəkmələridir; o vaxta qədər ki, Allah-taala onun aşkara çıxması və yardımına icazə verər, düşmənlərinə qarşı onu qüvvətləndirər (və öz dəstəyini ondan əskik etməz). İsaya olan bənzərliyi – onun barədə təzada düşənin ayrı fikirdə olmasıdır; (iş o yerə çatmışdı ki) hətta onlardan (təzadlı fikirlər danışan şəxslərdən) bir dəstəsi (onun barədə) "doğulmayıbdır", bir dəstəsi "ölübdür", başqa bir dəstəsi isə "öldürülüb və edam edilibdir (çarmıxa çəkilibdir)" demişdir. Babası Mustafaya (səlləllahu ələyhi və alihi) olan oxşarlığına gəldikdə isə qılıncla ortaya çıxması, Allahın və Onun Rəsulunun (səlləllahu ələyhi və alihi) düşmənlərini, zülmkarları və tağutları qətlə yetirməsidir. Ona qılınc və (düşmənlərini) qorxuya salma vasitəsilə kömək edilər, bayrağı (heç vaxt) özünə geri qaytarılmaz (yəni məğlub edilməz, istədiyi yerə qələbə bayrağını sancar). Süfyaninin Şamdan, Yəmaninin Yəməndən çıxması, Ramazan ayında səmadan gələn fəryad, göydən bir kəsin onu öz adı və atasının adı ilə çağırması onun zühur əlamətlərindəndir".

*Kəmaluddin bab 32, hədis 7, səh.327, Biharul-Ənvar c.52, səh.217*



Müfəzzəl ibn Ömər Cufi Əbu Əbdullah Sadiqdən (ələyhis-səlam) belə nəql edir: “Bu işin sahibinin iki qeybə çəkilməsi olacaqdır. Onlardan biri o qədər uzanacaq ki, hətta bəziləri “ölüb”, bəziləri “öldürülüb”, bəziləri də “həlak olub” deyəcəklər. Bu zaman əshabının arasından ona  etiqadda yalnız azsaylı insan sabit qalacaqdır. Nə dostlarından, nə də qeyrilərindən heç kəs onun yerini bilməyəcək – yalnız işlərindən məsul olan xidmətçidən başqa”.

*Qeybəti Numani bab 10, fəsil 4, hədis 5, səh.171-172, Biharul-Ənvar c.52, səh.152 , İsbatul-Huda c.5, səh.118*

Muhəmməd ibn Əbu Yaqub Bəlxi Əbülhəsən Rzadan (ələyhis-səlam) belə nəql edir: “Siz daha çətin və daha böyük bir şeylə imtahan olunacaqsınız. Siz anasının bətnində olan cənin və südəmər körpə ilə imtahan olunacaqsınız. Onun barəsində belə deyəcəklər: “Qeybə çəkil-mişdir, ölmüşdür”. Həmçinin, belə deyəcəklər: “Heç bir imam yoxdur”. Halbuki, Allah Rəsulu (s) da qeybə çəkilmiş, qeybə çəkilmiş və qeybə çəkilmişdi və budur, mən də öz yatağımda ölürəm”. *(Şeyx Əli Əkbər Ğəffari deyir: “Bu sözlə Allah Rəsulunun (səlləllahu ələyhi və alihi) bir neçə dəfə qeybə çəkilməsi nəzərdə tutula bilər. Belə ki, bir dəfə Həra mağarasında, bir dəfə Əbu Talib dərəsində, bir dəfə də (Mədinəyə hicrət edərkən) mağarada və s. Eyni zamanda ola bilər ki, İmam (ələyhis-səlam) digər peyğəmbərlərin də adlarını çəkib, onların da qeybə çəkildiklərini bildirib, lakin ravi ixtisar edərək ibarəni “qeybə çəkilib, qeybə çəkilib...” şəklində nəql edib” – tərc)*

*Qeybəti Numani bab 10, fəsil 4, hədis 27, səh.180, Biharul-Ənvar c.52, səh.155*







Zürarə Əbu Əbdullahdan (ələyhis-səlam) belə nəql edir: “Qaimin iki qeybə çəkilməsi olacaqdır. Bunların birində (xəbəri) çatacaq, digərində isə harada olduğu bilinməyəcək. O, həcc mövsümlərində iştirak edəcək, camaatı görəcək, lakin camaat onu görməyəcək”.

*Qeybəti Numani bab 10, fəsil 4, hədis 15, səh.175, Biharul-Ənvar c.52, səh.154*

Əbu Bəsir İmam Sadiqin (ələyhis-səlam) belə buyurduğunu rəvayət edir: “Ümmətimdə, yəni Qaimdə (ələyhis-səlam) dörd peyğəmbərin sünnəsindən var: qorxu və vəhşət içində olan Musanın (ələyhis-səlam) sünnəsindən, onları tanıyan, onların isə onu tanımadıqları Yusufun (ələyhis-səlam) sünnəsindən, öldürmədikləri və çarmıxa çəkmədikləri İsanın (ələyhis-səlam) sünnəsindən və qılıncla qiyam edən Muhəmmədin (səlləllahu ələyhi və alihi) sünnəsindən”.

*Dəlailul İmamə səh.470, hədis 460*



Əbu Bəsir İmam Sadiqin (əleyhis-səlam) belə dediyini nəql etmişdir: “Həqiqətən də, bu işin sahibində peyğəmbərlərdən (əleyhimus-səlam) bənzərliklər vardır: Musa ibn İmrandan bir bənzərlik, İsadan bir bənzərlik, Yusifdən bir bənzərlik və Muhəmməddən (səlləllahu əleyhi və alihi) bir bənzərlik. Musa ibn İmrandan olan bənzərliyə gəlincə, qorxaraq gözdə-qulaqda olmasıdır. İsadan olan bənzərliyə gəlincə, onun haqqında İsa barədə deyilənlərin deyilməsidir. Yusifdən olan bənzərliyə gəlincə, gizlilikdir ki, Allah onunla məxluqat arasında hicab (və maneə) qərar verər; o, onları görsə də onlar onu görə bilməz. Muhəmməddən (səlləllahu əleyhi və alihi) olan bənzərliyə gəlincə, yol göstərməsi ilə doğru yolu tutar və davrandığı kimi davranar”.

*Kəmaluddin bab 33, hədis 46, səh.350-351, Biharul-Ənvar c.51, səh.223, İsbatul-Huda c.5, səh.90*

*İmam Əli (əleyhis-səlam) buyurub: Elə ki, mənim nəslimdən olan “mütəğəyyib” (gözdən itən) şəxs insanların gözlərindən qeybə çəkildi, camaat arasında onun itdiyi və ya öldürüldüyü, yaxud da öldüyü xəbəri ilə çaxnaşma düşdü, fitnələr baş qaldıracaq, bəlalar nazil olacaq, (tayfa və ya din) təəssübkeşliyi baş qaldıracaq, insanlar dinlərində ifrata varacaqlar. Hamılıqla deyəcəklər ki, “höccət aradan gedib”, “imamət batil olub”. Həmin il Əli şiələri xəbər almaq, Əli düşmənləri isə cəsusluq etmək üçün Həccə gedib onu axtaracaqlar, lakin onun heç bir izinə rast gəlməyəcəklər, ondan heç bir xəbər, əsər tapmayacaqlar. Bu zaman Əli şiələri söyüləcəklər. Onları düşmənləri söyəcək. Fasiqlər və şər insanlar öz dəlilləri ilə (zahirdə) onlara qalib gələcəklər. Beləcə, ümmət sərgərdan qalıb azacaq və elə hey “höccət həlak oldu”, “imamət batil oldu” deyəcəklər. Halbuki, Əlinin Rəbbinə and olsun ki, Höccət mövcud olub yer üzünün yollarında gəzəcək, evlərə və qəsrlərə daxil olacaq, bu yer üzünün şərqi və qərbində dolaşacaq, sözləri eşidəcək, camaata salam verəcək və vəd verilən vaxta kimi – bir carçı səmadan nida edib “bilin, bu gün Əli övladları və şiələrinin sevinc günüdür” deyən zamana kimi – camaatı görəcək, lakin özü görülməyəcək”.*

*Qeybəti Numani bab 10, hədis 3, səh.142-144, Biharul-Ənvar, c. 28, səh. 70*

# Qeyb ənənəsi

Həzrəti Yusif peyğəmbərin (ələyhis-səlam) misalından da göründüyü kimi qeyb məsələsi təkcə Həzrəti Məhdiyə (əccələllahu fərəcəhuş şərif) məxsus olmayıb və bir çox peyğəmbərlərin də qeybi olmuşdur. Həzrəti Yusifin qeybindən başqa, həmçinin Həzrəti İdris peyğəmbərin (ələyhis-səlam) qeybi, Həzəti Hud peyğəmbərin (ələyhis-səlam) qeybi, Həzrəti Saleh peyğəmbərin (ələyhis-səlam) qeybi, Həzrəti İbrahim peyğəmbərin (ələyhis-səlam) qeybi və Həzərti Musa peyğəmbərin (ələyhis-səlam) qeybini göstərmək olar. Bu qeyblərin hər birində Həzrəti Məhdinin (əccələllahu fərəcəhuş şərif) qeybinə bənzər bir neçə xüsusiyyətlər vardır.

## **Həzrəti Hud peyğəmbərin** (ələyhis-səlam) **qeybi**

Əli ibn Salim atasından belə nəql edib ki, İmam Sadiq (ələyhis-səlam) belə buyurmuşdur: "Nuha (ələyhis-səlam) ölüm yetişdikdə tərəfdarları çağırıb onlara dedi: "Bilin ki, məndən sonra qeyb dövru olacaqdır. Həmin dövrdə taqutlar ortaya çıxacaqdır. Allah-taala övladlarımdan adı Hud olan qaim vasitəsilə sizə qurtuluş verəcəkdir. Onun xoş siması vardır, aramdır, vüqarlıdır, yaradılış və əxlaq baxımından mənə bənzəyər. Allah onun zühuru zamanı sizin düşmənlərinizi külək vasitəsilə həlak edəcəkdir". Beləliklə, onlar davamlı olaraq Hudu (ələyhis-səlam) gözlədilər və onun zühurunun intizarında oldular, o vaxta qədər ki, zaman onlara uzun gəldi və çoxlarının qəlbi daşlaşdı. Sonra Allah naümid olduqları anda Öz peyğəmbərini – Hudu (ələyhis-səlam) ortaya çıxartdı, bəlanı onlardan kənarlaşdırdı, düşmənlərini hər şeyi qurudub məhv edən külək vasitəsilə həlak etdi, hansı ki, bunu Allah-taala vəsf edərək buyurmuşdur: "O, qarşısına çıxan heç bir şeyi buraxmır, onu sovurub külə (çör-çöpə) döndərirdi"(Zariyat, 42). Bu hadisədən sonra Saleh (ələyhis-səlam) zühur edənədək (başqa bir) qeyb dövrü baş verdi".

*Kəmaluddin, bab 2, Nuhun (ələyhis-səlam) peyğəmbərliklə zühur etməsi haqqında*







## **Həzrəti Saleh peyğəmbərin** (ələyhis-səlam) **qeybi**

Zeyd Şəhham İmam Sadiqin (ələyhis-səlam) belə buyurduğunu nəql etmişdir: "Həqiqətən, Saleh bir zaman öz qövmündən qeybə çəkildi. Onlardan qeybə çəkildiyi gün yetkin (kamil həddə çatmış) idi, iri cüssəsi, gözəl bədəni, sıx (gur) saqqalı, düz qarnı, xəfif yanaqları vardı, camaat arasında orta boylu idi. Qövmünə sarı qayıtdıqda onu üzdən tanımadılar. Onlara tərəf qayıtdıqda üç təbəqəyə bölünmüşdülər. İnkarçı təbəqə – heç vaxt (əqidələrindən) geri dönmürdülər; şəkk-şübhə, tərəddüd təbəqəsi; bir də yəqin üzərində olan təbəqə. Saleh (ələyhis-səlam) qayıtdığı zaman, öncə şübhə və tərəddüd əhlini dəvət etməyə başladı və onlara dedi: "Mən Salehəm". Amma onu təkzib, təhqir etdilər, (özlərindən) uzaqlaşdırdılar və dedilər: "Allah səndən uzaq olsun, Saleh sənin simanda deyildi". Dedi: "İnkarçıların yanına gəldikdə onun sözünə qulaq asmadılar, ondan var gücləri ilə qaçdılar. Sonra isə üçüncü təbəqənin – yəqin əhlinin yanına gəldi. Onlara dedi: "Mən Salehəm". Dedilər: "Bizə bir xəbər ver ki, Salehin sən olduğuna dair şübhəmiz olmasın. Bizim şəkk-şübhəmiz yoxdur ki, Allah-taala Yaradandır, O, istədiyini hər bir şəklə sala, dəyişə bilər. Biz (bir-birimizə) xəbər vermişik (və ya bizə xəbər vermişlər), həmçinin öz aramızda – gəldiyi zaman Qaimin əlamətləri ilə əlaqədar araşdırma aparmışıq və bu, bizim nəzərimizdə yalnız səmadan xəbər gəldiyi təqdirdə doğru sayıla bilər". Saleh onlara dedi: "Mən o Salehəm ki, sizə dəvə gətirmişəm". Onlar dedi: "Düz deyirsən, biz də elə onun barəsində araşdırma aparırıq. Bəs onun əlamətləri nədir?" Saleh dedi: "Bəlli bir vaxtda (bu bulaqdan) onun da içmək haqqı vardır, sizin də içmək haqqınız vardır" (Şüəra 26). Dedilər: "Allaha və bizə gətirdiyinə iman gətrdik!" Həmin anda Allah-taala buyurdu "ki, Saleh Rəbbi tərəfindən göndərilmişdir".(Əraf, 75) Yəqin əhli isə dedilər: "Şübhəsiz ki, biz onunla göndərilənə (gətirdiyi hər şeyə) inananlardanıq". (Əraf, 75) "Özlərini böyük sayan kəslər dedilər" – onlar şəkk-şübhə edənlər və inkarçılardır, "şübhəsiz ki, biz sizin inandığınızı inkar edənlərik". Dedim: "Həmin gün onlar arasında onun (Saleh) barədə bilik sahibi olan kəs var idimi?" Buyurdu: "Allah yer üzünü Ona tərəf bələdçilik edən alim olmadan başlı-başına buraxmaqdan daha ədalətlidir. Salehin (üzə) çıxmasından sonra qövm yeddi gün müddətində (bir öhdəçiliyə malik olmayaraq) imam tanımadan qaldılar, baxmayaraq ki, onların əlində Allah-taalanın dini vardı (ki, ona əməl edirdilər) və sözləri də bir idi. Saleh (ələyhis-səlam) zühur etdikdə onun ətrafında toplaşdılar. Qaimin (ələyhis-səlam) məsəli də Salehin (ələyhis-səlam) məsəli kimidir".

*Kəmaluddin, bab 3, Saleh peyğəmbərin qeyb dövrü*



## **Həzrəti İbrahim peyğəmbərin** (əleyhis-səlam) **qeybi**

Həzrəti Məhdinin (əccələllahu fərəcəhuş şərif) qeybinə ən çox bənzəyən qeyblərdən biri Həzrəti İbrahim peyğəmbərin (əleyhis-səlam) qeybidir. Belə ki, Həzrəti İbrahim peyğəmbər (əleyhis-səlam) camaatdan uzaqlaşmasına baxmayaraq tanınmadan da olsa daim onların içində olur, təbliğ edir, onları eşidir və nəsihət edirdi. Onlar Həzrəti İbrahim peyğəmbəri (əleyhis-səlam) görür, onunla həmsöhbət olurlar, istəklərini Ona bildirirdilər. Əgər məsləhət bilsə Özünü onlara tanıtdırardı. Həzrəti İbrahim peyğəmbər (əleyhis-səlam) ən az iki dəfə qeybə çəkilmişdir. O qeyblərdən biri başqa məmləkətləri seyr etmək idi.

Əbu Həmzə Sumali İmam Baqirin (əleyhis-səlam) belə buyurduğunu nəql etmişdir: “Bir gün İbrahim (əleyhis-səlam) evdən çıxdı ki, məmləkətləri seyr edib, ibrət alsın. Bir ərazidə biyabanlığa çatdı. Birdən bir adam gördü ki, dayanmış və namaz qılırdı. Onun fəryadı səmaya qədər ucalırdı, libası da yundan idi. İbrahim (əleyhis-səlam) onun işindən təəccüb içində idi, oturdu və həmin adam namazını qurtarana qədər gözlədi. Uzun çəkdiyini gördükdə əli ilə onu tərpədərək dedi: “Namazını qısalt, mənim bir istəyim var”. Dedi: “Həmin adam da qısa etdi. İbrahim onunla əyləşdi və dedi: “Kimin üçün namaz qılırsan?” Dedi: “İbrahimin Allahı üçün”. İbrahim dedi: “İbrahimin Allahı kimdir?” Dedi: “O kəsdir ki, səni də, məni də yaratmışdır”. İbrahim dedi: “Səndən xoşum gəldi. İstəyirəm ki, Allah yolunda səninlə qardaşlıq edim. Səni ziyarət etmək istəsəm, görüşünə gəlmək istəsəm, mənzilin hardadır?” Həmin adam dedi: “Mənim mənzilim bu suyun arxasındadır”, – əli ilə dənizə işarə etdi. Ancaq namaz qıldığım yer bu yerdi. İstəsən, məni həmin bu yerdə görərsən, inşallah”. Sonra həmin adam İbrahimə dedi: “Bir istəyin var idimi?” İbrahim dedi: “Bəli”. Həmin adam soruşdu: “İstəyin nədir?” İbrahim ona dedi: “Ya sən Allaha dua et, mən də amin deyim, ya da mən dua edim, sən duama amin de”. Həmin adam dedi: “Hansı işə görə Allaha dua edək?” İbrahim dedi: “Günahkar möminlərə görə”. Dedi: “Xeyr”. İbrahim dedi: “Niyə görə?” O dedi: “Çünki mən Allaha üç ildir ki, dua etmişəm. Ancaq indiyə qədər bir cavab görməmişəm. Duamı müstəcəb etdiyini bilmiş olduğum müddətə qədər Allahdan bir başqa dua etmək üçün xəcalət çəkirəm”. İbrahim dedi: “Duan nədir ki?” Həmin adam dedi: “Mən bir gün həmin bu namaz qılınan yerdə idim ki, yanımdan bir yeniyetmə keçdi, heybətli idi, alnından (üzündən) nur saçırdı, kəkillərini başının arxasına atmışdı, yanında bir inək vardı, onu otarırdı, elə bil ona yağ vurmuşdular (və ya yağ axırdı). Qoyun da otarırdı və elə bil bolluca ətli-qanlı idilər.



Onu görcək təəccübləndim və ona dedim: “Ey oğlan! Bu inək və qoyun kimindir?” Dedi ki, mənimdir. Dedim ki, sən kimsən? Dedi ki, mən İsmailəm, Rəhmanın xəlili İbrahimin oğlu. Həmin vaxt Allahın dərgahına dua etdim və xahiş etdim ki, Öz xəlilini mənə göstərsin. İbrahim dedi: “Mən Rəhmanın xəlili İbrahiməm, həmin yeniyetmə də mənim oğlumdur”. Bu zaman həmin kişi dedi: “Həmd aləmlərin Rəbbi Allaha məxsusdur ki, mənim duamı qəbul etdi”. Buyurdu: “Sonra həmin adam İbrahimin yanaqlarından öpdü, onu qucaqladı. Sonra dedi: “İndi duaya hazıram. Dua et ki, sənin duana amin deyim”. Həzrəti İbrahim (əleyhis-səlam) həmin gündən Qiyamət gününədək günahkar mömin kişi və qadınlar üçün dua etdi, onlar üçün bağışlanma və onlardan razı qalınmasını dilədi”. Buyurdu: “Həmin kişi də İbrahimin (əleyhis-səlam) duasına amin dedi”. Ravi deyir: “Əbu Cəfər (əleyhiss-əlam) buyurdu: İbrahimin (əleyhis-səlam) günahkar mömin şiələrimiz üçün etdiyi dua Qiyamət gününədək çatacaqdır”.

*Kəmaluddin, bab 4, İbrahim peyğəmbərin qeyb dövrü*

Əbu Bəsir İmam Sadiqin (əleyhis-səlam) belə buyurduğunu nəql etmişdir: İbrahim (əleyhis-səlam) davamlı olaraq qeybdə idi, özünü gizli tuturdu. O, işini zühur edənə qədər məxfi saxladı. Zühur etdikdə Allahın fərmanını aşkar etdi, Allah Öz qüdrətini onun barəsində göstərdi. Sonra ikinci dəfə qeybə çəkildi. Həmin vaxt idi ki, zülmkar hökmdar onu şəhərdən çıxartdı və İbrahim dedi: “Mən sizi və Allahdan başqa çağırdıqlarınızı (sitayiş etdiklərinizi) tərk edir və öz Rəbbimi çağırıram. Ola bilsin ki, mən Rəbbimi çağırmaqla heç vaxt bədbəxt olmayım” (Məryəm surəsi, 48-ci ayə). Allah-taala buyurdu: “İbrahim onları və onların Allahdan başqa yalvardıqlarını tərk etdiyi zaman Biz ona İshaqı və Yəqubu bəxş etdik. Biz onların hər ikisini peyğəmbər etdik. Biz onlara öz mərhəmətimizdən əta etdik və onlara uca bir doğruluq dili qismət elədik”. (Məryəm surəsi, 49-50).

*Kəmaluddin, bab 4, İbrahim peyğəmbərin qeyb dövrü*

## **Həzrəti Musa peyğəmbərin** (ələyhis-səlam) **qeybi**

Əbu Bəsir İmam Baqirin (ələyhis-səlam) belə buyurduğunu nəql etmişdir: "Musa Bəni İsraildən əlli nəfər yalançı aşkar olana qədər zahir olmadı. Onların hamısı iddia edirdilər ki, (guya) onlar Musa ibn İmrandırlar.

*Kəmaluddin, bab 6, Musa peyğəmbərin qeyb dövrü*

Abdullah ibn Sinan İmam Sadiqin (ələyhis-səlam) belə buyurduğunu nəql etmişdir: "Qaimdə (əccələllahu fərəcəhuş şərif) Musa ibn İmrandan (ələyhis-səlam) bir sünnə vardır". Soruşdum: "Musa ibn İmrandan (ələyhis-səlam) olan sünnə nədir?" Buyurdu: "Doğuluşunun gizliliyi və öz qövmündən qeybə çəkilməsidir". Dedim: "Musa (ələyhis-səlam) öz ailəsi və qövmündən nə qədər (müddətə) qeybdə olmuşdur?" Buyurdu: "İyirmi səkkiz il".

*Kəmaluddin, bab 6, Musa peyğəmbərin qeyb dövrü*

Həzrəti Əmirəlmöminin (ələyhis-səlam) Allah Rəsulunun (səlləllahu ələyhi və alih) belə buyurduğunu nəql etmişdir: "Bir zaman Yusifin (ələyhis-səlam) vəfatı yetişdi, tərəfdarlarını və ailəsini topladı, Allaha həmd-səna etdi, sonra isə onlara xəbər verdi ki, çox çətin bir sıxıntı üz verəcəkdir, orada kişiləri öldürüləcək, hamilə qadınların qarınları yırtılacaq, uşaqlarının başları kəsiləcəkdir, o vaxta qədər ki, Allah haqqı – Lavi ibn Yəqubun övladlarından olan Qaimdə (burada Həzrəti Musa peyğəmbər nəzərdə tutulur) aşkar edəcəkdir. O, qarabuğdayı, hündürqamətli bir kişidir – və onun xüsusiyyətlərini sadaladı. Beləliklə, onlar həmin vəsiyyətdən möhkəm yapışdılar; Bəni İsrailə qeyb və çətinlik üz verdi. Onlar dörd yüz il müddət ərzində – doğulma xəbərilə müjdələnənə, həmçinin zühurunun əlamətlərini müşahidə edincəyə qədər Qaimin intizarını çəkdilər. Onların sıxıntıları daha da gücləndi, onlara ağac və daş yüklədilər. Hədislərindən aramlıq tapdıqları fəqih təqib altına düşdü, gizləndi, onunla məktublaşdılar və dedilər ki, biz sıxıntılarla yanaşı sənin kəlamınla rahatlıq tapardıq. Fəqih onları səhralara apardı, oturdu və onlarla Qaimin hədisi, onun xüsusiyyətləri, zühurunun yaxınlığı barədə danışırdı. Həmin gecə aylı bir gecə idi. Bu arada Musa (ələyhis-səlam) onlara görsəndi, bu zaman o, yeniyetmə idi. O, Fironun sarayından çıxmış, gəzinti yeri gəzirdi və qafiləsindən (yaxud dəstəsindən) kənara çıxmışdı.



O, qatıra süvar olmuşdu, sinəsinin üzərində də xəz örtük vardı, onların yanına gəldi. Fəqih onu gördükdə xüsusiyyətlərindən tanıdı, qalxdı, ayaqlarına düşərək onları öpüb dedi: "O Allaha şükürlər olsun ki, səni mənə göstərməyənə qədər məni öldürməyib". Başçılarını belə gördükdə bildilər ki, o, onların sahibidir. Onlar Allaha şükür edən halda yerə düşdülər, Musa da (ələyhis-səlam) yalnız bunu dedi ki, ümidvaram Allah sizin qurtuluşunuzu tezləşdirər. Ondan sonra qeybə çəkildi və Mədyən şəhərinə getdi. O, illərlə Şüeybin yanında qaldı. Bu ikinci qeyb dövrü onlar üçün birinci qeyb dövründən daha çətin gəldi. Həmin bu qeyb dövrü əlli və bir neçə il davam etdi; sıxıntılar onlar üçün daha da çətinləşdi. O fəqih də, həmçinin özünü məxfi tutdu. Bir nəfəri onun yanına göndərdilər və dedilər ki, bizim sənin gizli qalmağına daha səbrimiz çatmır. Buna görə də səhralığa çıxdı və onları çağırdı, onları xoşhal etdi və onlara bildirdi ki, Allah-taala ona belə vəhy (ilham) etmişdir ki, qırx ildən sonra onların qurtuluşu yetişəcəkdir. Onlar hamılıqla dedilər: "Həmd Allaha məxsusdur". Allah-taala vəhy etdi ki, onlara de, "Əlhəmdulillah" demələrinə görə onu otuz ilə azaltdım. Onlar dedilər: "Hər bir nemət Allah tərəfindəndir". Vəhy gəldi ki, onlara de, onu iyirmi ilə saldım. Dedilər: "Yalnız Allah xeyir gətirər". Vəhy gəldi ki, onlara de, on ilə saldım. Onlar dedilər: "Pisliyi yalnız Allah uzaqlaşdıra bilər!" Allah həmin fəqihə belə vəhy etdi ki, onlara de: "Öz yerinizdən tərpənməyin, artıq sizin qurtuluş izninizi vermişəm". Bu arada Musa (ələyhis-səlam) bir ulağa süvar olmuş halda ortaya çıxdı, fəqih də istədi ki, onunla ələqədar vəzifələrini onlara tanıtdırsın (və ya istədi ki, onu şiələrə tanıtdırsın və onu diqqətlə gözdən keçirmə öhdəçiliklərini aydın etsin). Musa gəldi və fəqih soruşdu: "Kimin oğlusan?" Dedi: "İmranın oğluyam". Dedi: "Kimin oğludur?" Musa dedi: "Yəqubun oğlu Lavinin oğlu Qahisin oğludur". Alim dedi: "Nə ilə gəlmisən?" Dedi: "Allah-taala dərgahından olan risalətlə gəlmişəm". Həmin fəqih ayağa qalxdı və Musanın əlindən öpdü, sonra onların arasında oturdu və onları xoşhal etdi. Musanın göstərişlərini onlara çatdırdı, ardınca isə onları pərakəndə saldı, beləliklə bu zamanla Fironun qərq olması ilə-onların qurtuluşu-arasında qırx il fasilə oldu.

*Kəmaluddin, bab 6, Musa peyğəmbərin qeyb dövrü*





Yaşayan və gizli İmam (Canlı Höccət)

Yaşayan və gizli İmam (Canlı Höccət)

# Qeyb dövründə Həzrəti Məhdidən (əccələllahu fərəcəhuş şərif) necə faydalanaq?

Biz qeyb müddəti ərzində Həzrəti Məhdinin (əccələllahu fərəcəhuş şərif) nə kimi faydalarını görmüşük? Əgər O, yaşayırsa, bizim Rəhbərimizdirsə, hər şeyə hakimdirsə, Onda ixtiyar varsa, insanların qayğısına qalırsa, bizi eşidir, görür və nəzarət edirsə, bunun bizə faydaları nədir? Nə zaman faydası oldu? Bir haldaki, insanlar o zamandan bəri zülm və pərişanlıq içindədirlər, ədalətsizlik hökm sürür, haqqlar əzilir, uşaqlar və zəiflər həlak olur, güclülər təzyiq edirlər və öndə olanlardırlar, qeyri-bərabərlik mövcuddur, ixtilaflar çoxalıb və s. bunun kimi çətinliklər müşahidə olunur. Bəs, Onun bizə faydası harada qaldı? Ola bilərmi ki, O ilahi şəxs olsun, ilahi qüdrətə sahib olsun, ancaq bizə faydası olmasın?

Bunlar əksəriyyətimizin daxilində və ya üzə gətirmədiyimiz suallardır ki, O Həzrətlə bizim aramızda fasilə salır. Bunların cavabı necədir?

Hər şeydən əvvəl onu deyək ki, bütün bu sualların cavabı elə Onun zühur etməsi ilə bərabərdir. Bu sualların yaranması elə Onun qeybə çəkilməsini məcbur edən amillərdir. İmam Zaman (əccələllahu fərəcəhu şərif) da məhz zühurdan sonra bu suallara aydınlıq gətirəcəkdir.



Bu sualların yaranmasının səbəbləri də elə biz özümüzük. Təbii ki, etdiyimiz səhvləri və cinayətləri, Onun üzərinə atmamalıyıq. Və bunun həllini istəyərkən də bizim əmrimiz və göstərişimizlə dərhal olmasını da gözləməməliyik. Biz bu səhvlərimizi qəbul etməli, tövbə etməli və Allaha yalvarmalıyıq. Özümüzü bu zülmlərin yox olması üçün İmama (əccələllahu fərəcəhuş şərif) kömək etməyə hazırlamalıyıq. Nəinki, zülmlərə şərik çıxmaqla sadəcə dilimizi şikayətə məşğul etməliyik.

Əlbətdə bunlar o demək deyil ki, İmamın (əccələllahu fərəcəhuş şərif) bizə faydası yoxdur. Sadəcə bir az insaflı olmağımız, öz suallarımıza cavabı tapacaqdır. Sözsüz ki, İmamın (əccələllahu fərəcəhuş şərif) böyük qeyb dövründə bizə faydası vardır.

Əgər birinin bizə fayda verməsini bilmək istəyirksə biz onu tanımalıyıq ki, ondan nə kimi faydaları tələb edək, əvvəl bizə nə faydası olub? və indi nə fayda istəyirik? Əks halda, O şəxs bizə fayda versə belə biz onun necə və nə fayda verəcəyini anlamayacayıq. Əgər İmamın (əccələllahu fərəcəhuş şərif) bizə olan faydasını anlamaq istəyirksə Onu tanımalıyıq. Məsələn: O qoruyucudur, nəzarət edəndir, dünyanın var olması Onunladır, nemətlər və ruzilər Onun vasitəsi ilə bizə verilir, bəlalardan uzaq qalmağımız Onun sayəsindədir, ağıllarımız Onun vasitəsi ilə diri qalır.

Nəzərə alsaq ki, bu pislikləri edənlər elə insanların özləridirlər və qeyb müddəti ərzində bunun qarşısı alınmasa idi; sadəcə qısa deməli olsaq-əvvəlki ümmətlər kimi bizim də ümmət məhv olardı.

Yer üzündə olanların hamısını məhv etmək istəsə, kim Ona bir şeylə mane ola bilər? (Maidə, 17)

Məgər onlar özlərindən əvvəl neçə-neçə nəsilləri məhv etdiyimizi görmədilərmi? (Ənam, 6)

Məhv olsun Hudun qövmü Ad! (Hud, 60)

Məhv olsun Səmud qövmü! (Hud, 68)

Səmud qövmü məhv olduğu kimi Mədyən qövmü də məhv olsun! (Hud, 95)

İstəsə, sizi məhv edər və sizi başqa bir qövmün nəslindən yaratdığı kimi sizdən sonra da yerinizə dilədiyini gətirər. (Ənam, 133)

Əgər Həzrəti Məhdinin (əccələlla-hu fərəcəhuş şərif) bizə faydası olmasaydı, biz indi məhv olmuşduq.

Bu qədər pisliklərin, zülmlərin və düşmənlərin qarşısında hələ də yaşamağımız və dinimizdə sabit qalmağımız, düşündürücü deyilmi?





Yaşayan və gizli İmam (Canlı Höccət)

**İshaq ibn Yəqubun biz qeyb zamanında Sizdən necə faydalanaq, müraciətində; Həzrəti Məhdi (əccələllahuş fərəcəhuş şərif) buyurub: Qeyb zamanında Məndən faydalanmaq bulud arxasında olan Günəşdən faydalanmaq kimidir.**

*Şeyx Tusi, Qeyb dövrü, səh.290, Təbərsi, Əl-Ehticac c.2, səh. 469, Kəmaluddin c.2, səh.483, bab 45, hədis 4, Biharul Ənvar c.53. səh.181*

Günəşin bulud arxasında olması, onun faydasının olmaması demək deyildir. Biz hər gün səmaya baxdıqda bəzən Günəşi görürük ancaq bəzən görmürük. Günəş bulud arxasında olarkən biz onu görməsək də Günəş öz faydasını bizdən əsirgəmir. Belə ki, onun istisindən, işığından və digər xüsusiyyətlərindən faydalanırıq. Günəşin bulud arxasında olması qaranlığa səbəb deyildir. Bizim də qeyb zamanında İmamdan (əccələllahu fərəcəhuş şərif) faydalanmağımız bunun kimidir. Biz İmamı görməsək də, Onun sayəsində nemətlərdən istifadə edirik.

## Günəş olmasa həyat olmaz

Günəşin daxilində və səthində olan istiliklə, yer səthində olan istilik arasında kəskin fərq vardır. Yəni Günəşin daxilində olan istiliyin öz faydası, səthində olan istiliyin öz faydası, yer üzündə olan istiliyin öz faydası və bulud arxasında olarsa ayrı bir faydası vardır. Deməli, bizim Günəşdən faydalanmağımız öz gücümüzün çatdığı və onu bildiyimiz qədərdir. Bizim İmam Zamandan (əccələllahu fərəcəhuş şərif) faydalanmağımız Onu (əccələllahu fərəcəhuş şərif) tanımağımız və qabiliyyətimiz qədərdir. Necə ki, yer üzünün bir hissəsi Günəşdən bir cür faydalanır, digər hissəsi isə başqa cür faydalanır. Bəzi yerlər çox isti olur, bəzi yerlər sərin olur, bəzi yerlər isə soyuq olur. Bunun hər birinin özünə görə faydaları vardır. Bu faydaların necəliyi o yerlərin Günəşdən aldığı enerji qədərdir. Biz, İmam Zamanı (əccələllahu fərəcəhuş şərif) nə qədər tanısaq o qədər Ondan faydalanacayıq və o qədər Onun faydasını anlayacayıq. Onu tanımayanlar da Ondan (əccələllahu fərəcəhuş şərif) faydalanırlar, ancaq bunu bilmirlər. Necə ki, bəzən bulud arxasında olan Günəşdən faydalanırıq ancaq bunun Günəşdən olduğunu bilmirik.

**Yer öz Rəbbinin nuru ilə işıqlanacaq, (əməllər yazılmış) kitab (hər kəsin qarşısına) qoyulacaq, peyğəmbərlər və şahidlər gətiriləcəkdir. Onların arasında ədalətlə hökm veriləcək və onlara haqsızlıq edilməyəcəkdir.**
(Zümər, 69)

İmam Sadiq (əleyhis-səlam) buyurub: Qaimimiz qiyam edən zaman yer üzü (O Həzrətin) Rəbbinin nuru ilə işıqlanacaq, bəndələrin günəşin işığına ehtiyacı qalmayacaq və zülmət aradan qalxacaq.

*Əl-İrşad, c.2, səh.381, Ələmul-Vəra, səh.464, Biharul-Ənvar c.52, səh.337*

İmam Sadiq (əleyhis-səlam) **Yer öz Rəbbinin nuru ilə işıqlanacaq** ayəsi haqqında buyurdu: Yer üzünün tərbiyyə edəni yer üzünün İmamıdır. İmamın (Həzrəti Məhdinin (əccələllahu fərəcəhuş şərif)) nuru ilə insanlar günəşin və ayın nurundan ehtiyacsız olacaq.

*Burhan Təfsiri, c.4, səh.733, Qummi Təfsiri, c.2, səh.253, Biharul-Ənvar c.7, səh.326*







**Allah inşəallah İmam Zamanın (əccələllahu fərəcəhuş şərif) zühuru ilə buludları kənarlaşdırsın və bizi Onun (əccələllahu fərəcəhuş şərif) nurlu siması ilə faydalandırsın.**

# Qeyb dövründə vəzifələrimiz

Hədislərə əsasən qeyb zamanında Həzrəti Məhdinin (əccələllahu fərəcəhuş şərif) qarşısında olan əsas vəzifələrdən bir neçəsini qeyd edək; **Onu tanımaq və tanıtmaq (məhəbbət etməklə və düşmənlərindən uzaq durmaqla), günahlardan uzaqlaşmaq (tövbə etmək), dua etmək, intizarında olmaq (zühurunu gözləmək) və möminlərə kömək etmək.**

## Həzrəti Məhdini (əccələllahu fərəcəhuş şərif) tanımaq və tanıtmaq (məhəbbət etməklə və düşmənlərindən çəkinməklə)

Məxsusən qeyb zamanında bir ilahi höccəti-yəni Həzrəti Məhdini (əccələllahu fərəcəhuş şərif) tanımaq və tanıtmaq daha önəmlidir. Çünki qeyb dövrünün şəraiti və uzanması, çoxlu və ardıcıl olaraq saxta iddiaçıların ortaya çıxması, çətinliklərin daha da artması, Həzrəti Məhdinin (əccələllahu fərəcəhuş şərif) diqqətli, ətraflı və daha yaxından tanınmasını və tanıtdırılmasını zəruri edir. Həzrəti Məhdini (əccələllahu fərəcəhuş şərif) tanımaq və tanıtmaqlıq təkcə təcümeyi-halı ilə deyil, həmçinin əsas olmaq etibari ilə Ona məhhəbət etmək və düşmənlərindən çəkinmək (çəkindirmək) vəzifələri ilə birlikdədir.









Əli ibn Seyf ibn Umeyrə öz atasından, o da Humran ibn Əyəndən Əbu Əbdullahın (əleyhis-səlam) (İmam Sadiqin) belə buyurduğunu nəql edir: **İmamını tanı.** Əgər onu tanısan, bu işin tez olması və ya gecikməsi sənə zərər vurmaz. Həqiqətən də, Allah-taala belə buyurur: O gün bütün insanları öz imamı ilə çağıracağıq (İsra 71). Kim öz imamını tanısa, Qaimin (əccələllahu fərəcəhuş şərif) çadırında olan şəxs kimi olar.

*Şeyx Numani, "Qeyb dövrü", səh.331, həmçinin başqa mənbə ilə - Şeyx Numani, "Qeyb dövrü", səh.330-331, Biharul-ənvar c.52 səh.142*

Əbu Həmzə Əbu Cəfərdən (əleyhis-səlam) nəql etmişdir: "Allah Rəsulu (səlləllahu ələyhi və alih) buyurmuşdur: "Xoş olsun o kəsin halına ki, Əhli-Beytimin Qaimini haqlayar (görər, zamanına yetişər), Qiyamətdən öncə onun qeybində ona tabe olar, onun dostlarını dost tutar, düşmənlərilə düşmənçilik edər. Belə bir kəs Qiyamət günü mənim dostlarımdan, məvəddətimin sahiblərindən (o kəslər ki, Əhli-Beytimə məhəbbət bəsləyiblər) və ümmətim arasından mənə ən hörmətli olan kəslərdir".

*Kəmaluddin c.1, bab.25, səh.286, İsbatul-Huda c.5, səh.75, Biharul-Ənvar c.51, səh.72*

başqa bir mənbədə Rüfaədən nəql olunur və davamında deyib: Allahın məxluqatı içərisində mənə ən hörmətli olanıdır

*Şeyx Tusi, "Qeyb dövrü", səh.456, Biharul-Ənvar, c.52, səh.129*

## Günahlardan uzaqlaşmaq (tövbə etmək)

Düzdür ki, günahlardan uzaqlaşmaq nəinki təkcə qeyb dövründə, həmişə mömінin peşəsi olmalıdır. Ancaq qeyb dövrünün məxsus çətinliklərini nəzərə alsaq, bu dövrdə amanda qalmaq üçün də günahlardan uzaqlaşmağı məxsus bir yerə qoymalı, diqqət mərkəzində saxlamalı və bunun üçün daha çox səy etməliyik. Çünki qeyb zamanında Həzrətin dostları və Onun adı ilə tanınanlar əvvəlkilərdən daha çox nümunəvi, daha çox təqvalı olmalıdırlar. Bu ona görədir ki, qeybdən əvvəlkilər başqalarında naqislik müşahidə etsələr də gözəl nümunə kimi İmamlarını aşkarda görə bilirdilər. Qeyb zamanında isə insanlar İmamını aşkarda görmədiklərindən onlar üçün son nümunə möminlər və Onun dostlarıdır. Bu səbəb kifayətdir ki, qeyb zamanında olan möminlər təqvaya daha çox önəm versinlər və bu işdə Həzrətə kömək etmiş olsunlar.

İmam Sadiq (ələyhis-səlam) buyurub: Hər kəs istəyirsə Həzrəti Qaimin (əccələllahu fərəcəhuş şərif) əshabından (dostlarından) olsun, gərək **müntəzir (Onu gözləsin) olsun** və intizarda olan halda **vərəyə riayət edib (təqvalı olub) və gözəl əxlaqla rəftar etsin** (əxlaqi gözəlliklərə sahib olsun)...

*Şeyx Numani, "Qeyb dövrü", səh.200, Biharul-Ənvar c.52, səh.140*

İmam Zamanın (əccələllahu fərəcəhuş şərif) Şeyx Müfidə yazdığı məktubundan bir hissə; Siz mükəlləfsiniz ki, əmrlərimizi və göstərişlərimizi dostlarımıza çatdırasınız. Bir halda ki, bu Özümüzün və şiələrin xeyrinə olan Uca Allahın əmrləri əsasındadır-o vaxta qədər ki, dünyanın hökmü zalımların əlindədir. Gözdən uzaq və gizlin bir yerdə qalsaq da, başınıza gələn hadisələr və macəralardan (əhvalatlardan) kamil şəkildə tamamilə məlumatlıyıq və xəbərlərinizdən heç bir şey bizə gizlin deyildir. Allahın saleh bəndələrinin çəkindiyi günahlar və xətalardan xəbərdarıq, ancaq siz onlara (günahlara) mürtəkib olmusunuz (baş qoşmusunuz), onlardan da xəbərdarıq! Biz, əhdi pozmaqlarınızı və onu tərk etməyinizdən məlumatlıyıq... . Allahdan qorxun, təqvanı peşə edin (təqvalı olun) və bizim Risalət Ailəmizə kömək edin... . Çalışın və elə edin ki, əməlləriniz sizi bizə yaxınlaşdırsın və (həmçinin) narazılığımıza səbəb olan günahlardan uzaqlaşdırsın, qorxun və uzaq olun.

*Təbərsi, "əl-Ehticac", c.2, səh.495-497, Biharul-Ənvar c.53, səh.175*



# Həzrəti Məhdini (əccələllahu fərəcəhuş şərif) dua etmək



Qeyb zamanında ən mühüm və çox təkid olunmuş vəzifələrimizdən biri həm Həzrəti Məhdinin (əccələllahu fərəcəhuş şərif) Özünü həm də bu zamanda amanda qalmaq üçün dua etməkdir. Dua etməyi kiçik və əməlsiz bir iş sanmayaq. Əvvəlki ümmətlər duaları sayəsində nicat tapmışlar. Bu Allahın bizdən istədiyi ən mühüm əməllərdən biridir. Bundan da uca zəmanə İmamını dualarımızda yad etmək, önə çəkmək və əsas yerə qoymaqdır. Çünki sabitqədəm qalmaq da Onunladır və Onu dua etməklədir.

Dua sadəcə bir şeyi istəmək deyildir. Dua, həmçinin bizim dəyərimizin, imanımızın nişanəsidir. Duamızın böyüklüyü Allahın bizə verdiyi böyüklükdür və ucalıqdır. Öz zəmanə İmamını-Həzrəti Məhdini (əccələllahu fərəcəhuş şərif) dua etməkdən daha böyük dua nə ola bilər?

**Duanız olmasa, (axı) Rəbbim sizə nəyə görə (nə üçün) dəyər versin!** (Furqan, 77)

İmam Zaman (əccələllahu fərəcəhuş şərif) (tovqidə) buyurub: Fərəcin (zühurun) tezləşməsi üçün çox dua edin ki, bu elə sizin fərəciniz (çətinliklərdən xilas olmağınız və nicatınız) üçündür.

*Kəmaluddin, c.2, s h.485, bab 45, hədis 4, "əl-Ehticac", c.2, səh.469, Biharul-Ənvar c.53, səh.180*

Abdullah ibn Sinan İmam Sadiqin (əleyhis-səlam) belə buyurduğunu nəql edib: "Tezliklə sizə bir şübhə üz tutacaq ki, görülən nişanəsiz (əlamətsiz) və doğru yol göstərən imamsız qalacaqsınız. Bundan (belə bir vəziyyətdən) yalnız "ğəriq" duasını oxuyan kəs qurtulacaqdır". Soruşdum ki, "Ğəriq" duası necədir? Buyurdu: "Deyər: "Ya Allahu, ya Rahmənu, ya Rahimu, ya Muqəllibəl-qulub, səbbit qəlbi əla dinik" (Ey Allah, ey Rəhman, ey Rəhim, ey qəlbləri dəyişən, qəlbimi dinin üzərində sabitəqədəm et). Mən də dedim: "Ya Allahu, ya Rahmənu, ya Rahimu, ya Muqəllibəl-qulubi vəl-əbsar, səbbit qəlbi əla dinik". Dedi: "Həqiqətən, Allah-taala qəlbləri və görməyi dəyişəndir. Lakin sənə dediyim kimi de: "Ya Müqəllibəl-qülubi səbbit qəlbi əla dinik".

*Kəmaluddin c.2, səh.351-352, İləmul-Vəra (əl-qədimə) səh.432, Biharul-Ənvar c.52, səh.148*



*İmam Zamanın salamatçılığı üçün oxunan dua;*
*(Fərəc duası ilə tanınan) Əllahummə kunli vəliyyikəl..*

***Əllahummə kunli vəliyyikə əl Höccət ibnil Həsən, sələvatukə əleyhi və əla abaih, fi hazihis-saəh və fi kulli saəh, vəliyyən və hafizən və qaidən və nasira və dəlilən və əyna, hətta tuskinəhu ərzəkə təva və tuməttiəhu fiha təvila.***

***İlahi! Canişinin Höccət ibnil Həsənə-Ona və atalarına salavat göndər! Bu anda və bütün zamanlarda, Ona rəhbər, qoruyan, himayəçi, köməkçi, dəlil (yol göstərən) və gözətçi ol! Hətta onu yer üzündə uzun müddət sakin et və bəhrləndir.***

## Zühuru üçün oxunan dua; İlahi əzuməl bəla duası (Fərəc duası).

İlahi! Əzuməl bəla və bərihəl xəfa
İlahi! bəlalar böyüdü (çoxaldı) və sirlər aşkarlandı

vənkəşəfəl ğita vənqətər-rəca
pərdələr aradan götürüldü və ümidlər kəsildi

və daqətil-ərdu və muniətis-səma
yer (bizə) daraldı, göylər (öz nemətini) əsirgədi

Və əntəl mustəanu və iləykəl-muştəka
kömək istənilən yalnız Sənsən və şikayətlər yalnız Sənə olunur

Və ələykəl muəvvəlu fiş-şiddəti vər-rəxa.
Çətinliklərdə və asanlıqda yalnız Sənə güvənilir

Əllahummə səlli əla Muhəmmədin və ali Muhəmməd
İlahi! Muhəmməd və Ali Muhəmmədə salam və salavat göndər

Ulil əmrilləziynə fərəztə ələyna taətəhum
Bizlərə, əmr sahiblərimizin itaətlərini vacib etdin

və ərrəftəna bizalikə mənzilətəhum
bununla da onların məqamını bizə tanıtdırdınız

Fəfərric ənna bihəqqihim fərəcən acilən qəriba
Onların haqqına xatir bizləri tezliklə və təcili olaraq çətinliklərdən qurtar
(İmamın qeybdə olması çətinliyindən)

kələmhil bəsər əv huvə əqrəb
bir göz qırpımında və ondan da tez

Ya Muhəmmədu Ya Əli, Ya Əliyyu Ya Muhəmməd
Ya Muhəmməd! Ya Əli! Ya Əli! Ya Muhəmməd!

İkfiyani fə innəkuma kafiyan, vənsurani fə innəkuma nasiran
Mənə kifayət edin. Həqiqətən də, Siz kifayət edənsiniz  Mənə kömək edin.
Həqiqətən də, Siz kömək edənsiniz.

Ya Mövlana ya Sahibəzzəman
Ey mənim Mövlam, ey Sahibəzzaman!

Əlğəvs, Əlğəvs, Əlğəvs
Fəryadıma çat, Fəryadıma çat,Fəryadıma çat ! (çığırtıma cavab verin)

Ədrikni, Ədrikni, Ədrikni
Məni dərk edin, Məni dərk edin, Məni dərk edin

Əs-saət, Əs-saət, Əs-saət
Elə bu saatda, Elə bu saatda, Elə bu saatda (indicə)

Əl-əcəl, Əl-əcəl, Əl-əcəl
Təcili, Təcili, Təcili

Ya ərhəmər Rahimin, bihəqqi Muhəmmədin və alihit-tahirin.
Ey rəhimlilərin ən rəhimlisi, Muhəmməd və Ali Muhəmmədin haqqına xatır.



## Ali-Yasin ziyarətnaməsi

Səlamun əla Ali Yasin
Salam olsun Ali Yasinə (Həzrəti Muhəmmədin Əhli-beytinə)

Əssəlamu ələykə ya daiyəllahi və rəbbaniyyə ayati
Salam olsun ey Allahın dəvətçisi və ayələrinin məzhəri

Əssəlamu ələykə ya babəllahi və dəyyanə dini
Salam olsun sənə ey Allahın rəhmət qapısı və Onunun dininin qoruyucusu

Əssəlamu ələykə ya Xəlifətəllahi və nasirə həqqi
Salam olsun sənə ey Allahın Xəlifəsi və haqqın köməkçisi

Əssəlamu ələykə ya Hoccətəllahi və dəlilə iradəti
Salam olsun sənə ey Allahın Höccəti və iradəsinin (razılığının) yol göstərəni

Əssəlamu ələykə ya taliyə kitabillahi və tərcumanə
Salam olsun sənə ey Allahın kitabını oxuyan və onu izah edən

Əssəlamu ələykə fi anai-ləyliklə və ətrafi nəharik
Salam olsun sənə gecə və gündüz vaxtlarında

Əssəlamu ələykə ya Bəqiyyətəllahi fi ərdi
Salam olsun sənə ey Allahın yer üzündəki sona saxladığı zəxirəsi

Əssəlamu ələykə ya misaqəllahil-ləzi əxəzəhu və vəkkədə
Salam olsun sənə ey Allahın ruhlar aləmində qullarından aldığı və sağlamlaşdırdığı əhdi

Əssəlamu ələykə ya vədəllahil-ləzi zaminə
Salam olsun sənə ey Allahın vədinə zamin olan

Əssəlamu ələykə əyyuhəl ələmul-mənsub, vəl-ilmul-məsbub
Salam olsun sənə ey ucalmış bayraq, verilmiş elm

vəl-ğəvsu və rəhmətul-vasiətu vəədən ğayrə məkzub
xalqın sığınacağı, Allahın geniş rəhməti və qəti olan vədi

Əssəlamu ələykə hinə təqum
Salam olsun sənə ayağa qalxdığın vaxt

Əssəlamu ələykə hinə təqud
Salam olsun sənə oturduğun vaxt

Əssəlamu ələykə hinə təqrau və tubəyyin
Salam olsun sənə (Quran) oxuyub izah etdiyin vaxt

Əssəlamu ələykə hinə tusəlli və təqnut
Salam olsun sənə namaz qılıb və qunut tutduğun vaxt

Əssəlamu ələykə hinə tərkəu və təscud
Salam olsun sənə ruku və səcdə etdiyin vaxt

Əssəlamu ələykə hinə tuhəllilu və tukəbbir
Salam olsun sənə La ilahə illəllah və Allahu Əkbər dediyin vaxt

Əssəlamu ələykə hinə təhmədu və təstəğfir
Salam olsun sənə həmd etdiyin və məğfirət dilədiyin vaxt

Əssəlamu ələykə hinə tusbihu və tumsi
Salam olsun sənə sübh və axşam çağlarında

Əssəlamu ələykə fil-ləyli iza yəğşa vənnahari iza təcəlla
Salam olsun sənə gecənin qaranlığında və gündüzün aydınlıq vaxtı

Əssələmu ələykə əyyuhəl İmamul-məmun
Salam olsun sənə ey güvən qaynağı olan İmam

Əssəlamu ələykə əyyuhəl muqəddəmul-məmul
Salam olsun sənə ey ümid qaynağı

Əssəlamu ələykə bi-cəvamiis-səlam
Salam olsun və bütün salamlar olsun sənə

Uşhidikə ya Məvla ənni əşhədu ənla ilahə illəllah
Ey vəlim, Sən şahid ol ki, şübhəsiz mən Allahdan başqa bir İlahın olmadığına

vəhdəhu la şərikə ləh və ənnə Muhəmmədən əbduhu və Rasuluh
Onun tək olub şəriki olmadığına, Muhəmmədin Onun qulu və elçisi olduğuna

La həbibə illa huvə və əhlu
Ondan və Əhli-beytindən başqa bir həbibim olmadığına şəhadət gətirirəm

Və uşhidukə ya Məvla ənnə Əliyyən Əmirəl-muminine hoccətu
Sən ey vəlim, şahid ol ki, Əmirəlmömininin Əli Allahın höccətidir

vəl-Həsənə hoccətu vəl-Huseynə hoccətu
həmçinin Həsən və Hüseyn Allahın höccətləridir

və Əliyyəbnəl Huseyni hoccətu və Muhəmmədəbnə Əliyyin hoccətu
həmçinin Əli ibni Hüseyn və Muhəmməd ibni Əli Allahın höccətləridir

və Cəfərəbnə Muhəmmədin hoccətu və Musəbnə Cəfərin hoccətu
həmçinin Cəfər ibni Muhəmməd və Musa ibni Cəfər Allahın höccətləridir

və Əliyəbnə Musa hoccətu və Muhəmmədəbnə Əliyyin hoccətu
həmçinin Əli ibni Musa və Muhəmməd ibni Əli Allahın höccətləridir

və Əliyyəbnə Muhəmmədin hoccətu vəl-Həsəbnə Əliyyin hoccətu
həmçinin Əli ibni Muhəmməd və Həsən ibni Əli Allahın höccətləridir.

və əşhədu ənnəkə Hoccətullah
Sənin də (Həzrəti Məhdinin) Allahın Höccəti olduğuna şəhadət edirəm.

Əntumul əvvəlu vəl-axir
Sən əvvəl və axırsan

və ənna rəcətəkum həqq
həqiqətən sənin qayıdışın haqdır

la rəybə fiha yəvmə la yənfəu nəfsən imanuha, ləm təkun amənət min qəblu əv kəsəbət fi imaniha xəyra
əvvəl iman gətirməyən və ya imanında faydası olmayan bir kəsin imanından
xeyir qazanmadığı gün-şübhəsizdir

Və ənnəl məvtə həqq və ənnə nakirən və nəkirən həqq
Həqiqətən ölüm haqdır, Nəkir və Münkər haqdır

Və əşhədu ənnən-nəşrə həqq
Yenə şəhadət edirəm ki, (öldükdən sonra) dirilmək haqdır

vəl-bəəsə həqq və ənnə siratə həqq vəl-mirsadə həqq
oyanmaq haqdır, sirat haqdır, pusqu haqdır

vəl-mizanə həqq vəl-həşrə həqq
mizan haqdır, izdiham və toplanma haqdır

vəl-hisabə həqq vəl-cənnətə vən-narə həqq vəl-vəədə vəl-vəidə bihima həqq
hesab haqdır, Cənnət və Cəhənnəm haqdır, (Allhın) vəd və deyilən sözlər haqdır

Ya Məvla şəqiyə mən xaləfəkum və səidə mən ətaəkum
Ey Vəlim! Sizinlə müxalifət edən bədbəxt olmuşdur. Sizə itaət edən səadətə çatmışdır.

Fəşhəd əla ma əşhədtukə ələyh
Belə isə Səni şahid tutduqlarında şəhadət ver

və əna vəliyyun lək, bəriun min əduvvik
Mən sənin dostunam, düşmənindən uzağam

fəl həqqu ma razitumu, vəl batilu ma əsxəttumu (səxittumu)
Sizin razı olduğlarınız haqdır, sevmədikləriniz batildir

vəl məərufu ma əmərtum bih, vəl munkəru ma nəhəytum ənh
Əmr etdikləriniz mərufdur (yaxşı əməldir) və çəkindirdikləriniz isə münkərdir (pis əməldir)

Fə nəfsi muminətun billahi vəhdəhu la şərikə ləh
Ey vəlim! Mən, şəriki olmayan tək Allaha

və bi-Rasulihi və bi-Əmiril-mumininə
Onun Elçisinə və Əmirəl-mumininə

və bikum ya Məvla, əvvəlikum və axirikum
və sizin hamınıza-birincinizdən axırıncınıza qədər iman gətirmişəm

və nusrəti muəddətun ləkum və məvəddəti xalisətun ləkum
Köməyim sizin üçün hazırdır. Dostluğum sizə xalisdir.

Aminə Amin!

Yaşayan və gizli İmam (Canlı Höccət)

# İntizarda olmaq

Həzrəti Məhdi (əccələllahu fərəcəhuş şərif) dedikdə ilk yadımıza düşən əməl intizardır.

İntizar ancaq necə intizar?

Həzrəti Məhdinin (əccələllahu fərəcəhuş şərif) intizarında olan şəxs bütün varlığı ilə - ruhu ilə, canı ilə, malı ilə, bütün zamanı ilə, əlində olan maksimum fürsətləri ilə, fikri ilə, zikri ilə, diqqəti ilə, ailəsi ilə, övladları ilə, dostları ilə, ən çox dəyər verdiyi şeylərlə gözləməlidir. İntizar, insanın bütün yaşayışında - gündəlik işlərində, əməllərində, ibadətlərində, dualarında özünü təzahür etməlidir. Bir sözlə Həzrəti Məhdini (əccələllahu fərəcəhuş şərif) gözləmək, ötəri bir hal yox-insanın həyat tərzi olmalıdır.

Xüsusi bir qeydi vurğalayaq ki, intizar haqqında bu deyilənlər təbii ki, inkarolunmazdır və hər kəs tərəfindən qəbul olunan ən yaxşı tərifdir. Ancaq təəssüflə onu da qeyd edək ki, iş Həzrəti Məhdinin (əccələllahu fərəcəhuş şərif) intizarına gəldikdə isə bunlar bəzən yalnız dillərdə və ürəklərdə qalır. Yəni qeyb zamanında və dövrümüzdə Həzrəti Məhdinin (əccələllahu fərəcəhuş şərif) məsələnə intizar gözü ilə yox-tarixi bir hadisə kimi baxılır. Həmçinin O Həzrətin Sonuncu Höccət və Zəmanə İmamı olmağı sanki kənarda qalır. Halbuki, biz Ona sadəcə tarixi bir şəxsiyyət kimi baxmaqla ötəri nəzəri keçirtməməli – öz zəmanimizdən bilməklə Həzrəti Məhdini (əccələllahu fərəcəhuş şərif) yaşayış biçimimizə çevirməliyik. Belə olduqda intizarın mənası olur. Həzrəti Məhdini (əccələllahu fərəcəhuş şərif) tanımaq və tanıtmaqlıda, Ona məhəbbət və dua etməkdə, Onu həyatımızın və davranışlarımızın hər anında görməkdə qorxaq davranmamalıyıq, əksinə comərd olmalıyıq. İşlərimizdə İmam Zaman (əccələllahu fərəcəhuş şərif) da var kimi yox, elə İmam Zaman (əccələllahu fərəcəhuş şərif) işlərimzin əsasıdır kimi görməliyik. Bu halda intizarı dərk edə bilərik-bu halda intizarı yaşaya bilərik.

“

Həzrəti Rəsulullah (səlləllahu ələyhi və alih) buyurub: “Mənim ümmətimin ən üstün işi, fərəcin intizarda olmaqdır və Allahdan onun baş verməsini istəməkdir.

*Uyunu Əxbarir-Rza (ə) c.2, səh.36, Əl-Vafi c.2, səh.441, Biharul-Ənvar, c. 52, səh 122*

Əla ibn Səyabət İmam Sadiqin (ələyhis-səlam) belə buyurduğunu nəql etmişdir: “Sizdən kim bu işin (zühurun) intizarını çəkən halda ölsə Qaimin (ələyhis-səlam) çadırında olan kəs kimidir”.

*Kəmaluddin c.2, bab 55 səh.644, Biharul-Ənvar c.52, səh.125, Əl-Məhasin c.1, səh.173*

Əbdülhəmid Vasiti İmam Baqirdən (ələyhis-səlam) nəql edərək deyib: “Mən ona dedim ki, Allah işini avand etsin. Biz bu işin intizarını çəkərək bazarlarımızı tərk etmişik. Buyurdu: “Ey Əbdülhəmid, özünü izzət və cəlal sahibi Allaha görə həbs edən bir kəs görmüsənmi ki, Allah ona bir çıxış yolu qoymasın? Əlbəttə, qoyur. Allaha and olsun ki, Allah onun üçün bir çıxış yolu qərar verəcəkdir. Allah nəfsini bizə görə həbs edən (və özünü qoruyan) bəndəyə rəhmət etsin. Allah bizim işimizi dirildən (və canlı saxlayan) bəndəyə rəhmət etsin”. Mən dedim ki, birdən Qaimə yetişmədən öncə ölsəm (necə)?” Buyurdu: “Əgər sizdən biri “Kaş mən Ali Muhəmmədin Qaiminə yetişib ona kömək edəydim” – desə, onun qarşısında qılıncı ilə vuruşan, bəlkə də onunla yanaşı şəhid olan kəs kimidir”.

*Kəmaluddin c.2, bab 55 səh.644, Biharul-Ənvar c.52, səh.126, Əl-Vafi c.2, səh.441*

İmam Səccad (ələyhis-səlam) buyurub: O kəslər ki, qeyb dövründə yaşayır, Onun (Həzrəti Məhdinin) imamətinə etiqad edirlər və zühurunu gözləyirlər-bütün zamanların insanlarından üstündürlər.

*Əl-İhticac, c.2, səh.317-318, Biharul-Ənvar c.36, səh.386*



## Zəif düşmüş möminlərə kömək etmək (maddi və mənəvi)

Möminlər qeyb zamanında Ali Muhəmmədin yetimləridir. Diqqətli və həssas möminlər bu cəhətdən də zəif düşmüş möminlərə yetimliyi hiss etdirməməlidirlər. Əgər bir zəif mömin köməksiz qalarsa, bu Həzrəti (əccələllahu fərəcəhuş şərif) narahat edər. Ancaq İmam Zaman (əccələllahu fərəcəhuş şərif) da qeyb dövrünün şərtlərini yerinə yetirməyə Allah tərəfindən mükəlləfdir. Biz isə öz İmamımıza (əccələllahu fərəcəhuş şərif) kömək etməyə mükəlləfik. Ona görə də möminlərə kömək etmək əsas vəzifəmiz olmalıdır. Belə olduğu halda İmamımızı (əccələllahu fərəcəhuş şərif) sevindirməli və bununla da Onun (əccələllahu fərəcəhuş şərif) könlündə yer tapmalıyıq. Allah bu gözəl sifəti bizə nəsib etsin!

İmam Baqir (ələyhis-səlam) buyurub: Qüvvətliləriniz zəiflərinizə kömək etməli, zənginləriniz fəqirlərinizə qarşı mehriban olmalı və hər bir kişi özünə etdiyi nəsihəti digər qardaşlarına da etməlidir.

*Başarətul-Mustəfa səh.113, Əl-Əmali, səh.231, Biharul-Ənvar c.75, səh.182*







# Həzrəti Məhdi (əccələllahu fərəcəhuş şərif) Quranda



### Ənam 158

**Yoxsa onlar ancaq ya mələklərin, ya Rəbbinin və yaxud da Rəbbinin bəzi əlamətlərinin gəlməsini gözləyirlər? Rəbbinin bəzi əlamətləri gələcəyi gün əvvəlcə iman gətirməmiş və ya imanında bir xeyir qazanmamış kimsəyə iman gətirməsi fayda verməyəcəkdir. De: "Gözləyin, şübhəsiz ki, Biz də gözləyirik".**

Əli ibni Rubab İmam Sadiqdən (ələyhis-səlam) nəql edir ki, Həzrət (ələyhis-səlam) bu şərif ayə barəsində buyurdu: Burada əlamətdən (nişanədən) məqsəd Həzrəti Qaimdir (əccələllahu fərəcəhuş şərif). Sonra buyurdu: Həzrəti Qaimin (əccələllahu fərəcəhuş şərif) zühuru və qiyamı zamanında, əvvəlcədən iman gətirməyən şəxslərin iman gətirməsinin faydası yoxdur. Hər nə qədər ki, Ondan əvvəlki imamlara iman gətirmiş olsunlar.

Yenə buyurdu: Bizim Qaimin (əccələllahu fərəcəhuş şərif) dostlarının xoş halına ki, qeyb zamanında O Həzrətin zühurunun intizarındadırlar və zühur zamanında Həzrətə (əccələllahu fərəcəhuş şərif) itaət halındadırlar, onlar Allahın övliya və dostlarıdırlar. Onlara qorxu yoxdur, heç vaxt (məhzun) hüzünlü və kədərli olmurlar.

*Kəmaluddin c.1, səh.18, 30, İsbatul-Huda, c.5, səh.91, Burhan təfsiri, c.2, səh.501, (oxşar hədis-başqa istinadla) Biharul-Ənvar c.52, səh.149, c.64, səh.33*

## Cin 24

**Onlar özlərinə vəd olunmuş (əzabı) gördükləri zaman kimin köməkçisinin daha zəif və sayca daha az olduğunu biləcəklər.**

İmam Kazim (ələyhis-səlam) bu ayə barəsində buyurur: "vəd olunmuş"dan məqsəd Həzrəti Qaim (əccələllahu fərəcəhuş şərif) və Onun köməkçiləridir.

*Usuli Kafi (əl-İslamiyə) c.1, səh. 434, Təvile ayati zahirə, səh.706, Burhan təfsiri, c.5, səh.508, Biharul-Ənvar, c.51, səh.49*

## İsra 81

**De: Haqq gəldi, batil yox oldu. Şübhəsiz ki, batil yox olmağa məhkumdur.**

İmam Baqir (ələyhis-səlam) buyurub: Qaimin qiyamı ilə batil dövlətlərin məhv olmasıdır.

*İsbatul-Huda c.5, səh.64, Biharul-Ənavr c.51, səh.62, Burhan təfsiri c.3, səh.576, Üsuli-Kafi (əl-İslamiyyə) c.8, səh.287*

## Hədid 17

**Bilin ki, Allah yeri (torpağı) onun ölümündən sonra dirildir. Biz ayələri sizə izah etdik ki, bəlkə anlayasınız.**

İmam Sadiq (ələyhis-səlam) (həmçinin İmam Baqir (ələyhis-səlam)) buyurub: Allah Həzrəti Məhdinin (əccələllahu fərəcəhuş şərif) zühuru zamanında yer üzünü Onun ədaləti vasitəsilə dirildəcəkdir, necə ki, zalım rəhbərlərin zülmü il ölmüşdür.

*Şeyx Numani, "Qeyb dövrü", səh.25, Kəmaluddin c.2, səh.668, Biharul-Ənvar c.51, səh.54*







## Mülk 30

**De: "Deyin görüm, əgər suyunuz çəkilsə, (Allahdan başqa) kim sizə axar su gətirə bilər?"**

Əbu Bəsir İmam Baqirdən (ələyhis-səlam) belə nəql edib ki, O Həzrət **"De: Deyin görüm, əgər suyunuz (yerin dibinə ) çöksə, (Allahdan başqa) kim sizə axar su gətirə bilər?"** ayəsinin təfsiri barədə belə buyurdu: Bu ayə İmam (Qaim) barədə nazil olmuşdur. Buyurdu: İmamınız sizdən qeybdə olarsa və onun harada olduğunu bilməsəniz, kim sizə səmadan və yerdən , Allah-taalanın halal və haramından xəbər verən aşkar İmam gətirə bilər?! Sonra dedi: "Allaha and olsun bu ayənin təvili (həqiqi yozumu) hələ gəlməyib. Ancaq onun təvilinin gəlməsi qaçılmazdır."

*Şeyx Tusi, Qeyb dövrü, səh.158*

Muhəmməd ibn Əmmar atası Əmmardan belə rəvayət edib: Allahın Rəsulu (səlləllahu ələyhi və alih) buyurdu: Allah-taala onun (İmam Əlinin (ələyhis-səlam) -hədisin əvvəli var) sülbündən raşidin imamlar çıxaracaq ki, bu ümmətin Məhdisi onlardandır". Ona dedim: "Atam-anam sənə fəda, bu Məhdi kimdir?" Buyurdu: "Ey Əmmar, Allah-taala mənə belə əhd etmişdir ki, Hüseynin sülbündən doqquz nəfər çıxaracaq və doqquzuncu övladı onlardan (camaatdan) qeybə çəkiləcəkdir. Bu isə Allah-taalanın kəlamıdır ki, buyurub: **"Deyin görüm, əgər suyunuz çöksə, (Allahdan başqa) kim sizə axar su gətirə bilər? "** . Onun uzun bir qeyb dövrü olacaq ki, bir dəstə ondan geri dönəcək (üz döndərəcək), başqa bir dəstə isə sabitqədəm qalacaqdır. Axirəzzəman olduqda çıxıb (zühur edərək) yer üzünü haqq-ədalətlə dolduracaq, mən tənzil əsasında vuruşduğum kimi o da təvil əsasında döyüşəcək. O mənim adaşım və camaat içərisində mənə daha çox bənzəyəndir.

*Kifayətül-Əsər səh.120-121*

## Bəqərə 148

**Harada olursunuz olun, Allah sizin hamınızı bir yerə toplayacaqdır.**

Müfəzzəl ibn Ömər belə rəvyət edir: Əbu Əbdullah İmam Sadiq (əleyhis-səlam) buyurdu: İmama (Qaimə) izin verildiyi zaman Allahı, Onun ibranicə olan adı ilə çağıracaq. Bundan sonra üç yüz on üç nəfər səhabəsi Onun üçün payız buludları kimi hazır ediləcəklər. Onlar bayraqlar sahibləridir. Onların arasında elələri olacaq ki, gecə ikən yataqlarında yoxa çıxıb, səhəri Məkkədə açacaqlar. Elələri də olacaq ki, gündüz vaxtı buludlarda yol getdikləri görüləcək. Onlar adları, atalarının adları, xüsusiyyətləri və nəsəbləri ilə tanınacaqlar. Mən soruşdum: Sizə fəda olum, onlardan hansı biri imanda ən yüksəkdir? İmam (əleyhis-səlam) buyurdu: Gündüz vaxtı buludda yol gedənlər-onlar itənlərdir (o zamanlarında qeybə çəkilənlər ola bilər). Bu ayə onların barəsində nazil olmuşdur: **“Harada olursunuz olun, Allah sizin hamınızı bir yerə toplayacaqdır.”**

*Şeyx Numani, Qeyb dövrü, səh.313 (Bakı çapı səh.300) Biharul-ənvar c.52, səh.368*



Oxşar hədis; İmam Səccad (əleyhis-səlam) buyurmuşdur: ...Onlar Qaimin (əccələllahu fərəcəhuş şərif) səhabələridir.

*Şeyx Numani, Qeyb dövrü, səh.313 (Bakı çapı səh.301), İsabtul-Huda c.5, səh.108, Biharul ənvar c.52, səh.369*

Başqa bir hədis; Əbu Bəsir nəql edir; Əbu Əbdullah İmam Sadiq (əleyhis-səlam) bu ayə haqqında belə buyurdu: Qaim və əshabı barədə nazil olub. Onlar əvvəlcədən vədələşmədikləri halda bir araya toplanacaqlar.

*Şeyx Numani, Qeyb dövrü səh.241 (Bakı çapı səh.228) Biharul-Ənvar c.51, səh.58*



Yaşayan və gizli İmam (Canlı Höccət)

## Nəhl 1

**Allahın əmri gələcəkdir. Buna görə də onda tələsməyin (tələm-tələsik vaxtından əvvəl istəməyin)**

Əbdürrəhman ibn Kəsir belə ravayət edir: Əbu Əbdullah İmam Sadiq (əleyhis-səlam) Allah-taalanın buyurduğu: **“Allahın əmri gələcəkdir (gəlib çatdı), buna görə də onda tələsməyin”** ayəsi haqqında belə buyurdu: (Ayədə buyurulan Allahın əmri) bizim işimizdir. Allah-taala onun barəsində tələskənlik etməməyimiz əmr etmişdir. Allah Onu (Qaimi) üç qoşunla gücləndirəcək: mələklərlə, möminlərlə və qorxu ilə. Onun xürucu (çıxışı) Allah Rəsulunun (səlləllahu ələyhi və alih) xürucu kimidir. Allah-taala bu haqda belə buyurur: **Necə ki, möminlərdən bir dəstə narazı olduqları halda Rəbbim səni evindən haqq və doğru olaraq (Bədrə sarı) çıxarmışdı** (Ənfal 5).

*Şeyx Numani, Qeyb dövrü səh.198, 243 (Bakı çapı səh 185, 230) , Biharul-Ənvar c.52, səh.356, İsbatul-Huda c.5, səh.188*

Əban ibn Təğlib İmam Sadiqin (əleyhis-səlam) belə buyurduğunu nəql etmişdir: “Qaimə beyət edəcək birinci şəxs Cəbraildir ki, ağ bir quş surətində gələcəkdir. Ona beyət edəcək, sonra isə ayağının birini Beytüllahil-hərama, o birisini isə Beytül Müqəddəsə qoyacaqdır. Sonra uca bir səslə elə nida çəkəcəkdir ki, bütün məxluqat eşidəcəkdir: **“Allahın əmri gələcəkdir (gəlib çatdı), buna görə də onda tələskənlik etməyin!”**( Nəhl 1).

*Kəmaluddin, c.2, səh.671, İsbatul-Huda, c.5, səh.202, Biharul-Ənvar c.52, səh.285-286*



## Ənbiya 105

**Biz Zikrdən (Lövhi-məhfuzdakı yazıdan) sonra (nazil etdiyimiz ) kitablarda da yazmışdıq ki, yer üzünə Mə¬¬nim saleh bəndələrim varis olacaqlar.**

İmam Baqir (ələyhis-səlam) buyurub: "yer üzünə Mənim saleh bəndələrim varis olacaqlar"dan məqsəd İmam Məhdi (əccələllahu fərəcəhuş şərif) və Onun köməkçiləridir."

*Qummi təfsiri, c.2, səh.77, Safi təfsiri, c.3, səh.357, İsbatul-Huda, c.5, səh.146, Biahrul-Ənvar, c.51, səh.47*

## Nur 55

**Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri varislər etdiyi kimi onları da yer üzünün varisləri edəcək, möminlər üçün onların Özünün bəyəndiyi dinini möhkəmləndirəcək və onların qorxusunu sonra arxayınçılıqla əvəz edəcəkdir. Onlar Mənə ibadət edir və heç nəyi Mənə şərik qoşmurlar. Bundan sonra küfr edənlər – məhz onlar fasiqlərdir.**

İmam Sadiq (ələyhis-səlam) buyurub: Bu ayə, Qaim və əshabları haqqında nazil olmuşdur.

*Şexy Numani, Qeyb dövrü, səh.240, Biharul-Ənvar c.51, səh.58*

## Ənam 44

**Onlar özlərinə edilmiş xəbərdarlığı unutduqları zaman hər şeyin qapılarını onların üzünə açdıq. Özlərinə verilən şeylərə sevindikləri vaxt isə onları qəflətən yaxaladıq və onlar naümid qaldılar.**

Əbi Həmzə İmam Baqirdən (ələyhis-səlam) nəql edir: Həzrət "onları qəflətən yaxaladıq və onlar naümid qaldılar" ayəsi haqqında belə buyurdu: "Yəni, Qaimin qiyamı".

*Qummi təfsiri, c.1, səh.200, Burhan Təfsiri, c.2, səh.419, Safi təfsiri, c.2, səh.121*







## Fussilət 53

**Üfüqlərdə (kaintda) və onların öz vücudlarında nişanələrimizi onlara göstərəcəyik ki, onlara Onun haqq olması aydın olsun.**

Əbu Bəsir belə rəvayət edir: Əbu Cəfər İmam Baqirdən (ələyhis-səlam) Allah-taalanın buyurduğu **"Üfüqlərdə (kaintda) və onların öz vücudlarında nişanələrimizi onlara göstərəcəyik ki, onlara Onun haqq olması aydın olsun"** sözü barəsində soruşuldu: (Yəni) onlara özlərində (daxillərində) və üfüqlərdə göstərəcək. **"Onlara Onun haqq olması aydın olsun"** sözü ilə isə Qaimin zühuru nəzərdə tutulur. O, Allah-taala tərəfindən olan haqdır və şübhəsiz, bütün insanlar onu görəcəklər.

*Şeyx Numani, Qeyb dövrü səh.269 (Bakı çapı səh.255), İsbatul-Huda, c.5, səh.366-367, Burhan təfsiri, c.4, səh.794)*

Oxşar hədis başqa istinadla İmam Sadiqdən (ələyhis-səlam) də nəql olunub.

*İsabatul-Huda, c.5, səh.191, Burhan təfsiri, c.4, səh.795*

## Nəml 62

**Darda qalan kimsə dua etdiyi zaman ona cavab verən, şəri sovuşduran və sizi yer üzünün varisləri edən kimdir?**

Muhəmməd ibn Müslim belə rəvayət edir: Əbu Cəfər İmam Baqir (ələyhis-səlam) Allah-taalanın,"**Darda qalan kimsə dua etdiyi zaman ona cavab verən"**, ayəsi haqqında belə buyurdu: Qaimin barəsində nazil olmuşdur. Cəbrail (ələyhis-səlam) (Kəbənin) navalçası üzərində ağ rəngli bir quş şəklində duracaq. Allahın yaratdıqlarının arasında ona beyət edən ilk varlıq O (Cəbrail) olacaq. Bundan sonra üç yüz on üç nəfər adam ona beyət edəcək. (Həmin vaxt) kim yolda olsa, o anda çatacaq, yolda olmayanlar isə yataqlarından itəcəklər (bir anda Kəbədə olacaqlar). Bu, Əmirəlmöminin Əlinin (ələyhis-səlam) buyurduğu həmin sözdür: "**Xeyir işlərdə bir-birinizlə yarışın. Harada olursunuz olun, Allah sizin hamınızı bir yerə toplayacaqdır."** (Bəqərə 148). "Xeyir işlər" biz-Əhli-Beytin (ələyhis-səlam) vilayətidir.

*Şeyx Numanı Qeyb dövrü, səh.314 , başqa istinadla - Biharul ənvar c.52, səh.368*

## Həcc 39

**Zülmə məruz qaldıqlarına görə vuruşanlara izin verilmişdir. Allah onlara kömək etməyə, əlbəttə, qadirdir!**

Əbu Bəsir belə rəvayət edir: Əbu Əbdullah İmam Sadiq (əleyhis-səlam) Allah-taalanın **Zülmə məruz qaldıqlarına görə vuruşanlara izin verilmişdir. Allah onlara kömək etməyə, əlbəttə, qadirdir!** ayəsi haqqında belə buyurdu: Ayə Qaim (əccələllahu fərəcəhuş şərif) və Onun əsahbı barədədir.

*Şeyx Numani, Qeyb dövrü səh.241 (Bakı çapı səh.228), Biharul-Ənvar c.51, səh.58, başqa istinadla İmam Baqirdən (ə) də nəql olunub-İsbatul-Huda, c.5, səh.189*

## Loğman 20

**Özünün aşkar və gizli nemətlərini sizə bol-bol verdi.**

Məhəmməd ibn Ziyad Əzdi deyib: "Ağam Musa ibn Cəfərdən (əleyhis-səlam) Allah-taalanın **"Özünün aşkar və gizli nemətlərini sizə bol-bol verdi"** kəlamı haqqında soruşdum. Buyurdu: "Aşkar nemət aşkar imamdır, gizli nemət isə gizli imamdır". Dedim: "İmamların arasında qeybə çəkilən birisi varmı?" Buyurdu: "Bəli, onun şəxsiyəti (və kimliyi) camaatın gözündən gizli olacaq. Lakin xatirəsi möminlərin qəlbindən qeybə çəkilməyəcək. O, bizdən olan on ikincidir. Allah onun üçün hər bir çətinliyi asanlaşdırar, hər bir sıxıntını aradan qaldırar, yer üzünün xəzinələrini onun üçün aşkar, hər bir uzaqlığı ona yaxın edər, onun vasitəsilə hər bir inadkar dikbaşı məhv və əliylə hər bir asi şeytanı həlak edər. O, kənizlərin xanımının oğludur. O kəsdir ki, onun doğuluşu camaatdan gizlədilər və adını çəkməyi Allah-taala onu ortaya çıxarıb yer üzünü zülm və haqsızlıqla dolduğu kimi haqq-ədalətlə doldurduğu vaxta qədər onlara halal olmaz".

*Kifaytül-Əsər, səh.270 (Bakı çapı, səh.181), Kəmaluddin, c.2, səh.368, İsbatul-Huda, c.2. səh.93, Burhan təfsiri, c.4 səh.376, Biharul-Ənvar c.51, səh.150*





## Ali-İmran 83

**Halbuki, göylərdə və yerdə olan hər bir kəs istər-istəməz Onun qarşısında təslimdir. Hamı Ona tərəf qaytarılacaq.**

Rifaə ibn Musadan nəql olunur ki, İmam Sadiq (əleyhis-səlam) buyurub: **"Halbuki, göylərdə və yerdə olan hər bir kəs istər-istəməz Onun qarşısında təslimdir"** ayəsi barəsində dedi: Qaim qiyam etdiyi zaman yerdə, La ilahə illəllah və Muhəmmədən Rasulullah kəlməsinə çağrılmayan heç kəs qalmaz.

*İsbatul-Huda c.5, səh.172, Burhan təfsiri, c.1, səh.650, Əyyaşinin təfsiri c.1, səh.183, Biharul-Ənvar c.52, səh.340*

İbn Bukeyrdən rəvayət olunur: İmam Rzadan (əleyhis-səlam) bu ayə barəsində soruşdum: **"Halbuki, göylərdə və yerdə olan hər bir kəs istər-istəməz Onun qarşısında təslimdir".** İmam Rza (əleyhis-səlam) buyurudu: Qaimin haqqında nazil olmuşdur. Elə ki, yerin şərqindən və qərbindən, yəhudilər, nəsranilər, sabiilər, zındıqlar, inkar əhli və kafirlər çıxdığı zaman (Qaim) onlara deyər. Kim istəyərək (xoşluqla) Allahın əmrinə təslim olsa, namaz qılsa, oruc tutsa və müsəlmanlara vacib olan şeylərdə Onun əmrinə tabe olsalar-olub. (Amma) kim bunlara təslim olmasa Allah, Qaimə yerin şərqində və qərbində Tövhid əhli olmayana qədər hər bir kəsin boyunlarının vurmasını əmr edər.

*İsbatul-Huda c.5, səh.172, Burhan təfsiri, c.1, səh.650, Əyyaşinin təfsiri c.1, səh.183, Biharul-Ənvar c.52, səh.340*

## Səcdə 21

**Əlbəttə, onlara böyük əzabdan əvvəl dünya əzabını da daddıracağıq. Ola bilsin ki, onlar (haqq yola) qayıdarlar.**

İmam Sadiq (əleyhis-səlam) buyurub: Böyük əzab (qılıncla qiyamı olan) Məhdidir (başqa hədislərdə Qiyamət haqqında da deyilb)

*İsbatul-Huda, c.5, səh.190, Burhan təfsir c.4, səh.401, Biharul-Ənvar c.51, səh.59*

Yaşayan və gizli İmam (Canlı Höccət)



## Şüəra 4

***Biz istəsək, göydən onlara elə bir əlamət endirərik ki, onun önündə başları itaətkarlıqla əyilər.***

Fuzeyl ibn Muhəmməd belə rəvayət edir: Əbu Əbdullah İmam Sadiq (əleyhis-səlam) buyurdu: Səmada Qaimin adı ilə səslənən nida Allahın kitabında bəyan edilmişdir. Mən soruşdum: Allah işinizi yoluna qoy-sun, hardadır O?. İmam (ə) buyurdu: Ta, Sin, Mim surəsindəki bu ayədə; **"Biz istəsək, göydən onlara elə bir əlamət endirərik ki, onun önündə başları itaətkarlıqla əyilər".** Onlar səsi eşitdiklri zaman elə bir vəziyyətə düşəcəklər ki, sanki başlarında quş oturub (mütərcim; yəni heyrətdən donub qalacaqlar- quş hürküb uçmasın deyə başında quş olan adamın o həddə hərəkətsiz vəziyyətdə qalması kimi).

*Şeyx Numani, Qeyb dövrü səh.263 (Bakı çapı səh.249)*

## Bəqərə 2-3

***Bu, qətiyyən şübhə doğurmayan, müttəqilərə doğru yol göstərən bir Kitabdır.***

***O kəslər ki, qeybə iman gətirir, namaz qılır və Bizim onlara verdiyimiz ruzidən (Allah yolunda) xərcləyirlər***

Davud ibn Kəsir Rəqqi İmam Sadiqin (əleyhis-səlam) Allah-taalanın "O kəslər ki, qeybə inanarlar" kəlamı barədə belə buyurduğunu nəql etmişdir: "(Yəni) kim Qaimin qiyamının haqq olduğunu qəbul edərsə".

*Kəmaluddin c.2 səh.340, Biharul-Ənvar c.51, səh.52, İsbatul-Huda c.5, səh.72*

Yəhya ibn Əbülqasim deyib: "İmam Sadiqdən (əleyhis-səlam) Allah-taalanın "Əlif lam mim. Bu, heç bir şəkk-şübhə olmayan, müttəqilərə doğru yol göstərən Kitabdır. O kəslər ki, qeybə inanarlar" kəlamı barədə soruşdum". Buyurdu: "Müttəqilər (İmam) Əlinin (əleyhis-səlam) şiələri, qeyb isə qeybə çəkilən höccətdir".

*Kəmaluddin c.2 səh.340, Biharul-Ənvar c.51, səh.52, İsbatul-Huda c.5, səh.72*

## Bəqərə 155

***Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbr edənlərə müjdə ver.***

Əbu Bəsir deyir: İmam Sadiq (əleyhis-səlam) buyurdu: Qaim (əleyhis-səlam) gəlməmişdən əvvəl bir il olar ki, insanların o ildə aclıqla üzləşməsi, qətl və qırğından şiddətli qorxu, mal, can və məhsul itkisi (mal və ömrlərin azalması) qaçılmazdır. Bu Allahın Kitabında çox aşkardır. Sonra bu ayəni oxudu: ***"Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbr edənlərə müjdə ver."***

*Biharul ənvar c.52, səh.228-229, Şeyx Numani Qeyb dövrü səh.250, İsbatul Huda c.5, səh 363, Burhan təfsiri c.1, səh.359*





بِسْمِ اللَّهِ الرَّحْمَنِ الرَّحِيمِ

## Ənfal 39

***Fitnə aradan qalxana qədər və din tamamilə yalnız Allaha həsr edilənədək onlarla vuruşun! Əgər (şirkə) son qoysalar, (bilsinlər ki,) Allah onların etdiklərini görür.***

İmam Baqir (ələyhis-səlam) bu ayənin təfsirində belə buyurur: “Bu ayənin təvili (icrası) hələ gəlməmişdir. Belə ki, Allahın Rəsulu özünün və səhabələrinin ehtiyaclarına (hacətlərinə) görə möhlət verildi. Ayənin təvil olunduğu gün bu möhlət qəbul olunmayacaqdır. Əksinə, Allahın birliyinə (vəhdaniyyət) və heç bir şirk qalmayana qədər öldürüləcəklər.”

*Əyyaşinin təfsiri, c.2, səh.56, Burhan təfsiri, c.2, səh.686, Biharul-Ənvar c.51, səh.55, Üsuli-Kafi (əl-İslamiyyə) c.8, səh.201*

## Yunus 20

***Onlar deyirlər: “Niyə ona Rəbbindən bir nişanə (əlamət) endirilməyib?” De: “Qeyb ancaq Allaha aiddir. Gözləyin, şübhəsiz ki, mən də sizinlə birlikdə gözləyənlərdənəm”.***

İmam Sadiq (ələyhis-səlam) buyurub: “Bu ayədə Qeyb, Höccətul Qaibdir.

*Biharul-Ənvar c.51, səh.52*

Həmçinin İmam Rza (ələyhis-səlam) bu ayə üçün buyurub: Fərəcin intizarı və səbr necə də gözəldir.

*Burhan təfsiri, c.3, səh.21, Nursəqəleyn təfsiri, c.2, səh.297*





## Hud 8

***Əgər onlara gələcək əzabı müəyyən vaxtadək (müəyyən bir ümmət gələnədək) gecikdirsək: “Onu saxlayan nədir?”– deyəcəklər. Xəbəriniz olsun ki, (əzab) onlara gəldiyi gün onu heç nə onlardan dəf edə bilməyəcək və istehza etdikləri (o əzab) onları bürüyəcəkdir.***

İmam Sadiq (ələyhis-səlam) buyurub: Əzab, Qaimin (ələyhis-səlam) çıxması, müəyyən vaxtadək (müəyyən bir ümmət) bədr əhli və Onun (Həzrəti Məhdinin (ələyhis-səlam) əshabındandırlar.

*Şeyx Numani Qeyb dövrü, səh.241, Burhan təfsiri c.3, səh.82, Biharul-Ənvar c.51, səh.58)=*

## Hud 86

***Əgər möminsinizsə, Allahın saxladığı sizin üçün daha xeyirlidir. Mən sizin üstünüzdə gözətçi deyiləm.***

İmam Baqir (ələyhis-səlam) buyurdu: (İmam Məhdi (ələyhis-səlam)) zühur edən vaxt Kəbənin divarına söykənib, dilinə gətirdiyi ilk söz bu ayədir, sonra buyurdu:

“Mən yer üzərində Bəqiyətullaham (Allahın (sona) saxladığı) və sizin üzərinizdə Onun xəlifəsi və Höccətiyəm.” Belə ki, hər kəs ona salam vermək istəsə belə desin: “Salam olsun Sənə ey Allahın yer üzərindəki sona saxladığı.”

*Kəmaluddin c.1, səh.331*

## Məaric 26

***O kəslər ki, din gününü təsdiq edərlər.***

İmam Baqir (ələyhis-səlam) buyurub: Qaimin xürucu barəsindədir.

*İsbatul-Huda c.5, səh.64, Biharul-Ənavr c.51, səh.62, Üsuli-Kafi (əl-İslamiyyə) c.8, səh.287, Burhan təfsiri c.5, səh.491*

## Hicr 36-38

***(İblis) dedi: Ey Rəbbim! elə isə dirildiləcəkləri günə qədər mənə möhlət ver! (Allah) dedi: Sən möhlət verilənlərdənsən; Ancaq məlum vaxta qədər.***

Vəhb ibn Cuməy deyir: İmam Sadiqdən (əleyhis-səlam) ***"(İblis) dedi: Ey Rəbbim! elə isə dirildiləcəkləri günə qədər mənə möhlət ver! (Allah) dedi: Sən möhlət verilənlərdənsən; Ancaq məlum vaxta qədər"*** ayəsində İblisin sözü barəsində soruşdum: Sizə fəda olum bu hansı gündür? İmam (əleyhis-səlam) buyurdu: Ey Vəhb, bunun insanların dirildiləcəyi gün olduğunu hesab edirsən? Allah-taala ona Qaimimizi (əccələlahu fərəchuş şərif) göndərən vaxtadək möhlət vermişdir. Allah-taala Onu göndərdikdə, Kufə məscidində ikən İblis Onun yanına gələcək, qarşısında diz çöküb deyəcək: Vay olsun bu günə! Qaim (əccələllahu fərəchuş şərif) onun kəkilindən yapışıb boynunu vuracaq. Məlum olan vaxt həmin gündür.

*Əyyaşinin təfsiri c.2, səh.232, Burhan təfsiri c.3, səh.366, Biharul-Ənvar c.60, səh.254, İsbatul-Huda c.5, səh.175*



## Ləyl 1-2

***And olsun bürüməkdə olan gecəyə! And olsun aydınlaşan gündüzə!***

İmam Sadiq (əleyhis-səlam) buyurub: "aydınlaşan gündüz"-yəni Qaim (Qaimin qiyamı)

*İsbatul-Huda c.5, səh.193*

İmam Sadiq (əleyhis-səlam) buyurub: "bürüməkdə olan gecə" Qaimin qiyamına qədər olan İblisin dövləti, "aydınlaşan gündüz" Qaimin qiyamıdır.

*Kənzul Dəqaiq c.14, səh.311, Burhan təfsiri c.5, səh.679, Biharul-Ənvar c.24, səh.398*



## İsra 33

***Allahın, (öldürülməsini) haram buyurduğu şəxsi haqsız yerə öldürməyin. Kim haqsız yerə öldürülmüşsə, artıq onun varisinə ixtiyar vermişik. Lakin o da qisas aldıqda israf etməyəcək. Çünki ona artıq kömək olunmuşdur.***

İmam Sadiq (əleyhis-səlam) buyurur: Bu ayədə "məzlum"dan məqsəd Həzrət İmam Hüseyndir (əleyhis-səlam), "onun varisinə ixtiyar vermişik"dən məqsəd İmam Məhdidir (əleyhis-səlam).

*Burhan təfsiri,c.3, səh.528, oxşar hədislər-Kamilu-Ziyarat, səh.63, Biharul-Ənvar c.45, səh.298*

## Həcc 41

***Onlar o kəslərdir ki, əgər onlara yer üzündə hakimiyyət versək, namaz qılar, zəkat verər, yaxşılığı əmr edər və pislikdən çəkindirərlər. Bütün işlərin sonu Allaha aiddir.***

İmam Baqir (əleyhis-səlam) buyurub: Bu ayə (Həcc 41) Ali Muhəmmədin şənində nazil olmuşdur. Allah Həzrəti Məhdi və Onun əshabını şərqdən qərəbə qədər (hər yerdə) hakim edəcəkdir və dinini aşkara çıxaracaqdır. Axmaqlar haqqı məhv etdikləri kimi, O və əshabı da bidəti və batili məhv edəcəkdir, hətta o həddə qədər ki, zülmdən heç bir əsər qalmayacaqdır.

*Qummi təfsiri c.2, səh.87, Burhan təfsiri c.3, səh.893, Biharul-Ənvar c.51, səh.47*

## Şüəra 21

***Mən sizdən qorxduğum üçün yanınızdan qaçıb getdim. Amma sonradan Rəbbim mənə hökmranlıq verdi və məni elçilərdən etdi.***

Müfəzzəl ibn Ömər Əbu Əbdullah İmam Sadiqdən (ələyhis-səlam) belə nəql edir: Bu işin sahibinin bir qeybə çəkilməsi olacaq ki, bu zaman o, belə deyəcək: Sizdən qorxduğum üçün (zaman) qaçdım, sonra Rəbbim mənə hökmranlıq verdi və məni elçilərdən etdi.

*Şeyx Numani Qeyb dövrü səh.174, İsbatul-Huda, c.5, səh. 157, Biharul-Ənvar c.52, səh.292*

Müfəzzəl ibn Ömər Əbu Əbdullah İmam Sadiqdən (ələyhis-səlam) belə nəql edir: Qaim (ələyhis-səlam) qiyam edən zaman belə deyəcək: Sizdən qorxduğum üçün (zaman) qaçdım, sonra Rəbbim mənə hökmranlıq verdi və məni elçilərdən etdi.

*Şeyx Numani Qeyb dövrü səh.174, İsbatul-Huda, c.5, səh.188, Burhan təfsiri, c.4, səh.173 Biharul-Ənvar c.52, səh.292*

## Saff 13

***Sevdiyiniz başqa bir şey də-Allah tərəfindən kömək və yaxın qələbədir. Möminləri müjdələ!***

İmam Baqir (ələyhis-səlam) buyurub: Bu ayədən məna yeni-dünyada Qaimin fəthi və həmçinin Məkkənin fəthi deməkdir.

*Qummi təfsiri c.2, səh.366, Burhan təfsiri, c.5, səh.368, Biharul-Ənvar c.51, səh.49*





## Qəsəs 5-6

***Biz istədik ki, yerdə aciz qalanlara (zəif olanlara) mərhəmət göstərək, onları öndə gedənlər və varislər edək. Yer üzündə onlara hökmranlıq bəxş edək, Firona, Hamana və onların əsgərlərinə qorxub çəkindikləri şeyi göstərək.***

İmam Cavadın (ələyhis-səlam) qızı Həkimə xatun deyir: (İmam Zamanın (ələyhis-səlam) doğumunun yeddinci günü idi) İmam Həsən Əskəri (ələyhis-səlam) dedi: Oğlum bir söz de: İmam Zaman (ələyhis-səlam) dedi: "Əşhədu ənla ilahə illəllah", sonra Peyğəmbərə (səlləllahu ələyhi və alihi), Əmirəl-mömininə (ələyhis-səlam) və İmamlara (ələyhimus-səlam) və atasına salam və salavat dedi: Sonra Qəsəs surəsi ayə 5 və 6-nı oxudu***: "Biz istədik ki, yerdə aciz qalanlara (zəif olanlara) mərhəmət göstərək, onları öndə gedənlər və varislər edək. Yer üzündə onlara hökmranlıq bəxş edək, Firona, Hamana və onların əsgərlərinə qorxub çəkindikləri şeyi göstərək."***

*Biharul-Ənvar c.51,səh.2-3, Kəşfül-Ğümmə (əl-qədimə), c.2, səh.498*

## Tövbə 33

***Müşriklərin xoşuna gəlməsə də, İslamı bütün dinlərdən üstün etmək üçün Öz Elçisini doğru yol göstərən rəhbərlə və haqq din ilə göndərən Odur.***

Əbu Bəsir deyir: İmam Sadiqdən (ələyhis-səlam) bu ayə barəsində soruşdum, buyurdu: "Allaha and olsun bu ayənin təvili (icrası) hələ gəlməmişdir. Qaimin (ələyhis-səlam) çıxmasına (zühuruna) kimi də bunun təvili gəlməyəcəkdir. Qaim (ələyhis-səlam) çıxan vaxt (zühur zamanı) Allaha kafir olan və İmamın yanında müşrik (Allaha şərik qoşan) qalmayacaqdır. Əgər qalsa belə Onun çıxmasına (zühuruna) ikrahları vardır; Hətta əgər kafir və ya müşrik daş içində gizlənmiş olsa belə, o daş deyər: ! Ey mömin mənim içimdə kafir var, məni parçalayın və onu öldürün.

*Kəmaluddin, c.2, səh.670, Biharul-Ənvar c.51, səh.60*



## Rum 4-5

***O gün möminlər sevinəcəklər; Allahın köməyi ilə!***

Yunus ibn Yəqub deyir: İmam Sadiq (əleyhis-səlam) Allah-taalanın Qurani-Kərimdə buyurduğu, ***O gün möminlər sevinəcəklər; Allahın köməyi ilə!*** (Rum 4-5) ayəsini tilavət etdi və belə buyurdu: Qaimin (əccələllahu fərəcəhuş şərif) zühuru ilə qəbirlərində sevinəcəklər.

*Dəlailul-İmamə (əl-hədis) səh.465, Burhan təfsiri c.4, səh.335, İsbatul-Huda c.5, səh.201*

## Zariyat 23

***Göyün və yerin Rəbbinə and olsun ki, bu sizin danışmağa qüdrətiniz olduğu kimi həqiqətdir.***

Həzrət İmam Səccad (əleyhis-səlam) bu şərif ayə haqqında buyurub: Bu ayədən məqsəd Qaimin (əleyhis-səlam) qiyamıdır.

*Şeyx Tusi Qeyb dövrü səh.176-177, İsbatul-Huda c.5 səh.120, Biharul-Ənvar c.51, səh.53-54*

## Əsr 1-2

***And olsun əsrə (axşam çağına!). Həqiqətən, insan ziyan içərisindədir.***

İmam Sadiq (əleyhis-səlam) bu ayə barəsində buyurur: "Əsr"dən məqsəd Qaimin (əleyhis-səlam) çıxmasıdır. "Həqiqətən, insan ziyan içərisindədir"dən məqsəd isə düşmənlərimiz ziyan içərisindədirlər.

*Kəmaluddin, c.2, səh.656, İsbatul-Huda, c.5, səh.109, Biharul-Ənvar, c.24, səh.214*





## Qədr 5

***O gecə dan yeri ağarana (sübh açılana) qədər salamatlıqdır (əmin-amanlıqdır).***

İmam Sadiq (əleyhis-səlam) buyurub: "o gecə dan yeri ağarana qədər" yəni Qaimin qiyamı.

*Burhan təfsiri c.5, səh.714, Biharul-Ənvar c.25, səh.97*

Həmçinin başqa mənbə ilə İmam Sadiq (əleyhis-salam) buyurub:
Bu ayədə o gecə dan yeri ağarana qədər" yəni Qaimin xürucu

*Furat əl-Kufi təfsiri səh.581, Biharul-Ənvar c.43, səh.65*



## İsra 5

***Onlardan birincisinin vaxtı gəldiyi zaman üstünüzə çox güclü qullarımızı göndərdik. Onlar yurdunuzda gəzib dolaşıb (sizi) axtarırdılar. Bu, yerinə yetirilmiş bir vəd idi.***

Humran belə rəvayət edir: İmam Baqir (əleyhis-səlam) Allah-taalanın "Onlardan birincisinin vaxtı gəldiyi zaman üstünüzə çox güclü qullarımızı göndərdik" ayəsini oxuduqdan sonra belə buyurdu: "çox güclü olanlar" Qaim və Onun əshabıdır.

*Əyyaşi Təfsiri c.2, səh.281, Burhan Təfsiri c.3, səh.505, Biharul-Ənvar c.51, səh.57*

## Saff 8-9

***Onlar ağızları (sözləri) ilə Allahın nurunu söndürmək istəyirlər. Halbuki kafirlərin xoşuna gəlməsə də, Allah Öz nurunu tamamlayacaqdır.***

İmam Museyi Kazim (ələyhis-səlam) buyurub: Bu ayədə "Allah Öz nurunu tamamlayacaq"-Qaimin vilayəti ilə, "kafirlərin xoşuna gəlməsə də"- Əlinin vilayəti (Əmirəlmömin Əlinin (ələyhis-səlam) vilayəti kafirlərin xoşuna gəlməsə də, Allah Öz nurunu Qaimin vilayəti ilə tamamlayacaqdır).

***Müşriklərin xoşuna gəlməsə də, (İslam) dinini bütün dinlərdən üstün etmək məqsədilə Öz Elçisini hidayət və haqq dinlə göndərən Odur.***

İmam Museyi Kazim (ələyhis-səlam) buyurub: Bu ayədə "(Allahın) dinini bütün dinlərdən üstün etmək üçün" -yəni Qaimin qiyamı vaxtında (Qaimin qiyamı ilə Allah İslam dinini bütün dinlərdən üstün edəcəkdir).

*İsbatul-Huda c.5, səh.206, Biharul-Ənvar c.23, səh.318, Usuli-Kafi (İslamiyə) c.1, səh.432, Burhan təfsiri c.5. səh.95*

## Sad 88

***Siz onun verdiyi xəbəri bir müddətdən sonra mütləq biləcəksiniz.***

İmam Baqir (ələyhis-səlam) buyurub: (Bu) Qaimin xürucu haqqındadır.

*Biharul-Ənavr c.51, səh.62, Üsuli-Kafi (əl-İslamiyyə) c.8, səh.287, İsbatul-Huda c.3. səh.22, Burhan təfsiri, c.4, səh.687*



# Həzrəti Məhdi (əccələllahu fərəcəhuş şərif) başqa mənbələrdə

Məhdəviyyət inancı təkcə 12 imama inanan müsəlmanların yox, eyni zamanda bütün müsəlmanların başlıca etiqadında, həmçinin səmavi (xristianlıq və yəhudilik) və qeyri-səmavi inancların fövqündə durur. Məhdəviyyət inancı yeni bir icad olunmamaqla, əvvəldən-bəşəriyyətin ilk günündən, hətta ondan da əvvəl vəd olunmuşdur.

**(Ya Rəsulum!) Sənin Rəbbin mələklərə: "Mən yer üzündə bir xəlifə (canişin) yaradacağam", - dedikdə (mələklər): "Biz Sənə şükür etdiyimiz, şəninə tariflər dediyimiz və Səni müqəddəs tutduğumuz halda, Sən orada (yer üzündə) fəsad törədəcək və qan tökəcək bir kəsmi yaratmaq istəyirsən?"- söylədilər. (Allah onlara: ) " Mən bildiyim şeyi siz bilmirsiniz!" – buyurdu.** (Bəqərə 30)

**(Allah Adəmi yaratdıqdan sonra) Adəmə bütün adları öyrətdi.** (Bəqərə 31)

Göründüyü kimi Allah-taala hələ heç bir bəşəri yaratmamışdan əvvəl yer üzünə varis olacaq xəlifələrin-canişinlərin olacağını vəd etmiş, daha sonra isə Həzrəti Adəmi yaratdıqdan sonra bu adları Ona öyrətmişdir. Bu varislərin və xəlifələrin sonuncusu vəd olunmuş Həzrəti Məhdidir (əccələllahu fərəcəhuş şərif).



## Əhli-sünnə mənbələri;

Allahın Rəsulu (səlləllahu ələyhi və alih) buyurmuşdur: Mənim Əhli-Beytimdən və adı mənim adımdan olan bir kişi gəlməyincə Qiyamət baş verməyəcəkdir.

*Müsnədi Əhməd (Şakir), c.3, səh.491, hədis 3571*

Allahın Rəsulu (səlləllahu ələyhi və alih) buyurub: Məhdi Bizim Əhlibeytdəndir və Allahın əmrini bir gecədə islah edəcək.

*Sünəni ibni Macə, səh.680 h.4085*

Ümmü Sələm nəql edir ki, Allahın Rəsulu (səlləllahu ələyhi və alih) buyurdu: Məhdi Mənim itrətimdəndir (nəslimdən) və Fatimənin övladlarındadır.

*Sünəni ibni Macə, səh.680 h.4086*

Allahın Rəsulu (səlləllahu ələyhi və alih) buyurub: Əgər dünyanın sonuna bircə gün belə qalsa Allah həmin günü Mənim Əhli Beytimdən, adı mənim adımdan olan bir kişinin qiyam etməsinə qədər uzadar. Yer üzü zülmlə və fəsadla dolduğu kimi O bütün dünyada haqq və ədaləti bərqərar edər.

*Sünəni Əbu Davud əl Məhdi kitabı, hədis 4282,*
*Sünən Tirmizi Ma cаə fil Məhdiy, hədis 2231*







## Tövratda (Zəburda);

...Allah salehlərin günlərini bilir və onların mirasları əbədi olacaqdır. Onlar bəla vaxtı utanmayacaqlar, aclıq günləri doyacaqlar, pislər isə həlak olacaq. Allahın düşmənləri yağ kimi, bəlkə də tüstü kimi məhv olacaqlar; Çünki, salehlər Allahın xeyir duası üçün yer üzünün varisləri olacaqlar. Ancaq lənətlənmişlərin kökü kəsiləcəkdir. Sadiq insanlar yer üzünə varis olacaqlar və orada əbədi qalacaqlar. Allaha sığın, yoluna davam et ki, siz dünyanı miras almaq üçün diriləcəksiniz. Pisliklər kəsildikdə, Onu (Həzrəti Məhdini (əccələllahu fərəcəhu şərif)) görəcəksən. Ancaq üsyankar (asi) ümidsiz və şər insanlar aradan gedəcəklər.

*Əhdi Ətiqeyn, Məzmur kitabı, məzmur 37, bənd 9-38*





## İncildə;

(Həzrəti İsa (ələyhis-səlam) deyir:) ...Heç kim günü və saatı bilmir. "Atamdan" başqa, hətta göyün mələkləri belə bilmir. Nuhun günlərində olduğu kimi. Bəşər oğlunun zühuru da belə olacaqdır... . Buna görə də ayıq olun, çünki "Rəbb"inizin hansı saatda gələcəyinizi bilmirsiniz. Ancaq bilin ki, ev sahibi oğrunun gecə nə vaxt gələcəyini bilsəydi, oyaq qalıb evini qazmasına qoymazdı. Belə ki, siz yenə də hazır olun. Çünki, bəşər oğlu gözləmədiyiniz bir saatda gələcəkdir. Bəs Ağasının, onları təyin olunmuş vaxtda qidalandırmaq üçün evinin başına təyin etməsi lazım olan O sadiq və alim qul kimdir? Xoş olsun O qulun halına ki, Ağası Onu bu cür işə cəlb edir.

*İncil Matta səh.41, bab 24, bənd 1-8, 23-37, 42-46. Oxşar məzmunda Markos səh.77, bab 13, bənd 1-9, 32-37.*
*Luka səh.116, bab 12, bənd 35-40, bab 21, bənd 25-27. Yuhənna səh.417, bab 19, bənd 11-18*

(Qeyd: İncildə Həzrəti İsa peyğəmbər çox vaxt "rəbb" kimi və "rəbb"in oğlu kimi qeyd olunmuşdur. Allah isə "ata" kimi qeyd olunmuşdur. Buradan da aydın görünür ki, Həzrəti İsa peyğəmbər (ələyhis-səlam) həm Özünün gəlişini bildirir həm da bəşər oğlu olan yəni Həzrəti Məhdinin (əccələllahu fərəcəhuş şərif) gəlişini ayrı bir şəkildə bildirir. İncildə Həzrəti İsa peyğəmbərə bəşər oğlu kimi deyilmir)

## Hinduizmdə (Bütpərəstlikdə);

Dünya xarab olandan sonra, axirəz-zamanda bir padşah gələcək və o məxluqatın rəhbəri (lideri) olacaqdır. Onun adı Mənsurdur. O bütün dünyanı ələ keçirəcəkdir. O (hər kəsi) öz dininə gətirəcək, mömin və kafiri ayıracaqdır. O, Allahdan hər nə istəsə olacaq. (Oxşar məzmunda, başqa hindu kitablarında qeyd olunmuşdur. Bu kitablar; "upanişad", "bask", "patikal", "vişnu cuk (yoqa)" "did" "rike veda" "şakmuni")

*Başarəte Əhdeyn, səh.245, Əlaimi zühur, Kermani, səh.18*



# Həzrəti Məhdinin *(əccələllahu fərəcəhuş şərif)* zühuru və əlamətləri

Həzrti Məhdinin (əccələllahu fərəcəhuş şərif) zühuru məsələsi daimi olaraq həmişə aktual olmuşdur və zühura qədər də aktual olacaqdır. Niyə zühur (qeyb) uzanır? Zühur nə zaman olacaq? Zühurdan əvvəl və zühur zamanı hansı əlamətlər var? Bu əlamətlərin hansı baş verib? hansı baş verməyib? Və bu kimi suallar zühur məsələsi mövzu olduqda tez-tez ortaya gəlmiş olur.

Hər şeydən əvvəl onu qeyd edək ki, Həzrəti Məhdinin (əccələllahu fərəcəhuş şərif) zühuru (həmçinin qeybi) və bununla bağlı olan məsələlər spesifik olaraq Allaha məxsusdur. Yəni zühurun əmri, necəliyi, vaxtı, şəraiti bilavasitə Allahın hökmündə və hikmətindədir. Buna görə də zühurun dəqiq vaxtı və dəqiq şəraiti barəsində heç kəs qəti bir söz deyə bilməz. Çünki zühurun vaxtı təyin olunmamışdır. Görəsən bu o deməkdir ki, daha bizim əlimizdən bir şey gəlmir?! sadəcə zühuru quru şəkildə gözləyək? Əlbətdə yox, hətta tam əksinə. Əgər Allah zühur üçün bir şey təyin etməyibsə - deməli bizim daha çox fürsətimiz var ki, bu işdə daha yaxından iştirak edək. Hədislərə də diqqət etsək görərik ki, bir tərəfdən qeybin sirrinin və zühurun vaxtının Allaha aid olduğunu qeyd etmişlər, digər tərəfdən də zühurun yaxınlaşması və baş verməsi üçün insan faktorunun əhəmiyyətini bildirmişlər.

İbn Abbas deyir: “Allah Rəsulu (səlləllahu ələyhi və alih) buyurmuşdur: “Həqiqətən, Əli ibn Əbu Talib (ələyhis-səlam) ümmətimin imamı, onlara məndən sonra xəlifəmdir. Yer üzünü zülm və haqsızlıqla dolduğu kimi haqq-ədalətlə dolduracaq Qaim Müntəzər (intizarı çəkilən) onun nəslindəndir. Məni haqla bəşarət verən olaraq göndərənə and olsun ki, onun qeybində onunla əlaqədar sözə tabe olanlar qırmızı kibritdən də dəyərlidirlər (yəni nadir tapıldıqları üçün). Cabir ibn Abdullah Ənsari ona tərəf durub dedi: “Ya Rəsuləllah, nəslindən olan Qaimin qeybi var?” Buyurdu: “Bəli, Rəbbimə and olsun, (həm də) Allahın iman gətirənləri təmizləməsi və kafirləri məhv etməsi üçündür. Ey Cabir, həqiqətən, bu əmr Allahın əmrindən biridir, həmçinin Allahın sirrindən biridir. Allah bəndələrindən örtülmüşdür. Buna görə də, onun barədə şəkdən çəkin. Belə ki, Allah-taalanın əmrində şəkk (etmək) küfrdür”.

*Kəmaluddin c.1, səh.287-288, bab 25, hədis 7, Biharul-Ənvar c.51, səh.73*

İmam Sadiq (ələyhis-səlam) buyurub: Hər biriniz hətta bir oxla olsa belə Qaimin (əccələllahu fərəcəhuş şərif) zühuruna hazırlaşmalıdır. Həqiqətən Allah o şəxsin bu niyyətini bilsə, ümidim budur ki, onun ömrünü uzadar. O vaxta qədər ki, Onu görənlərdən olsun, Onun köməkçilərindən və yardımçılarından olsun.

*Şeyx Numani, Qeyb dövrü, səh.320, Biharul-ənvar c.52 səh.366*



## Zühurun əlamətləri

Zühurun əlamətlərinə gəlincə bu əlamətlərdən qəti olanlar da var, qəti olmayanlar da var. Bəzi əlamətlər qəti olmasalar da bu o demək deyil ki, onlar olmayacaq və ya bu məsləyə yüngül yanaşılmalıdır. Bu əlamətlər zühur məsələsində bizi daima diri tutur və yadımızdan çıxamağa qoymur. Bununla bərabər heç kəs bu əlamətlərdən sui-istifadə edərək yeni fikirlər yaradıb zühur üçün qəti bir şey deməməlidir. Zühur işi Allaha bağlıdır. Qəti qeyd olunan əlamətlərin isə ya şərhini dəqiq deyə bilmərik, ya bu əlamətlərin bəziləri elə zühurla birlikdədir, ya da bəziləri zühurla qiyam arasındadır. Çünki burada həm insan faktoru var, həm də bu əlamətlər təkcə zühurdan əvvəl üçün yox, həmçinin zühurdan sonra üçün lazımdır. Bu ona görə ola bilər ki, elanı hər kəsin eşitməsinə baxmayaraq heç də zühur anında hamı bir nəfəsə bu işi dərk etməyəcəkdir. Qısa müddət ərzində də olsa belə zühurun qəbul olunması tədrici baş verəcəkdir. Hətta zühurdan qısa bir müddət sonra qiyam etməyə ehtiyac olacaqdır. Ona görə də əlamətləri dəyərləndirərkən, zühur anını, zühurdan sonrakı vəziyyəti və qiyam vaxtını nəzərə almaq lazımdır.





Yaşayan və gizli İmam (Canlı Höccət)

Əli ibn Əbu Həmzə Əbu Bəsirdən İmam Sadiqin (ələyhis-səlam) belə buyurduğunu nəql edir: "Qaimin (əccələllahu fərəcəhuş şərif) gəlişi çoxlu yağışların baş verəcəyi ildədir. Həmin yağış ağaclardakı meyvələri və xurmaları zay edəcək. Buna əsla şəkk etməyin".

*İrşad, c.2, səh.377, Şeyx Tusi, Qeyb dövrü, səh.449, Biharul-Ənvar c.52, səh.214, Kəşfül-Ğümmə (əl-qədimə) c.2, səh.461)*

İmam Sadiq (ələyhis-səlam) buyurmuşdur:
"Qaimin (əccələllahu fərəcəhuş şərif) qiyamından öncə beş əlamət vardır: Yəmani, Süfyani, səmadan car çəkən carçı, beydada yerə batma, Nəfsüz-zəkiyyənin qətli".

*Kəmaluddin, c.2, səh.649, Əl-Xisal c.1, səh.303, Biharul-Ənvar c.52, səh.203)*

Muhəmməd ibn Müslim Əbu Cəfər Muhəmməd ibn Əlidən (İmam Baqirdən (ələyhis-səlam)) belə nəql edir: Süfyani və Qaim bir ildədirlər (eyni ildə xüruc edəcəklər).

*Şeyx Numani, Qeyb dövrü səh.267, İsbatul-Huda c.5, səh.366, Biharul-Ənvar c.52, səh.239)*



Hədislərdən də göründüyü kimi bəzi əlamətlər zühurdan qabaq, bəziləri zühur vaxtı, bəziləri isə qiyamdan əvvəl üçün qeyd olunmuşdur. Yəni zühurdan əvvəlki dövrü, zühur vaxtını və qiyamı ayrı-ayrı dəyərləndirməliyik. Bu qeyd olunanlar onu deməyə əsas verir ki, bəzi əlamətlərin insanları həyəcanlandırmasına baxmayaraq zühurun dəqiq tarixlə nə zaman başa verəcəyini heç kəs deyə bilməz. Qəti deyilən əlamətlər isə əsasən zühurdan sonra (və ya zühurla birlikdə) və qiyamdan əvvəl baş verəcək hadisələrdir. Buna görə də hər əlaməti mütləq şəkildə məhz zühurdan əvvəl olduğunu zənn edib, özümüzü zühurun vaxtı və necəliyi barəsində çətinliyə salmayaq .

Əbu Bəsir deyir, İmam Sadiqdən (əleyhis-səlam) Qaimin çıxışı barəsində soruşdum. **Buyurdu: Biz Əhli Beyt (əleyhimus-səlam) vaxt təyin etməmişik və Muhəmməd Peyğəmbər (səlləllahu ələyhi və alih) deyib: Vaxt təyin edənlər yalançıdırlar"**

*İsbatul Huda c.5, səh.167, Şeyx Numani Qeyb dövrü, səh.289, Biharul Ənvar c.52, səh.119)*

İmam Zaman (əccələllahu fərəcəhuş şərif) buyurub: **...Vaxt təyin edənlər yalan deyirlər... .**

*Şeyx Tusi Qeyb dövrü, səh.290, Təbərsi Əl-Ehticac c.2, səh. 469, Kəmaluddin c.2, səh.483, bab 45, hədis 4, Biharul Ənvar c.53. səh.181*

Xüsusi şəkildə bunu vurğulayaq ki, bütün bunları qeyd edərkən Həzrəti Məhdinin (əccələllahu fərəcəhuş şərif) zühuru, qiyamı və bu barədə olan əlamətlərin barəsindəki hədislərin aliliyini nəzərdən qaçırmayaq.

## Vaxt təyin etmək olarmı? Qəti əlamətləri necə izah edək?
## Ramazan ayının 23-ü zühurun elanı veriləcəkmi?

**Haris ibn Müğeyrə İmam Sadiqin (ələyhis-səlam) belə buyurduğunu nəql etmişdir: “Ramazan ayında (səmadan carçı tərəfindən səslənən) çığırtı bu aydan iyirmi üç gün keçdikdə cümə gecəsi baş verəcəkdir”.**

*Kəmaluddin c.2, səh.650, İsbatul-Huda c.5, səh.349, Biharul-Ənvar c.52, səh.204*

**Əbu Bəsir deyir, İmam Sadiqdən (ələyhis-səlam) Qaimin çıxışı barəsində soruşdum. Buyurdu: Biz Əhli Beyt (ələyhimus-səlam) vaxt təyin etməmişik və Muhəmməd Peyğəmbər (səlləllahu ələyhi və alih) deyib: Vaxt təyin edənlər yalançıdırlar.**

*İsbatul Huda c.5, səh.167, Şeyx Numani Qeyb dövrü səh.289, Biharul Ənvar c.52, səh.119*

> **“ Həm carçının nidası həm də bunun timsalında digər qəti əlamətləri necə izah edək?**

**Hədislərə diqqət etdikdə görürük ki, həm zühur üçün vaxt təyin etməyin yanlış olduğu vurğulanır, həm də Ramazan ayında və ya Cümə günündə zühurun baş verəcəyi qeyd olunur. Bir haldakı, Allah tərəfindən zühurun hansı zamanda baş verməsi üçün vaxt təyin olunmamışdır. Buna görə də, zühurun nə zaman baş verəcəyi barəsində Həzrəti Peyğəmbərimizə (səlləllahu ələyhi və alihi) və Onu Əhli-Beytinə (ələyhimus-səlam) heç bir xəbər verilməmişdir. Necə ki, Qiyamət günü üçün vaxt təyin olunmamışıdır və bunun xəbəri də verilməmişdir. Beləliklə zühur üçün vaxt təyin etmək olmaz.**

**Bunları nəzərə alaraq Ramazan ayının 23-də zühurun elanı və həmçinin Cümə günü zühurun baş verməsi labüddürmü? Bunu necə izah edək?**

**Əvvəlcə onu bilək ki, Ramazan ayında zühurun elan olunması və ya Cümə günü zühurun baş verməsini demək-vaxt təyin etmək sayılırmı? Hansı halda vaxt təyin etmək sayılır və ya hansı halda isə vaxt təyin etmək sayılmır.**





**Əgər biz bunu mütləq şəkildə qəbul etsək ki, Ramazan ayının 23-ü və Cümə günü mütləq zühur olacaqdır - o zaman vaxt təyin etmək sayılacaqdır. Hətta hansı ildə olmasının deyilməməsinə baxmayaraq, sadəcə ayın və həftənin gününü mütləq şəkildə vurğulasaq belə, bu başqa vaxtda (məsələn: şənbə günü) zühur ola bilməz anlamına gəldiyi üçün yenə də vaxt təyin etmək sayılacaqdır. Çünki Allah zühur üçün vaxt təyin etmədiyindən, biz qəti bu gün zühur ola bilməz də deyə bilmərik. Desək, Allahın işinə və hikmətinə qarışmış olarıq. Lakin istisna halları nəzərə alsaq və bu işin son ana kimi Allahın əlində olduğunu qəbul etsək, o zaman vaxt təyin etmiş sayılmarıq.**

**Ancaq eyni zamanda bütün bunlarla belə bu deyilənlər, Ramazan ayında və ya Cümə günündə zühurun baş verməsi ehtimalının böyük ölçüdə zədələnməsi anlamına gəlməməlidir. Həmçinin bu o demək deyil ki, bu günlərin əvəzinə başqa günləri təbliğ etməliyik. Yəni, deyilən vaxtların (Ramazan ayının, Cümə gününün) zühur üçün mütləq mənada olmaması o demək deyil ki, ehtimal aradan götürülsün. Sadəcə olaraq bu işdə başqa ehtimallar da nəzərə alınmalıdır. Əlbətdə ki, vurğulanan ehtimallar digər ehtimallardan öndədir. Çünki ən azı bu günlər barəsində kifayət qədər hədislər vardır və nəticə etibarı ilə hədislərin aliliyi həmçinin Allahın ənənəsi (prinsipi) diqqətdən kənar qalmamalıdır.**

**"**

Bununla belə əlamətlər barəsində olan hədislərin hamısının deyildiyi kimi icra olunması da mütləq deyildir. Çünki bu barədə həm bəda (dəyişmə) məsələsi vardır, həm də bəzi hədislərin mənasını tam anlamaya bilərik. Məsələn; zühurun elan olunması-dərhal sonra zühurun baş verməsi anlamına gəlməyə bilər. Həmçinin zühurun elan olunmaması, bunun baş verməsinin mütləq mənada qarşısını kəsə bilməz. Hətta bütün əlamətlər tam şəkildə hasil olsa belə Allah zühuru gecikdirə bilər və onu başqa vaxtda icra edər. Belə olduqda isə zühur üçün yenidən əlavə əlamətlərə ehtiyac duyumlaya bilər. Yəni əgər zühur gecikərsə, deməli biz zühurun özündən başqa bir şeyi gözləmək məcburiyyətində qalmamalıyıq. Bütün bunlar qeybin uzun çəkməsi və Allahın hikmətinə əsasən mümkündür.

Beləliklə bəzi əlamətlərin qəti şəkildə baş verməsi deyildikdə-bu dərhal sonra zühurun da qəti şəkildə baş verməsi anlamına gəlməməlidir. Yəni zühurun gecikməsi, əlamətlərin qətiliyini aradan aparmır. Və yaxud da bəzi qəti əlamətlər zühurla paralel (və ya eyni ildə) olduğundan-əsas etibarı ilə öncəliyimiz zühurun özü olacağından, bu əlamətlər arxa plana keçə bilər və ya zühurun baş verməsini anlamaq üçün köməkçi xarakter daşıya bilər. Həmçinin bəzi əlamətlərin məhz zühur üçün yoxsa qiyam üçün olduğunu bilmək də önəmlidir. Məsələn: Qiyamdan öncəki əlamətlər deyildikdə; bu əlamətlərin hamısının və ya müəyyən bir hissəsinin zühurla qiyam arasında yoxsa zühurdan əvvələ aid olduğunu qeyd etmək birmənalı şəkildə deyildir.



İmam Sadiq (ələyhis-səlam) buyurmuşdur: "Qaimin (ələyhis-səlam) qiyamından öncə beş əlamət vardır: Yəmani, Süfyani, səmadan car çəkən carçı, beydada yerə batma, Nəfsüz-zəkiyyənin qətli".

*Kəmaluddin c.2, səh.649, Əl-Xisal c.1, səh.303, Biharul-Ənvar c.52, səh.203*

Qeyd etdiyimiz hədisdəki, məşhur beş əlamətin bəzilərinin zühurla qiyamın arasında, bəzilərinin zühurla paralel, bəzilərinin də zühurdan əvvəl olması mümkündür.



Yaşayan və gizli İmam (Canlı Höccət)

Nəticə etibarı ilə, qəti əlamətlərin üstündə möhkəm durmaq-xüsusi ilə müntəzirlər üçün çox böyük rol kəsb etməməlidir. Zühurun qəflətən baş verməsini vurğulamaq buna ən gözəl izahdır. Əlbətdə ki, bu, əlamətlərin əhəmiyyətsiz olması demək deyildir.

Sözsüz ki, bütün bu deyilənlər, hədislərin aliliyinə zərər gətirmir. Çünki, Rəsuli-Əkrəm (səllallahu ələyhi və alihi) və Əhli-Beyt (ələyhimus-səlam) özləri bu barədə olan hədisləri nəql edərkən bunları nəzərə alıblar və zühurun əmrinin yalnız Allahın əlində olduğunu birmənalı şəkildə vurğulamışlar. Eyni zamanda bunu da xüsusi qeyd edək ki, deyilənlərdən qəti olaraq bu nəticəyə gəlinməsin ki, bu barədə diqqətimizi hədislərdən kənar bir şeyə cəmləşdirərək, Ramazan ayında və Cümə günü zühur olmaya bilər tezisini də təbliğ edək.

Nəticə olaraq hər hansı bir ildə Ramazan ayının 23-ü və ya Cümə günündə mütləq şəkildə zühurun baş verməsi labüd deyildir. Bununla bərabər bu barədə hədislərin aliliyini və Allahın ənənəsini (sünnətini) əsas götürərək, vəzifəmiz bu işdə tələsməmək və səbr etməkdir.

Əli ibn Seyf ibn Umeyrə öz atasından, o da Humran ibn Əyəndən Əbu Əbdullahın (ələyhis-səlam) (İmam Sadiqin) belə buyurduğunu nəql edir: İmamını tanı. Əgər onu tanısan, bu işin tez olması və ya gecikməsi sənə zərər vurmaz. Həqiqətən də, Allah-taala belə buyurur: O gün bütün insanlar öz imamı ilə çağıracağıq (İsra 71). Kim öz imamını tanısa, Qaimin (ə.f.) (Muntəzirin) çadırında olan şəxs kimi olar.

*Şeyx Numani Qeyb dövrü səh.331, həmçinin başqa mənbə ilə- Şeyx Numani Qeyb dövrü səh.330-331, Biharul-ənvar c.52 səh.142*



# “ ZÜHUR NƏ ZAMANDIR?

**Səndən qiyamətin nə zaman qopacağını soruşurlar. De: “Onun bilgisi yalnız Rəbbimə məxsusdur. Vaxtı çatanda onu ortaya çıxaracaq yalnız Odur. Qiyamətin bilgisi göylərə də, yerə də ağır gəlmişdir. O sizə qəflətən gələcəkdir”. Sanki sən onun haqqında bir şey bilirsənmiş kimi səndən soruşurlar. De: “Onun bilgisi yalnız Allaha məxsusdur. Lakin insanların çoxu bilmir”.** (Əraf, 187)

**İmam Rza (ələyhis-səlam) buyurub: Həzrəti Rəsuli Əkrəmdən (səlləllahu ələyhi və alihi) soruşdular Qaimin zühuru nə zamandır? O Həzrət buyurdu: “Onun məsəli Qiyamətin məsəli kimidir. Hansı ki, “(qopacağı) vaxtı yalnız O, aşkara çıxara bilər. (Bu bilgi) göylərə və yerə də ağır gəlir. O sizə qəflətən gələcəkdir.**(Əraf 187)

*Uyunu Əxbarur Rza əleyhissalam c.2, səh.265-266, Kəmaluddin c.2, səh. 373, bab 35, hədis 6, Biharul-Ənvar c.51, səh.154*



**Onlar özlərinə edilmiş xəbərdarlığı unutduqları zaman hər şeyin qapılarını onların üzünə açdıq. Özlərinə verilən şeylərə sevindikləri vaxt isə onları qəflətən yaxaladıq və onlar naümid qaldılar.** (Ənam, 44)

Əbu Həmzə İmam Baqirdən (ələyhis-səlam) nəql edir: Həzrət **- onları qəflətən yaxaladıq və onlar naümid qaldılar -** ayəsi haqqında belə buyurdu: “Yəni, Qaimin qiyamı”.

*Safi təfsiri, c.2, səh.121, Nur təfsiri, c.1, səh.718, Qummi təfsiri, c.1, səh.200, Burhan Təfsiri, c.2, səh.419, Biharul-Ənvar c.35, səh.369-371)*

Zühur hər an ola bilər. Allahın əmrindən başqa Həzrəti Məhdinin (əccələllahu fərəcəhuş şərif) hər an zühur etməsinin qarşısını ala biləcək heç bir maneə yoxdur. Əlbətdəki hədislərdə deyilən qəti əlamətlər qiymətlidir və izahı vardır.

***Beləliklə zühur üçün vaxt təyin etmək olmaz və deyilən qəti əlamətləri də qəti vaxt üçün yozmamalıyıq.***

**Fuzeyl deyir: İmam Baqirdən (ələyhis-səlam) soruşdum: Bu işin (zühurun) vaxtı varmı? Buyurdu: Vaxt təyin edənlər yalan danışıb, Vaxt təyin edənlər yalan danışıb, Vaxt təyin edənlər yalan danışıb.**

*Şeyx Tusi Qeyb dövrü, səh.425-426, BiharulƏnvar c.52, səh.103*



# Bəzi məsələlər

Məhdəviyyət inancı dünya miqyasında olan bir məsələ olduğundan, həmçinin hər kəsin vədolunmuş bir nicatverənə ümid bəsləndiyindən, bu mövqe üçün çoxlu saxta iddiaçılar da meydana gəlmiş olur. Şübhəsiz ki, bu iddiaları aradan götürmək üçün, Məhdəviyyət bəhsini dolğun və düzgün anlamaq, həmçinin vədolunmuş nicatverənin xüsusiyyətlərini bilmək lazımdır. Bununla bərabər həmçinin bəzi iddiaçılar və onların ortaq xüsusiyyətləri ilə tanış olmaq da artıq qaçınılmaz olur. Bu iddiaçılardan bizim coğrafiyaya və vaxtı ilə dinimizə yaxın olan bir neçə nümunəni göstərmək olar. Bu iddiaçılar istərsə sadəcə bir firqə və ya fikir kimi, istərsə də yeni bir “din” adı altında ola bilərlər. Şeyxiyyə, Babilik, Bəhailik, Qadiyani, Yəmani kimi cərəyanları buna misal göstərmək olar. Bu siyahını çoxaltmaq da olar. Əsas məqsəd saxta iddiaçılar haqqında ümumi bir fikri ortaya qoymaqdır.



Bu cür iddiaların meydana çıxmasını və bəzilərinin hələ də davam tapmasını şərtləndirən əsas xüsusiyyətlərindən biri, nəfsi məqamlara çatmaqla bərabər Məhdəviyyət inancını ləkələmək, onu gözdən salmaq, onan inananların səmtini dəyişmək, məlum olan vədolunmuş nicatverənin kimliyini şübhə altına atmaqdan ibarət olmuşdur.

Buna misal olaraq şeyxiyyə, babilik və bəhailik kimi biri-birini tamamlayan cərəyanların ideoloji hədəfləri və fəaliyyətlərinin məğzini göstərmək olar.



Belə ki, ilk öncə (böyük qeyb dövründə) “Məhdi”nin mütləq xüsusi təyin olunmuş vəzifəli bir adamı olmalıdır, ideasını önə atmaqla artıq toxumlar səpilmiş olur-nisbətən yüngül bir iddia ilə başlanılır (Şeyx Əhməd Əhsai-Şeyxiyyə firqəsi). Daha sonra artıq “Məhdi” ilə insanlar arasında olan həmin o xüsusi qeyd olunmuş şəxs məlum olur (Mirzə Əli Məhəmməd Şirazi-Bab). Daha sonra isə bu vasitəçi şəxs özünü “Məhdi” elan edir (Babilik). Hətta qısa müddətdən sonra peyğəmbərlik iddiasında da olduğu məlum olur (ölümündən sonra, yazdığı kitaba görə). Növbəti ssenaridə isə bu ardıcıllığı tamamlamağa çalışan şəxs (Mirzə Hüseyn Əli Nuri-Bəhaullah), artıq yeni “peyğəmbər” və yeni “din” adı ilə bu işi-yəni artıq Məhdəviyyət və Məhdi yoxdur inancını “sona çatdırmış” olur (Bəhailik). Göründüyü kimi bu cərəyanlar Məhdəviyyət inancını vurmağa hesablanmışıdır. Bu prosseslərin əvvəli nəfsi istəklər, boş məqamlar və tutarsız iddialarla başlasa da, sonradan bu iddiaların ölməməsi üçün maraqlı tərəflər iddia sahiblərini öz himayələri altına almış olurlar. Müasir dövrmüzdə də bu prosses dövrün şərtlərinə uyğun olaraq davam etməkdədir. Buna görə də bu iddiaların ayaqda durması və dövrün şərtləri ilə ayaqlaşması üçün kapitalizmin prinsipləri əsas götürülür. Bununla da böyük şirkətləri idarə edənlər Məhdəviyyət inancına təsir edən cərəyanları da (Bəhailik) həmin şirkətlərin inkişaf-təbliğat proqramları və prinsipləri əsasında idarə edirlər.

“

Məhdəviyyətə qarşı olan bu diqqət (əks münasibət), əvvəldə qeyd etdiyimiz kimi, bu inancın dünya miqyasında olmasından və fitri olaraq insanların buna meyl etməsindən irəli gəlir. Buna görə də istər-istəməz bu mövzu həmişə aparıcı qüvvələrin diqqət mərkəzində durmuşdur.

Diqqətli olmalı olduğumuz məqamlardan biri budur ki, bu kimi cərəyanlar öz təbliğat və təşviqat proqramlarına yerinə yetirərkən heç də özlərini aşkar şəkildə biruzə vermirlər. Əvəzində isə bəzi əzbərlənmiş; sülh, bərabərlik, ədalət, hamımız bir ailəyik kimi şablon sözlərdən istifadə etməklə pərdə arxasında gizlənib cəmiyyətin simpatiyasını səbəb ola biləcək prinsipləri irəli çəkirlər. Xüsusilə bu kimi cərəyanlar təbliğatlarını daha asan şəkildə icra etsinlər deyə və perspektivliyi də nəzərə alaraq az yaşlı uşaqlar üzərində xüsusi yanaşma ilə köklənirlər.

Bu işləri görərkən ilk öncə dini rituallarla yox, daha çox sosial tədbirləri həyata keçirdirlər.  Sözsüz ki, bu valideynlərin duyuğ düşməməsi və qınaqlardan kənarlaşmaq üçün nəzərdə tutulub. Bu tədbirlər gələcək nəsilləri xüsusilə müsəlman xalqları Məhdəviyyətsiz inanc üzərində yetişdirmək üçündür.

Bütün bu deyilənlərdən sonra üzərimizə düşən məsuliyyət, əqidə təhlükələrini nəzərə alaraq son dərəcədə diqqətli və mövzu barəsində bilgili olmalıyıq. Xüsusilə zəmanəmizdə ən vacib vəzifə olan Məhdəviyyət inancını və Həzərti Məhdinin (əccələllahu fərəcəhuş şərif)  doğru şəkildə tanınmasını daima diri tutmaq-əqidə təhlükəzliyinin zəmanətidir.

”

